www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 2 fevral 2015-ci il Bazar ertəsi № 23 (6051) Qiyməti 40 qəpik

**Xəbər**

## Baş nazir edam edilən yaponlara görə ağladı...

yazısı səh.8-də

**Gündəm**

### Bakı girovlarla bağlı hərəkətə keçdi



Kəlbəcərli soydaşlarımızın məsələsi BMT-də də qaldırıldı; baş prokuror məsələni xüsusi nəzarətə götürdü...

yazısı səh.11-də

### Müsavat Novxanıda Rəsulzadəni andı

yazısı səh.5-də

### Yadigar Sadıqov və Nemət Pənahlının səhhəti pisləşib

yazısı səh.3-də

### Seçki ilinin ikinci ayı başladı: müxalifət nə düşünür?

yazısı səh.6-da

### SOS: Azərbaycana qonşu ölkədə Ebola!..

yazısı səh.13-də

### Bu gün Müsavatda iki narazı üzvə Divan qurulur

yazısı səh.9-da

### Azərbaycanın kredit reytinqi təhlükədə

yazısı səh.12-də

### Hövsan aksiyasında iştirak edən sakinlərə təzyiqlər başlayıb

yazısı səh.14-də

### Saakaşvili Putinin Azərbaycana müdaxilə planından danışdı

yazısı səh.10-da

### Bakıda satıcı qızlar mağaza sahibini döydülər

yazısı səh.12-də

### Dünyadakı ilginc məhbus hekayələri...

yazısı səh.15-də

### Televiziyada aparıcılıq edən əkiz bacılardan növbəti biabırçılıq

yazısı səh.3-də

## Bakı-Qərb münasibətlərində "daşları yığmaq" zamanı

# ABŞ-IN YENİ SƏFİRİ BARIŞLA GƏLİR - ŞƏRH, TƏFƏRRÜAT

Vaşinqtonla "soyuq savaş" dövrü bitir; Sekutanın gəlişi ərəfəsi hakimiyyətin Rusiyaya növbəti reveransı ilə yadda qalsa da, iqtidar Amerikanı da "unutmur"; Azərbaycanın Qərblə əlaqələrinin gələcəyi indi həm də Ukraynada həll olunur...




yazısı səh.8-də

## Kreml "AzerRos" davasında Abbas Abbasovun tərəfini tutdu

Söyün Sadıqov rəsmi Moskvanın bu seçiminə etiraz olaraq Rusiya Millətlər Assambleyasından istefa verdi; sabiq vitse-premyerə ittiham: "DİN əməkdaşlarının göndərilməsi Abbas Abbasovun sifarişidir..."

yazısı səh.10-da



*Fazil Mustafa:*

### "İki sual qarşısında qalmışıq..."

yazısı səh.7-də



Nüşabə Ələsgərli

### Müğənni fahişəliyə görə tutulan prodüserin müdafiəsinə qalxdı

yazısı səh.12-də



Rüstəm Usubov

### Baş prokurorun 1-ci müavini öldürülən məhkumun bacısını qəbul etdi

yazısı səh.13-də

## Təbriz yolunda dəhşətli yol qəzası: 6 ölü



**Azərbaycanın şimalında olduğu kimi, cənubunda da yol qəzaları kütləvi tələfatlarla nəticələnir. Son məlumata görə, Təbriz-Azərşəhr yolunda baş verən dəhşətli qəzada 6 nəfər sərmişin həyatını dəyişib.**

Şərqi Azərbaycan Vilayətinin (ostan) Tibbi Hadisələr Mərkəzinin sözçüsü bildirib ki, kütləvi tələfat Təbriz-Azərşəhr yolunda "Peykan" markalı minik maşınının suya düşməsi nəticəsində baş verib. Hüseynquluzadənin sözlərinə görə, hadisə Xosrovşah qəsəbəsinin girişində baş verib.

GünAz TV xəbər verir ki, iki gün öncə Azərbaycanın digər bölgəsində "Ölüm magistralı" kimi tanınan Əhər-Təbriz yolund yük maşını bir minik maşını ilə toqquşub. Qəza nəticəsində minik maşınının 5 sərnişini hadisə yerində dünyasını dəyişib. Yük maşınının sürücüsü isə yaralanıb.

Bu barədə Şərqi Azərbaycan Vilayətinin Polis İdarəsinin rəisi bildirib ki, Əhər-Təbriz yolunda baş verən qanlı yol qəzasının müqəssiri sürücü ilə yanaşı Yol və Şəhərsalma İdarəsidir. Həsən Fərəcinin sözlərinə görə, minik maşını sürücüsünün ehtiyatsızlığı və sürət həddinə riayət etməməsi maşının sürüşməsinə səbəb olub. Bu hadisənin 50 faiz müqəssiri isə Yol və Şəhərsalma İdarəsidir. Həmin idarə qar yağdıqdan dərhal sonra yola duz səpməli və yolu açmalı idi, lakin müşahidələr göstərir ki, bu baş verməyib.

❑ **Cavid TURAN**

## Qoşulub qaçan qızın ailəsi oğlanı öldürdü

**Bir-birinə qoşulub qaçan 25 yaşlı gənci və 19 yaşlı qızı insanların gözləri önündə bıçaqlayıblar. Hadisə Türkiyənin İstanbul şəhərində olub. Mardindən qaçan 25 yaşlı oğlanla 19 yaşlı qız avtobusdan düşən kimi 4 nəfər bıçaqlı şəxs onlara hücum edib. Əvvəlcə oğlanı bıçaqlayıblar. O, yerə yıxılandan sonra qıza hücum ediblər.**

Oğlan yerindəcə keçinib. Qız isə ağır vəziyyətdə xəstəxanaya aparılıb.

Hadisəni görənlərin sözlərinə görə, qız bıçaqlı adamlara baxanda birinə "qardaşım" deyib. Bundan başqa, qızın atası bir gün əvvəl qızının itkin düşməsi haqqında polisə müraciət edib. Buna görə, polis ehtimal edir ki, bıçaqlı adamlar qızın qohumları olublar. Qız ağır yaralansa da, həkimlərin suallarına cavab verə bilib. O, həkimlərə 19 yaşı olduğunu, onları eyni xəstəxanaya aparmalarını deyib.

## İŞİD-çilər kişini yüksək binanın damından yerə atdılar

**İŞİD silahlıları daha bir dəhşətli cinayətə imza atdılar. Anspress-in məlumatına görə, terrorçular bir adamı yüksək bir binadan atarkən çəkdikləri fotoşəkilləri sosial mediada yayıblar.**

İnsanlığa sığımayan edam aktı İŞİD-in Suriyanın Rakka şəhərində həyata keçirilib. Silahlılar sözügedən şəhəri Azad Suriya Ordusundan alıblar və şəhər hazırda İŞİD-in nəzarətindədir.

Edam həyata keçirilmədən əvvəl, terrorçular xalqı meydana yığaraq şəriət qaydalarına uyğun hökm çıxardıqlarını elan edirlər. Terrorçular günah işlədən hər kəsin mütləq cəzalandırılacaqlarını bildirirlər.

Təşkilat son dövrlərdə nəzarətə aldığı ərazilərdə müxtəlif edam aktları həyata keçirib. Bunlar arasında baş kəsmə, güllələnmə və günahlandırılan insanın yüksək binalardan atma kimi üsullar var.

## Bayram Kürdəxanlı azadlıqda

**Tanınmış meyxanaçı Bayram Kürdəxanlı azadlığa çıxıb. Bu haqda AZXEBER.COM-a meyxanaçı Mehdi Masallı məlumat verib. Onun dediyinə görə, Bayram yanvarın 31-də apelyasiya qaydasında azadlığa buraxılıb. Qeyd edək ki, meyxanaçının barəsində ötən il Cinayət Məcəlləsinin 234-cü (narkotik vasitələrin qanunsuz dövriyyəsi) maddəsi ilə cinayət işi açılmışdı.**

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# Şəhid əsgərimiz dəfn olundu





**Yanvarın 31-də Ermənistan Silahlı Qüvvələrinin atəşkəsi pozması nəticəsində şəhid olmuş əsgər Eşqin Rəhim oğlu Allahverdiyev fevralın 1-də Şəki rayonunun Böyük Dəhnə kəndində dəfn olunub.Musavat.com-un Müdafiə Nazirliyinin (MN) saytına istinadən verdiyi məlumata görə, vida mərasimində MN-in zabiti, polkovnik Abdulla Qurbani müdafiə naziri, general-polkovnik Zakir Həsənovun və Silahlı Qüvvələrin Baş Qərargah rəisi, general-polkovnik Nəcməddin Sadıkovun başsağlığını şəhidin ailəsinə çatdırıb.**

Mərasimdə Şəki Şəhər İcra Hakimiyyətinin başçısı Elxan Usubov, Şəki rayon Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələri İctimai Birliyinin sədri Məmmədnuru Əzizov, Böyük Dəhnə kənd bələdiyyəsinin sədri Kərəm Mürsəlov və başqaları çıxış edərək torpaqlarımızı işğaldan azad etmək üçün Ali Baş Komandanın hər bir əmrinə hər an hazır olduqlarını bəyan ediblər.

Bölgənin qazısı Hacı Kamran əfəndi və şəhidin babası Paşa Vahab oğlu şəhidin dəfninin yüksək səviyyədə təşkilinə görə Azərbaycan prezidenti İlham Əliyevə və minnətdarlıqlarını bildiriblər.

E. Allahverdiyev Şəhidlər Xiyabanında dəfn edilib.

Əsgəri ənənələrə uyğun olaraq yaylım atəşləri açılıb, məzar üzərinə Müdafiə Nazirliyi, Şəki şəhər İcra Hakimiyyəti, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Şəki rayon şöbəsi və ictimai təşkilatlar adından əkllilər və gül dəstələri düzülüb, cənazə üzərinə sərilmiş bayraq əbədi xatirə saxlanılması üçün şəhidin ailəsinə təqdim olunub.

## Samuxda ev partlayıb - ana və azyaşlı qızları ağır yanıq xəsarətləri alıblar

**Samuxda yaşayış evində güclü partlayış baş verib. APA-nın qərb bürosunun verdiyi məlumata görə, hadisə fevralın 1-də səhər saat 6 radələrində rayonun Qarayeri qəsəbəsində Rübabə Əliyevaya məxsus həyət evinin qış üçün nəzərdə tutulan köməkçi otağında baş verib.**

Partlayış nəticəsində evin gəlini, 1986-cı il təvəllüdlü Ramilə Əliyeva, onun 7 və 5 yaşlı qızları Sona və Gülay yanıq xəsarətləri alıblar.

Gəncə şəhər Təcili Tibbi Yardım Xəstəxanasına yerləşdirilən R. Əliyeva vəziyyəti ağır olduğundan Bakıda ixtisaslaşmış xəstəxanaların birinə göndərilib.

Uşaqlar isə Gəncədə 2 saylı Birləşmiş Uşaq Xəstəxanasına yerləşdirilib. Həkimlər uşaqların vəziyyətlərinin orta ağır olduğunu bildirirlər.

Partlayış nəticəsində evin divarları dağılıb, otaqda olan əşyaların bir hissəsi yanaraq yararsız hala düşüb.

Hadisənin baş vermə səbəbləri müəyyənləşdirilir.

Faktla bağlı Samux Rayon Prokurorluğunda araşdırma aparılır.

## 3 yaşlı uşaq atasını və hamilə anasını güllələdi

**ABŞ-da 3 yaşlı oğlan uşağı atasını, hamilə anasını Nyu Meksikadakı motel otaqlarından birində güllələyib. Hadisə bazar günü günorta saatlarında baş verib. Valideynlər hazırda müalicə olunurlar. Polis idarəsi bəyanatında deyib ki, uşaq anasının çantasında olan tapançanı götürüb və atəş açıb.**

Güllə atasının yanından dəyib və budundan çıxıb. Ana isə çiyninden yaralanıb. Maraqlıdır ki, ana hamiləliyin 8-ci ayını keçirir. Hazırda o, xəstəxanada olsa da, vəziyyəti stabil hesab olunur. Ata isə artıq xəstəxanadan buraxılıb.

Castin Reynolds deyib ki, o və onun qız-dostu Monique Villeskas pitsa sifariş verməyə hazırlaşırmış: "Birdən atəş səsləri eşitdik. Sonra mən gördüm ki, qız-dostumu qan apardı", uşağın atası "NBC News"a açıqlamasında belə deyib. "Sonra mən başa düşdüm ki, mən də güllə yarası almışam" - ata deyib. Onlar dərhal polisə zəng vurublar.

"Mən özümdən daha çox qız-dostuma görə narahat idim. Bizə atəş açan oğluma görə də məyus olmuşdum. Düşünürdüm ki, uşaq əgər özünə atəş açsaydı, nə ola bilərdi? Oğlum isə şok yaşadı. O, dayanmadan çığırırdı. Əlbəttə, bu, onun psixi durumuna böyük zərbə oldu.

❑ **Elbəyi HƏSƏNLİ**



## Hərbçilər prezidentə qarşı

**Ukraynada könüllü döyüşçülərdən ibarət batalyon paytaxt Kiyevdə Maydanda etiraz aksiyası keçirirlər. anspress-in məlumatına görə, döyüşçülər prezident Pyotr Poroşenkonun istefasını tələb edirlər.**

Mitinqdə iştirak edən "umumukrayna qardaşlıq batalyonu" bəyan edib ki, Ali Rada dövlət başçısının impiçmentini elan etməli və onun toxunulmazlıq hüququnu ləğv etməlidir. Bundan başqa könüllü döyüşçülər tələb edirlər ki, ölkədə müharibə vəziyyəti elan edilsin.

"Biz bütün komandirləri ayağa qalxmağa və hökuməti devirməyə çağırırıq", - deyə etirazçılar bildirir.

Son məlumatlara görə, Maydanda etiraz edən döyüşçülərin sayı təxminən 500 nəfərdir. Onların sayının artacağı gözlənilir.

## Türkiyə əleyhinə şüarlar

**Yunanıstanın ultra-sağçı "Qızıl şəfəq" partiyasının üzvləri etiraz aksiyasında Türkiyə əleyhinə şüarlar səsləndiriblər. Anspress-in məlumatına görə, sağçı yunanlar Türkiyə ilə Yunanıstan arasında konflikti bəhanə edərək küçələrə axışıblar. Bu aksiya Yunanıstanda radikal solçu "Siriza"nın hakimiyyətə gəlməsindən sonra ilk aksiya olub.**

Etiraz aksiyasına toplaşan təxminən 2 min adam Türkiyə əleyhinə şüarlar da səsləndiriblər. Bununla əlaqədar ciddi təhlükəsizlik tədbirləri görülsə də, polisin üzərində silahın olmaması diqqəti cəlb edib. "Qızıl şəfəq"ə qarşılıq olaraq radikal solçular da etiraz aksiyaları keçiriblər. Polis sağçılarla solçuların qarşılaşmaması üçün ciddi tədbirlər görüb.

Qeyd edək ki, 1996-cı ildə Türkiyə ilə Yunanıstan arasında Kardak qayalıqları üstündə münaqişə yaranıb. Hər iki ölkə bu ərazinin özlərinə aid olduğunu iddia edir. Vəziyyət müharibə şəraitinə qədər irəliləyib. Daha sonra Amerika və NATO-nun təsirilə vəziyyət nisbətən sabitləşib. Yunanıstandakı ultra-sağçılar bu münaqişədə Türkiyəyə qarşı çox sərt mövqe tutsalar da, radikal solçu "Siriza"nın İnsan Haqları Komitəsindəki üzvü Kardak adalarının Türkiyəyə daha yaxın olduğunu bildirmişdi. Buna görə o, komitə üzvlüyündən çıxarıldı və "vətən xaini" belə adlandırıldı.

## Bu gün parlamentin yaz sessiyası başlayır

**Milli Məclisin yaz sessiyası fevralın 2-də öz işinə başlayacaq. Bu barədə Milli Məclisin mətbuat katibi Akif Təvəkküloğlu məlumat verib. Mətbuat katibi deyib ki, daxili nizamnaməyə əsasən yaz sessiyasının ilk iclası fevralın 1-də keçirilməli idi. Ancaq həmin tarix bazar gününə təsadüf etdiyindən sessiyanın ilk iclası sonrakı günə - fevralın 2-nə təyin olunub.**

İclasının gündəliyinə 11 məsələ daxildir. İclasda ilin başlanğıcı ilə əlaqədar olaraq parlamentin hesabalayıcı və intizam komissiyalarının yenidən təsdiqi, Azərbaycanın bir sıra ölkələrlə imzaladığı sazişlərin təsdiqi, o cümlədən "Yol hərəkəti haqqında", "Yanğın təhlükəsizliyi haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında" və digər qanunlara dəyişikliklər müzakirəyə çıxarılacaq.

❑ **ELŞAD**

Qəzet, jurnal və kitab əldə etməyin ən rahat yolu!
Siz sifariş edirsiniz, biz istədiyiniz ünvana çatdırırıq!
Xaricdə və Azərbaycanda nəşr olunan bütün qəzet və jurnallara abunə olmaq, həmçinin Rusiyada və Azərbaycanda nəşr olunan kitabları daha sərfəli qiymətə və daha qısa vaxt ərzində əldə etmək üçün sadəcə zəng etməyiniz və ya email yazmağınız kifayətdir.
Telefon: (012) 434 93 01, 434 01 33



Yazarımız Tofiq Yaqubluya Azadlıq!

**Müsavat başqanının həbsdəki müavini Yadigar Sadıqov yanvarın 31-də səhhətinin pisləşməsi ilə əlaqədar Penitensiar Xidmətin tibb müəssisəsinə köçürülüb. Ürək xəstəliyindən əziyyət çəkən başqan müavininin sağlamlığında ciddi problemlər yaranıb.**

# Yadigar Sadıqov və Nemət Pənahlının səhhəti pisləşib

## Başqan müavini tibb müəssisəsinə köçürülüb; müsavatçı qardaşların isə məhkəmələri başlayır

Bu barədə musavat.com-a Yadigar Sadıqovun Hüquqlarını Müdafiə Komitəsinin sədri Elman Fəttah məlumat verib: "Yadigar bəylə bağlı son durum ürəkaçan deyil. Analizin nəticələrində məlum olub ki, Yadigar bəy bir müddət müalicə almalıdır. Tibb müəssisəsinə köçürüləndən danışmamışıq. Özü ilə danışandan sonra bu məsələ ilə bağlı münasibətimiz olacaq. Həbs müddəti istənilən halda onun səhhətinə ciddi təsir edir".

Həbsdəki Milli Dövlətçilik Partiyasının sədri Nemət Pənahlının də səhhəti ağırdır. Yanvarın 26-da ailəsi onunla görüşüb. Həyat yoldaşı Həcər Pənahlı görüş barədə bunları dedi: "Səhhəti get-gedə ağırlaşır. Özü dedi ki, elə ağrılarım var, sanki şikəstəm. Ürəyi onu daha çox narahat edir. 4 ildir onun səhhəti ilə əlaqədar müraciətlər edirəm. Mətbuata dəfələrlə demişəm. Amma nəticəsi yoxdur. Havasızlıqdan əziyyət çəkir".

Müsavat başqanının həbsdəki daha bir müavini Fərəc Kərimli və Sirac Kərimli qardaşlarının məhkəmələri başlamaq üzrədir. Fevralın 5-də Ağır Cinayətlər Məhkəməsində Sirac Kərimlinin ilkin məhkəmə hazırlıq iclası keçiriləcək. Fərəc Kərimlinin isə işi artıq məhkəməyə göndərilib. Müsavatçı qardaşların atası Raqif Kərimli məhkəməyə hazırlaşdıqlarını bildirdi.



**Yadigar Sadıqov**



**Nemət Pənahlı**

Hüquq müdafiəçisi İntiqam Əliyevin fevralın 3-də növbəti məhkəmə prosesi keçiriləcək. Vəkil Elçin Sadıqov dedi ki, məhkəmədə sübutların tələb olunması ilə bağlı vəsatətləri olacaq.

"Ayna Zerkalo" qəzetinin əməkdaşı Rauf Mirqədirovla yanvarın 30-da vəkili Elmar Süleymanov təcridxanada görüşüb: "İşlə bağlı bir yenilik yoxdur. İstintaqın nəticələrini gözləyirik".

Jurnalist Seymur Həzi yanvarın 29-da Abşeron rayon Məhkəməsinin qərarı ilə 5 il müddətinə azadlıqdan məhrum edilib. Jurnalistin atası Məşgül Həziyevin qərara münasibətini öyrəndik: "Oğlumla bağlı bütün proseslər qanunsuz şəkildə aparıldı. Göndərilmiş sifarişə uyğun iş oxundu. Bu ancaq siyasi sifarişdir. Qurulmuş bir ssenari idi. İndiyə qədər görüş verməyiblər. Ola bilsin ki, hökmə görə bundan sonra görüş versinlər".

Həbsdəki daha bir jurnalist Pərviz Həşimli köçürüldüyü 13 saylı cəzaçəkmə müəssisəsində vəkili Bəhruz Bayramovla görüşüb: "Müəssisə rəhbərliyi və işçilərindən heç bir narazılığı yoxdur. Amma saxlandığı müəssisənin uzaq olması ailəsinin onunla görüşünə mane olur. Bununla bağlı hökm oxunmamışdan əvvəl Pərviz Həşimli aidiyyatı orqanlara müraciət edərək, münasib müəssisəyə köçürülməsini xahiş etmişdi. Amma təəssüf ki, əksi oldu. Ora gedib-gəlmək çox çətindir. O, həbsini qanunsuz sayır. Ali Məhkəmə, sonra da Avropa Məhkəməsinə müraciət edəcəyik. Əfvə düşəcəyi ilə bağlı ümidləri çox azdır".

❑ **Cavanşir ABBASLI**

# Məhkum ailələri prezidentdən kömək istəyir

## "Övladlarımızı orada öldürürlər... çarəmiz intihara qalıb"

**14 saylı Cəzaçəkmə Müəssisəsindən Vərəmli Məhkumlar üçün Müalicə Müəssisəsinə ("Tubzon") köçürülən 11 məhkumun ailələri onlarla görüş tələb edir. Onlar deyir ki, məhkum yaxınlarının "Tubzon"a köçürülməsi Elşad Babayevin öldürülməsinin gizlədilməsinə, ört-basdır olunmasına xidmət edir.**



"Bizim uşaqları öldürmək istəyirlər. Günahları da 14 saylı Cəzaçəkmə Müəssisəsində dağıdanların qarşısını almalarıdır. Həmin 11 nəfər Elşad Babayevin işi ilə bağlı istintaqa sözün düzünü deyə biləcək adamlardır. Günahları da yalan danışa bilməməsidir". Bu sözləri "Yeni Müsavat"a "Tubzon"a köçürülən məhkum İsa Yaqubovun anası deyib. Bildirib ki, üzləşdikləri qanunsuzluqlarla bağlı müraciət etmədikləri ünvan yoxdur: "Özbaşınalıqdır. Bizim döymədiyimiz qapı qalmayıb. Çarəmiz intihara qalıb. Sağlam uşaqları "tubzon"da saxlayırlar. Oğlum İsanın xəstəliyi yoxdur. Onun ayağında Qarabağda, Ağdamda erməninin atdığı bombanın qəlpəsindən əmələ gələn yara var. O biri ayağının ətindən götürüb ora tikiblər. Cəzasının bitməsinə 5 ay qalmış bu hadisə baş verib. Elşad Babayevi döyüb öldürüblər, bizim uşaqlarımızı da orada öldürürlər".

Məhkumun anası deyir ki, Penitensiar Xidmət rəisinin qəbuluna düşə bilmirlər: "Qəbulda acıdil, həddən artıq kobud adamları oturdublar. Mədət Quliyevi bizdən qoruyurlar. İlham Əliyev deyir ki, məmurlar təkəbbürlü olmamalıdır. Gedib Mədət Quliyevin qapısındakı məmurlara baxsınlar. Bizi az qalırlar qəbulda öldürsünlər. Biz ora dərdimizə çarə üçün gedirik. Amma qəbula düşə bilmirik".

Məhkum valideynləri deyir ki, Ədliyyə Nazirliyi yanında İctimai Komitəyə müraciətləri də araşdırılmamış qalıb: "Komitə üzvləri dedilər ki, vərəm olmayan məhkumun "Tubzon"a köçürülməsi özü işgəncədir. Bizim uşaqlarımız vərəm deyil. Komitəyə getdik, bizə açıq-aşkar dedilər ki, bizim gücümüz çatmır. Ombudsmanlıq da aciz qaldı. Beynəlxalq Qırmızı Xaç onun tayı. Bu adamlara dövlət pulu niyə ödəyir bilinmir. Mədət Quliyev generaldır. Biz də sıravi vətəndaş. Onun övladları da bir gün bizim övladlarımızın vəziyyətinə düşə bilər. Bu qədər haqsızlıq, Allahsızlıq olmaz. Bizim 1 yolumuz qalır. Nə yolla olursa-olsun prezidentə sözümüzü çatdırmaq istəyirik, onun qəbuluna düşəcəyik. Uşaqlarımızı orda öldürürlər. Allah Elşad Babayevin başına o oyunları açanların analarını, bacılarını bizim kimi qapılarda çarəsiz qoysun. Bu cinayəti gizlədənlərin ana-bacısı da onlara şərik olsun".

"Tubzon"a köçürülən məhkum jurnalist Araz Quliyevin anası da övladı ilə görüşə icazə verilmədiyini dedi: "Övladlarımızı bura qanunsuz olaraq köçürüblər. 33 gündür ki, bizə yalandan deyirlər ki, guya onları müayinə edirlər. Bu cəfəngiyatları bir kənara qoyub övladlarımızı sakit buraxsınlar. Elşadı bizim uşaqlar öldürüb? Oranı kim dağıdıbsa kameralar var, yaddaşını çıxarıb baxsınlar. Buna görə xüsusi araşdırma aparmağa ehtiyac var?".

Yada salaq ki, ötən il dekabrın 22-də məhkum Elşad Babayev 14 saylı Cəzaçəkmə Müəssisəsində döyülərək öldürülüb. Buna müəssisədə saxlanan məhkumlar kütləvi etiraz edib, bəzi məhkumlar zorakılığa yol veriblər. Bundan 4 gün sonra müəssisəyə qoşun yeridilib, məhkumlara divan tutulub və 11 məhkum "Tubzon"a köçürülüblər. Məhkum ailələri övladlarının taleyinin Elşad Babayevlə eyni olacağından narahatdırlar. Ümumilikdə "Tubzon"a 50-dən artıq məhkumun köçürülməsi haqda məlumat var.

❑ **E.MƏMMƏDƏLİYEV**



# Rusiya ilə sərhəd-keçid məntəqəsində rüsvayçılıq

## Vəziyyətdən ən çox əziyyət çəkən isə adi vətəndaşlardır...



**Son vaxtlar Rusiyada iqtisadi sanksiyaların təsiri altında baş verən proseslər rublun dəyərdən düşməsi ilə nəticələnib. Ona görə də ticarətlə məşğul olan bəzi şəxslərin, o cümlədən azərbaycanlıların maliyyə itkilərindən nisbətən yayınmaq üçün Rusiya ilə Azərbaycan arasında yerləşən sərhəd keçid məntəqələrinə axın etdikləri müşahidə olunur.**

Belə ki, ticarətlə məşğul olan bəzi şəxslər Rusiyadan aldıqları malları sərhəd keçid məntəqələrindən Azərbaycana keçirərək ölkəmizdə daha baha qiymətə satmağa çalışırlar. Bu barədə musavat.com-a məlumat verən əməkdaşımız Elşən Məmmədəliyevin bildirdiyinə görə, hazırda Qusarda yerləşən məntəqənin önündə insan izdihamı yaşanır.

Əməkdaşımız onu da bildirib ki, əvvəllər məntəqədən 50 kq mal keçirməyə icazə verilirdi. İndi isə bu normanı aşağı salaraq 10 kq ediblər. Bu prosesdən adi vətəndaşlar daha çox əziyyət çəkirlər. Çünki Sərhəd-Keçid Məntəqəsində növbə gözləyən insanların bir qismi ticarətlə məşğul olmaq istəyənlərin sırasına daxil deyillər. Ancaq bu izdihamda onların sərhəddən keçmə imkanları məhdudlaşdırılır və onlar bundan əziyyət çəkirlər, zaman itkisinə məruz qalırlar.

❑ **Musavat.com**




# Əkiz bacılardan növbəti biabırçılıq

## "Balakən Naxçıvanda yerləşir..."

**Xəzər TV-də yayımlanan "Hər şey daxil" verilişində növbəti dəfə anlaşılmazlıq yaranıb (azxeber.com). Aparıcılar Sevil və Sevinc bacıları verilişdə qonaq olan gənc müğənni Tural Everestdən Azərbaycanın hansı bölgəsindən olduğunu soruşublar.**

Müğənni isə cavabında Balakən rayonundan olduğunu deyiblər. Rayonun adını eşidən aparıcılar Balakənin harada yerləşdiyini bilməyiblər. Digər aparıcı isə cavabında Balakənin Naxçıvanda olduğunu deyib.

Qeyd edək ki, Azərbaycanın şimal-qərbində Böyük Qafqazın cənub yamaclarında 923 kvadrat kilometr sahə tutan Balakən rayonu şimalda Rusiya Federasiyası (Dağıstan MR), qərb və cənub-qərbdə Gürcüstan, şərqdə isə Zaqatala rayonu ilə həmsərhəddir.

Onu da qeyd edək ki, bu aparıcıların canlı efirdə ilk səhvi deyil. Onlar bundan öncə canlı yayımda Azərbaycan manatını cırmışdılar.

YENİ MÜSAVAT
N 23 (6051) 2 fevral 2015



# İŞİD ikinci yapon girovu edam etdi

## Qruplaşmanın yaponlara rəhm etməməsinin özəl səbəbi varmı?..

**İŞİD terror təşkilatı ikinci yapon girovu Kendzi Qotonun da başını kəsib. Musavat.com xarici KİV-ə istinadən xəbər verir ki, müvafiq videoyazı artıq terrorçular tərəfindən sosial şəbəkədə yerləşdirilib.**

Xatırladaq ki, ötən həftə İŞİD buraxılması üçün 200 milyon dollar tələb elədikləri başqa bir yapon girovu edam etmişdi. Az sonra onlar şərti dəyişdilər və ikinci yaponun buraxılması üçün Yaponiya hökumətinə İordaniya ilə anlaşıb, həbsdə saxlanılan terrorçu qadın Sacida ər-Rişavinin azad edilməsi tələbini irəli sürdülər.

Qeyd edək ki, terror qruplaşması İraq və Suriya vətəndaşlarını bir qayda olaraq edam etsə də, bir çox hallarda əcnəbiləri pul qarşılığında azad edir. Ötən il yayılan BMT hesabatına əsasən, son illərdə məhz terrorçu qruplar bu cür girov qarşılığında pul almaqla 125 milyon dollardan çox vəsait əldə ediblər. Ancaq İŞİD bu dəfə yaponlar üçün fantastik məbləğ tələb etmişdi. Yaponiya isə buna qarşılıq terror təşkilatı ilə bazarlığa getməyəcəyini bəyan etsə də, müxtəlif ölkələr, o cümlədən Türkiyə vasitəsi ilə girovun azad edilməsi istiqamətində danışıqlar aparırdı.

Yeri gəlmişkən, Türkiyənin İŞİD-in əlində olan girovların azad edilməsi ilə bağlı təcrübəsi var. Belə ki ötən il iyunun 10-da İŞİD İraqın Mosul şəhərini ələ keçirərkən Türkiyənin bu şəhərdə yerləşən baş konsulluğunu da işğal edərək 49 nəfər konsulluq əməkdaşını girov götürmüşdü. Uzun sürən danışıqlardan sonra sentyabrda konsulluqda girovluqda olan 49 nəfər baş konsulla birlikdə Türkiyəyə təhvil verildi. Əvvəlcə Türkiyə hökuməti girov diplomatların keçirilən əməliyyat nəticəsində azad edildiyini bəyan etsə də, sonradan yerli və xarici mətbuatda Ankaranın girovları dəyişdirdiyini yazdı.

Məsələn, "Hüriyyet" qəzeti İŞİD-in girovlara qarşılıq olaraq 50 İŞİD-çini qaytarıldığı haqda xəbər yaydı. Xəbərdə bildirilirdi ki, Suriyada islamçı üsyançıların "Tövhid" briqadasının əlində girovluqda olan İŞİD-in komandirlərindən olan Hacı Bəkirin həyat yoldaşı və uşaqlarının da içərisində olduğu 50 İŞİD-çi Türkiyənin Mosul konsulluğunun əməkdaşlarına əvəz olaraq qaytarılıb.

"Tövhid briqadası" Suriyada ən güclü qruplaşmalardan biridir və "Müsəlman Qardaşlar" Hərəkatına bağlıdır. Məqalədə aparılan danışıqların nəticəsi olaraq "Tövhid briqadası"na əlindəki əsirləri azad etməsi razılaşdırılıb. Beləliklə də Mosul konsulluğunun 49 əməkdaşı Türkiyənin Akçakale sərhəd-keçid məntəqəsindən keçərək ölkəyə daxil olduğu anlarda Suriyanın Hələb şəhəri yaxınlığında "Tövhid briqadası" 50 girovu İŞİD-ə təhvil verib.

Britaniyanın "Times" qəzeti isə 49 konsulluq əməkdaşına qarşılıq olaraq 180 nəfər İŞİD üzvünün azad edildiyini yazmışdı. Hansı ki, azad edilən İŞİD-çilərdən bir neçəsi Britaniya vətəndaşı olub. Xəbərdə azad edilən Britaniya vətəndaşı İŞİD-çilərin 18 yaşlı Şahbaz Süleyman və 26 yaşlı Hişam Folkard olduğu və onlar barəsində İngiltərə kəşfiyyatının cinayət işi açdığı qeyd edilir. Ancaq azad edilən 180 nəfər arasında digər Qərb ölkələrindən də İŞİD üzvlərinin olduğu bildirilirdi. Belə ki, siyahıda 3 Fransa, 2 İsveç, 2 Makedoniya, 1 İsveçrə və 1 nəfər Belçika vətəndaşı da olub.

Xəbərlərdə qeyd olunur ki, Türkiyə hökuməti İŞİD üzvləri ilə konsulluq əməkdaşlarını dəyişdirmək üçün vasitəçi olaraq yerli qəbilələr və silahlı terror təşkilatları ilə əməkdaşlıq edib. Türkiyə hakimiyyəti isə bu iddiaları cavablandırmır, prezident Ərdoğan bildirib ki, mühüm olan Türkiyə vətəndaşlarının sərbəst şəkildə ölkələrinə geri qaytarılmalarıdır. Eyni zamanda Ankara bu hadisəni "diplomatiyanın qələbəsi" adlandırıb.

Görünən odur ki, İŞİD yapon girovları daha çox diqqət çəkmək üçün edam etməyə qərar verib. Çünki tələb olunan məbləğ xeyli dərəcədə böyük idi və onun verilməsi mümkün deyildi. Yeri gəlmişkən, ötən ilin yayında İŞİD bir neçə amerikalı girovu heç bir qarşılıq tələb etmədən edam edib. Ancaq bir qədər əvvəl İtaliyadan olan iki girov qadın azad edilib. Müşahidəçilərə görə, qruplaşma bununla da daha çox diqqətləri üzərinə çəkmək, qəddar obrazını və Amerika ilə danışıqlara getmədiyi görüntüsünü yaratmağa çalışır.

❑ KƏNAN

# Azərbaycan erməni yalanlarının ifşası üçün böyük işlər görüb

## Ekspert: "Bu gün ermənilər ortaya tutarlı sübut qoya bilmirlər..."

**Ermənistan və erməni diasporu aprel ayında qondarma "erməni soyqırımı"nın 100 illiyini qeyd etməyə hazırlaşır. Ermənistan rəhbərliyi və erməni diasporu dünya ölkələrini aprelin 24-də İrəvanda keçiriləcək "soyqırımı tədbirlərinə" dəvət edib.**

Artıq Fransa prezidenti İrəvana gedəcəyini bildirib. Eyni zamanda Fransa prezidenti Fransua Olland Türkiyə dövlətini qondarma "erməni soyqırımını" tanımağa çağırıb. Fransa prezidenti çıxışında tarixdən, "genosid"dən danışıb və qeyd edib ki, "ermənilərin iztirablarını yaxşı anlayır". Ermənilərə xitab edən Olland deyib: "Bilin ki, Fransa sizinlə fəxr edir".

Olland Qarabağ məsələsinə də toxunub. Qeyd edib ki, bütün vasitələrlə problemin həllini tapmağa çalışmaq lazımdır. Eyni zamanda o, Ermənistana Fransanın maliyyə yardımını artırmağın zəruriliyini dilə gətirib. "Çünki Ermənistan bizim kiçik qardaşımızdır".

Qeyd edək ki, Türkiyə və Azərbaycan hökumətləri bu il apreldə Çanaqqala qələbəsinin 100 illiyi münasibətilə Türkiyədə tədbir keçirməklə bir növ erməni təbliğatına qarşı əks-hücum taktikası ortaya qoyub. Bəs, bu məsələdə Azərbaycanın rolu nədən ibarət ola bilər? Məsələ burasındadır ki, Azərbaycan hər zaman bu mövzuda Türkiyənin yanında olub və dünyada "erməni soyqırımı" təbliğatına qarşı fəal əks-hücum həyata keçirib.

Politoloq Qabil Hüseynli deyir ki, Azərbaycan bu günə qədər də erməni iddialarına qarşı öz potensialından istifadə edib. Onun fikrincə, hazırda Azərbaycanın bir sıra dövlətlərdə və beynəlxalq qurumlarda ciddi nüfuzu var və bu imkanlar Türkiyə ilə birlikdə erməni təbliğatına qarşı istifadə olunacaq: "Zənnimcə, Azərbaycan hökumətinin bu məsələdə Türkiyəyə dəstək vermək üçün çox güclü resursları var. Fransızlar "erməni soyqırımını" inkar edənlərə qarşı cinayət məsuliyyətini nəzərdə tutan qanun layihəsinin Konstitusiya Məhkəməsi tərəfindən ləğv edilməsində Azərbaycanın böyük rolu oldu. Həmin dövrdən Azərbaycan "erməni soyqırımının" bütün dünyada tanınması əleyhinə böyük işlər apardı. Xarici İşlər Nazirliyi, Diasporla İş üzrə Dövlət Komitəsi, hətta MTN və eləcə də Elmlər Akademiyasının bir sıra institutları, o cümlədən Tarix, Şərqşünaslıq və Etnoqrafiya institutları bu məsələlər ətrafında böyük işlər apardılar. Ciddi araşdırmalar ortaya qoyuldu. Bu gün "erməni soyqırımı" ilə əlaqədar Azərbaycanın arqumentləri Türkiyəninki qədər, hətta ondan da çox dünya ictimaiyyətində nəzərə alınır".

Q.Hüseynlinin fikrincə, Azərbaycan da yaxşı başa düşür ki, qondarma "erməni soyqırımının" dünya ictimai rəyində iflası Qarabağ probleminin müsbət həlli üçün mühüm əhəmiyyət daşıyır: "Bu gün Azərbaycanın uyğun dövlət və elmi strukturları bu istiqamətdə gərgin iş aparır. İslam Konfransı Təşkilatında Azərbaycanın sözü Türkiyə qədər ötkəmdir. BMT-də Azərbaycanın bu məsələ ilə



bağlı aparacağı lobbiçilik fəaliyyəti Türkiyənin apardığı işdən daha qüvvətli olacaq. Bu, həm də yəhudi lobbisi ilə bizim çox sıx işbirliyimizdə, həm də Amerikada artıq strukturlaşmış Azərbaycan lobbisi ilə qırılmaz surətdə bağlıdır. Avropa Şurasında da güman edirəm ki, Azərbaycan kifayət qədər böyük imkanlara malikdir. Asiya ölkələri içərisində də Azərbaycanın nüfuzu durmadan artır. Belə demək mümkündürsə, Azərbaycan ermənilərin "soyqırımla" bağladıqları ümidlərinin puça çıxarılması üçün geniş imkanlara malikdir. Və bu imkanlara Türkiyənin özü, Pakistan və digər müsəlman ölkələri də qoşulanda qarşısıalınmaz bir güc yaranır. Bütün bunları ümumiləşdirsək deyə bilərik ki, "erməni soyqırımının 100 illiyi" ermənilərə üzüqaralıqdan başqa heç nə verməyəcək".

Digər tərəfdən, həmsöhbətimiz qeyd edir ki, tarixi faktlar ötən əsrdə azərbaycanlıların ermənilər tərəfindən dəhşətli soyqırımına məruz qaldığını sübut edir: "Çünki həmin illərdə erməni silahlı dəstələri ən azı 2 milyon Azərbaycan və Türkiyə türkünü qətlə yetirib. Söhbət 19-cu əsrin 70-ci illərindən başlayaraq 20-ci əsrin əvvəllərindəki hadisələrə qədər olan dövrdən gedir. Buraya sayı 8-ə çatan Qərbi Azərbaycan torpaqlarından olan deportasiyaları, 1905-1907-ci il erməni qırğınlarını, 1917-ci ildən başlayıb 1920-ci ilə qədər davam edən və coğrafiyası Qars, İqdır, Urmiya, Qərbi Azərbaycan və bütün Azərbaycan torpaqlarını əhatə edən dəhşətli erməni genosidini ön plana çəkmək lazımdır. Bu gün ermənilər ortaya bir tutarlı əşyayi-dəlil qoya bilmir, ancaq İqdırda, Qubada dəhşətli erməni qətliamından xəbər verən, irimiqyaslı qırğının qalıqları bunların əyani misalıdır. Ermənilər təkcə 1918-ci ilin martında bir gündə Bakı şəhərində 20 mindən çox azərbaycanlını qətlə yetirmişdilər. Hələ Xocalını, Qaradağlını demirəm... Məncə bu gün "erməni genosidindən" yox, ermənilərin azərbaycanlılara qarşı törətdikləri Xolokosta bərabər Azərbaycan genosidindən danışmaq lazımdır. Əgər Xolokostda insanları qazla öldürürdülərsə, ermənilər yüzlərlə insanı su quyusuna atıb öldürüb, yüzlərlə insanı ot tayalarının içərisinə salaraq yandırıblar. Sonuncu hadisələr zamanı isə azyaşlı uşaqları iri borulara doldurub hər iki tərəfdən qaynaq ediblər. Yəni ermənilər azərbaycanlılara qarşı faşizmdən də betər cinayətlər törədiblər. Faşistlər burun-qulaq, kəsirdilər, hamilə qadınları süngü ilə deşərək uşağı ilə birgə öldürürdülər, qadınları lüt soyundurub döşlərini kəsirdilər? Görkəmli sənətkarımız aşıq Nəcəfin kürəyinə qaynayan samovarı bağlayaraq saz çalmağa məcbur ediblər. Sadizmin bu dərəcəsini heç faşistlər etməyib. Xocalıda qədim hinduların etdiyi kimi insanların başlarının dərisini kəsərək götürüblər.

Son olaraq kəlbəcərli girovlardan biri 110 kilo çəkisini 4-5 ayın içərisində yarıbayarı itirib, o birisi isə ağır xəstəlik tapıb. Hansı ölkədə belə vəhşilik baş verib? Bu hərəkətlər bir daha sübut edir ki, bunlar insan deyil, məxluqlardır".

❑ KƏNAN



# Faciəvi şəkildə həlak olmuş istiqlalçı deputatların xatirə abidəsi dağılıb

**Müsavat Partiyasının başqanı Arif Hacılı 1991-ci ildə avtoqəzaya düşmüş tanınmış istiqlalçı millət vəkilləri, görkəmli Azərbaycan ziyalıları ilə bağlı facebook-da status və bir foto paylaşıb. Həmin fotoda faciəvi şəkildə həlak olmuş mərhum ziyalıların xatirəsinə ucaldılmış abidənin dağılmaqda olduğu əks olunub.**

Arif Hacılının sözügedən statusunu diqqətə çatdırırıq: "1991-ci ilin aprelində Qax şəhəri yaxınlığında müəmmalı bir qəzada həlak olmuş istiqlalçı millət vəkilləri, Azərbaycanın görkəmli ziyalıları Aydın Məmmədovun və Dilarə Əliyevanın həlak olduqları yerdə o zaman inşa edilmiş xatirə abidəsinin bugünkü durumu... Bu da indiki iqtidarın istiqlala və istiqlalçılara münasibətinin bir göstəricisidir. Bu rüsvayçılığa susmamalıyıq".



# Müsavat Rəsulzadəni andı

## Partiya Azərbaycan Xalq Cümhuriyyəti banisinin abidəsi önündə yürüş keçirdi

**Yanvarın 31-də Müsavat Partiyası cümhuriyyətimizin banisi Məhəmməd Əmin Rəsulzadənin 131 illiyi ilə bağlı yürüş mitinqi keçirib. Görkəmli dövlət xadimi doğulduğu Novxanı torpağında yerləşən abidəsi önündə anılıb.**

Anım tədbirində MSDM-nin sədri İsa Qəmbər, Müsavat başqanı Arif Hacılı, partiya rəhbərliyi və fəalları iştirak edib. Müsavatçılar böyük öndərin abidəsinin önünə çiçək dəstələri düzüblər, onun ruhuna dua oxuyublar.

Tədbirin aparıcısı Müsavat başqanının müavini, partiyanın Divan üzvü Nüşabə Sadıxlı çıxışında Rəsulzadə ocağına gəldiklərinə görə bütün tədbir iştirakçılarına öz təşəkkürünü bildirib: “Sağ olun ki, bu gün Rəsulzadənin anım günündə buradasınız. Rəsulzadə bizim üçün çox dəyər verdiyimiz insanlardan biridir. O, Avropa və Şərq mədəniyyətinin ən böyük xadimlərindəndir. Rəsulzadə millətçi, xalqını sevən, dünyaya nümunə göstəriləsi avropalıdır. Bütün bu ideyalar onun yaratdığı Müsavat Partiyasında da öz əksini tapıb. Rəsulzadə işıqlı bir insan idi. İllər boyu o, insanları mübarizəyə çağırdı. Hər bir insanın ürəyində od, alova çevrildi. Məhz bunun nəticəsində millətimiz ayağa qalxdı və 1918-ci ildə öz müstəqilliyini qazandı. Onun yaratdığı od, alov heç zaman sönmədi. Onun işığı xalq olaraq bizi məhv etməyə qoymadı. Təsadüfi deyil ki, onun görmək istədiyi Müstəqil Azərbaycanı qurduq, yaratdığı Müsavatı bərpa etdik. Artıq mübarizəmizin ikinci mərhələsindəyik. Biz Müsavatı hakimiyyətə gətirməliyik. Azərbaycanda demokratiyanı bərqərar etməliyik. İnanıram ki, qəlblərində Rəsulzadə işığı olan insanlar bu yolu davam etdirəcəklər. Bu yolda sənə uğurlar arzulayıram, Müsavat!”

Daha sonra çıxış üçün söz Müsavat başqanı Arif Hacılıya verilib. O, hər ilin bu günü Rəsulzadənin abidəsi önünə gələrək, onu yad etdiklərini qeyd etdi: “Rəsulzadənin xidmətləri onun doğum gününü bütün respublikada qeyd etməyi tələb edir. Əslində o, tariximizin ən böyük şəxsiyyətlərindən biridir. Bugünkü dövlətimizin mövcud olmasında Azərbaycan xalqı Rəsulzadəyə borcludur. O, Rusiya ərazisindəki əsir xalqların muxtariyyət məsələsini qaldıran ilk şəxsiyyətdir. 1917-ci ildə Rəsulzadə bu təklifi ilə təkbaşına belə vuruşdu. Türk dünyasının böyük ideoloqları bu təklifin ziyanlı olacağını düşündükləri halda, Rəsulzadə bu tezisi bayraq kimi qaldırmışdı. Rusiyaya daxil olan xalqların müstəqil olmalarının zəruri olması fikrini də o, irəli sürmüşdü. Müsavat Partiyasını gücləndirərək Azərbaycanın istiqlalına nail oldu. Onun ideyaları əsasında Rusiya ərazisindəki bir çox türk xalqları öz dövlətlərini qurdular. 80-ci illərin sonunda başlayan xalq hərəkatı da Rəsulzadənin ”Bir kərə yüksələn bayraq bir daha enməz!" şüarını əsas götürdü. Rəsulzadə və silahdaşlarının yoxdan yaratdıqları bayraq xalq hərəkatının simvoluna çevrildi. Biz onun qurduğu Azərbaycan Cümhuriyyətini yenidən bərpa etdik. İndiki dövlətimiz Rəsulzadənin qurduğu 114 min kvadratkilometr ərazidə yerləşən AXC-nin varisidir. Bizim əsas məqsədimiz Azərbaycanı Rəsulzadənin şüarına uyğun olan bir dövlətə çevirməkdir. O, “İnsanlara hürriyyət, millətlərə azadlıq!” şüarını irəli sürürdü. Çıxışımı böyük Elçibəyin “Azərbaycana müstəqilliyi biz gətirdik, demokratiyanı da biz gətirəcəyik” şüarı ilə tamamlayıram. Bu yolda hər birinizə uğurlar arzulayıram".





Tədbirin sonunda söz MSDM-in sədri İsa Qəmbərə verilib. O, bütün tədbir iştirakçılarını ildönümü münasibətilə təbrik edib: “Yanvar ayında cəmiyyətimizin çox önəmli simalarını itirdik. Amma bununla belə, yanvarın 31-də böyük bir şəxsiyyətin doğum günüdür. Rəsulzadəni dünyaya gətirən Novxanı torpağına təşəkkür edirəm. Onun yaradıcılığı, fəaliyyəti özünə hörmət edən hər bir insan üçün bir məktəb, universitetdir. Bəlkə də o, yeganə şəxsiyyətdir ki, həyatının bütün sahələrində bir səhv tapmaq mümkün deyil. O, Azərbaycana Müsavat ideologiyasını gətirdi. Elə bir ideologiya yaratdı ki, bütün insanlar ətrafında toplaşdılar. Zamanında o demişdir ki, Azərbaycanda dövlət quracaq, xoşbəxtlik gətirəcək firqənin adı Müsavatdır. O, elə bir partiya yaradıb ki, Azərbaycanın dünəni, bu günü və gələcəyi bu partiya ilə bağlıdır”.

MSDM rəhbəri 2015-ci ilin önəmli olduğunu söyləyib: “Ömrünü Azərbaycan yolunda mübarizəyə həsr edən insanlar var. Bu il çox önəmlidir. 100 il bundan əvvəl yeni bir mərhələ başladı. Elə bir mərhələ başladı ki, sonunda Azərbaycan Xalq Cümhuriyyəti yarandı. İndi biz həmin ildən 100 il bu tərəfdəyik. 3 ildən sonra Cümhuriyyətimizin 100 ili tamam olacaq. Bu il ölkəmiz üçün bir tarixdir. Bu ildə elə bir fədakarlıqlar göstərməliyik ki, 2018 tariximiz üçün qələbə ili olsun. Bilirəm ki, bu gün bu hədəfə inananlar elə də çox deyil. Ölkəmizdə qələbəyə inanmırlar. Demokratik düşərgədə, Müsavat kimi bir partiyanın özündə belə qələbəyə inanmayanlar var. Amma bu insanlar Rəsulzadəyə diqqət yetirməlidirlər. O böyük fədakarlıqlar göstərib. Həyatının sonuna qədər mübarizə apardı. O, deyəndə ki, SSRİ dağılacaq, ona da heç kəs inanmırdı. Ömrünün sonuna qədər Rəsulzadə bu inamı yaşatdı. Xalqı inandırdı. Böyük məktəb yaratdı. Biz onu davam etdirdik. Bu inam həlledici oldu. Bu inamı heç kəs kənardan gətirməyəcək. Özümüz formalaşdırmalıyıq. Özümüzə, əqidədaşlarımıza, partiyamıza inanmalıyıq. Millətimizi inandırmalıyıq. Böyük qələbələrin yolunda mübarizəmizi davam etdirməliyik. İnanıram ki, biz bunu edə biləcəyik. Bu il tariximizin önəmli illərindən birinə çevirəcəyik. Demokratiyanın bərqərar olması üçün çalışmalıyıq. İnanmayanların özləri bilərlər. Qoy uğurumuza kədərlənib, uğursuzluğumuza sevinsinlər. Xalqını sevən onun uğuru üçün çalışmalıdır. İnanıram ki, mübarizədə müsavatçılar daim öndə olacaqlar. Mən bu yolda sizlərin hər birinə uğurlar arzulayıram. Tanrı sizləri qorusun, Tanrı Azərbaycanımızı qorusun”.

Tədbirə başa çatdıqdan sonra partiya rəhbərliyi Rəsulzadənin yaxınlarının Novxanı qəbiristanlığındakı məzarını ziyarət ediblər. Cümhuriyyətimizin banisinin yaxınlarının məzarı önündə dualar oxunub, məzar önünə gül dəstələri qoyulub.

❑ **Cavanşir ABBASLI**
**Fotolar müəllifindir**

# O, elə bir ömür yaşadı ki...



**Hüseynbala SƏLİMOV**

**Rəsulzadə ilə bağlı daha bir tarix ötüşdü. Yox, indi nə ona qarşı qısqanclıqdan, nə də diqqətsizlikdən gileylənəcəyik. O diqqəti ki, o, özünə qarşı istərdi, yetərincədir...**

Qısqanclığa gəldikdə isə, yel qayadan nə aparacaq? O, belə küləkləri çox gördü, o belə “tənə”ləri çox eşitdi. Heç birinin faydası olmadı. Bundan sonra da olmayacaq, çünki həqiqətin gücü var...

O elə bir gücdür ki, əsrlər onu aşındıra bilməzlər. O elə bir gücdür ki, özünə özü kimi bütövləri, güclüləri tapındırır...

Bunların güzgüsü, bu hakimiyyətin prizması əvvəldən qüsurludur, əvvəldən sınıqdır. Böyük bir Çin filosofu olub - Lao Szı. Bu adam ömrünün axırını hiss edəndə tənhalığa çəkilmək üçün ölkəni tərk etməli olur. Amma sərhəddə onu saxlayırlar və deyirlər ki, Dao-Yol fəlsəfəsi haqqında bildiklərinin hamısını yazmasa onu buraxmayacaqlar...

Lao Szı məcbur olub Dao fəlsəfəsi haqqında çox qiymətli bir əsər yazır... Mən bunu elə-belə xatırlamadım. Sovet hakimiyyəti gələndə M.Rəsulzadə də məcbur olur Lahıcda gizlənməyə. Səhv etmirəmsə, orada bir əsər yazır - adı da olur “Əsrimizin Səyavuşu”...

Mən bu əsərin məziyyətlərindən danışmayacam. Bunsuz da hər şey bəlldir. Məni başqa bir şey maraqlandırır. Adam bir ideyaya nə qədər vurğun olmalıdır ki, bir an belə onu yaddan çıxarmasın? Hətta ən ağır günlərdə belə bu adamı Azərbaycanın istiqlaliyyət ideyası tərk etmir...

Bilirsiniz, istiqlal uğrunda mübarizə aparan, bu ideyaya töhfə verən çox olub, amma mən elə bir adam xatırlamıram ki, həmin ideyaya bu qədər vurğun olsun...

Bəli, bu istək vurğunluq səviyyəsində idi. Rəsulzadə Azərbaycanın istiqlaliyyətinə aşiq idi. Bunu indi çoxu etiraf edir. Etiraf etməyənlər isə qoy özləri özlərindən küssünlər - onlar uzun bir ömür yaşadılar, amma işığın nə demək olduğunu bilmədilər...

Mən çoxdandır ki, bir detala fikir verirəm. Bunlar N.Nərimanova daha isti münasibət bəsləyirlər. Mən Nərimanov haqqında burada çox şey yazmayacam və bir-iki kəlmə ilə kifayətlənəcəm. Nərimanov mürəkkəb şəxsiyyət olub, amma onun haqqında bir söz demək olar: bu adam Azərbaycanın təsadüf etdiyi bütün bolşeviklərdən-kommunistlərdən fərqli olub, onda Vətən sevgisi də olub, millət sevgisi də...

Amma tarixin bir ironiyasına baxın. Bunlar- bu hakimiyyətdəkilər Nərimanovu özlərinə daha yaxın “bilirlər”!.. Halbuki onlar arasında yerlə göy arasındakı qədər fərq var...

Mən bu “yaxınlıq” haqqında çox düşünmüşəm. Nə demək olar? Bu da bunların illüziyasıdır. Qoy, düşünsünlər. Amma heç olmasa bir parametrə görə Nərimanova bənzəsinlər! Amma bənzəyirlərmi? Əsla...

Nə isə. Deyəsən, haşiyə böyük oldu. Hər halda, mənim özümə də belə gəldi.

Rəsulzadədən danışırdıq axı...

Nə demək olar bu adam haqqında? O vaxt ki, heç kim bu adam haqqında yazmırdı, danışmırdı, bir nisgil vardı... İndi hamı yazır, hamı danışır. Hətta o qədər yazırlar, o qədər danışırlar ki, yeni heç nə deyilmir...

Əslində bundan da gileyli olmaq lazım deyil. İndi tarixi dəyərlərin bir nəsildən o biri nəslə ötürülməsi prosesi baş verir. Ona görə də bu prosesdə bir böyük yenilik var- indi yazan və danışan yeni nəsildir...

Onlar bizim hamımıza bəlli olan şeyləri yenidən kəşf edirlər. Buna da normal yanaşmaq lazımdır. Bu da normaldır. Gənc nəsil, yeni nəsil öz tarixini, özünün əsl tarixini özü üçün yenidən, bir daha kəşf edir...

Mən isə onun haqqında, Rəsulzadə haqqında yazını bircə cümlə ilə başlardım: o, elə bir ömür yaşadı ki...

Bəli, o dəfələrlə cəhd etdi. Alınmayanda sınmadı. Bir daha cəhd etdi. Əslində bizi də bu düşündürməlidir. Biz yetərincə cəhd etdikmi?...

Hamının əvəzinə danışmaq, hamının əvəzinə cavab verməy olduqca çətindir.

Amma ötən müddət ərzində bir şey demək olardı: cəhdlər də çox oldu, cəhd edənlər də...

Bəli, kifayət qədər oldu... Alınmamağı bir başqa məsələ... Amma cəhdlər yetərincə oldu. Alınmaq məsələsinə bir daha gəldikdə isə... Bilirsiniz, heç nə boş yerə, mənasız şəkildə yox olub getmir, hər şey bir iz buraxır, heç nə olmadan da ən azı insanlar şahidlik edir ki, bəli, filankəslər, nəsə etdilər və elə bir adam tapılır ki, o, bir cümlə deyir: onlar elə bir ömür yaşadı ki...

YENİ MÜSAVAT
N 23 (6051) 2 fevral 2015



# İnqilabları əngəlləyən 50 dollar

Azər RƏŞİDOĞLU

**Hamı qanun qarşısında eyni dərəcədə məsuliyyət daşıyanda cəmiyyət inkişaf edir. Adətən, cəmiyyət dilemma qarşısında dayanır - "ya qanun şah olur, ya da şah qanun olur". Qanun şah olanda vətəndaşlar yalnız qanuna boyun əyir, şah qanun olanda "baş ayaq olur, ayaq başa çevrilir".**

Amerika Birləşmiş Ştatları öz vətəndaşı üçün qanunları şaha çevirə bilib. Adi bir fakta nəzər edək - ABŞ-ın Boston şəhərində yağan güclü qar bu ölkənin dövlət katibi Con Kerrini ziyana salıb. Belə ki, borandan sonra həmin şəhərdəki evinin ətrafına yığılan qarı təmizləmədiyi üçün ona 50 dollar cərimə kəsilib. Şəhər rəhbərliyi bildirib ki, evlərin və iş yerlərinin ətrafındakı səkiləri təmizləməyən şəxslər cəzalandırılacaqlar. Maraqlıdır ki, yanvarın 29-da cərimə yazıldıqdan sonra dövlət katibinin Bostonun Beacon Hill kvartalındakı evinin ətrafında olan səkilər təmizlənib. Kerrinin qonşusu təmizlənməmiş qara görə şikayət edəndən sonra cərimənı yazan əməkdaş bunun dövlət katibinin evi olduğundan xəbərsiz olub.

Cəriməni ödəyəcəyini deyən C. Kerri qar yağan zaman prezident Barak Obama ilə birlikdə Kral Abdullanın ölümü ilə əlaqədar başsağlığı vermək üçün Səudiyyə Ərəbistanında olub.

Bu, sıradan bir hadisə kimi dəyərləndirilə bilər. Lakin qanunların hamıya şamil edildiyinə bir nümunədir.

Azərbaycanda isə belə yüksək ranqlı məmurun cəzalandırılmasını heç kəs ağlına belə gətirə bilməz.

Odur ki, ölkədə xalq etirazları zaman -zaman siyasi elita üçün problemlər yaradır. Məmurların cəzasız qalması əsas problemlərin səbəbi kimi də dəyərləndirilə bilər.

Azərbaycanda harın məmurlara ara-sıra barmaq silkələnir. Lakin korrupsiyanı yalnız sözdə tənqid etmək və ölkənin bütün sahələrini - idarəetmədən tutmuş, kiçik sahibkarlığa qədər, bütün sahələrin inhisara götürülməsi son nəticədə iflasa gətirib çıxardır. Hakimiyyəti ilk elə korrupsioner məmurlar özləri olurlar. Harınlamış məmurların cəzasız qalması ilk növbədə bütövlükdə iqtidarın sosial dayaqlarını sarsıdır.

Azərbaycan təcrübəsində işdən çıxarılan məmurlar maliyyə mənbələrindən də məhrum edilirlər. Bu, anlaşılandır.

İşdən qovulan, həbs edilən istənilən məmurun, sabiq millət vəkilinin, siyasətçinin mülkləri əlindən alınır və daha iri məmurun ixtiyarına verilir. Bir sözlə, Azərbaycanda yeni əmlak bölgüsünə start verilməkdədir. Bu isə son dərəcə ciddi proseslərin xəbərçisidir.

Qərbi narahat edən ən başlıca amil də qanlı səhnələrə şahid ola biləcək əmlak bölgüsünün başlanmasıdır. Əllərində qanuni və qanunsuz silahlı birləşmələri olan oliqarx-məmurlar arasında baş verə biləcək toqquşmaların miqyası daha da genişlənə bilər. Bu isə təhlükəlidir.

Hələlik vəzifəsindən uzaqlaşdırılan məmurlar susmağa üstünlük verirlər. Lakin onların təmsil olunduğu qruplaşmaların maliyyə rıçaqlarından məhrum edilməsi ciddi problemlər yarada bilər.

Harınlanmış, rüşvətxor məmur ordusuna qarşı mübarizədə ölkə rəhbərinə dayaq missiyasını kim həyata keçirə bilər? Bu sual bu gün daha aktualdır. Mahiyyət etibarilə xislətləri xəyanətlərdən yoğurulmuş məmurlarla islahatlara getmək risklidir. Sadə vətəndaşların da yardımına belə bağlamaq mümkün deyil.

Ölkədə vətəndaş cəmiyyəti institutları da qaydasında deyil ki, cəmiyyət və siyasi hakimiyyət arasında baş verən qarşıdurmanın ağrısız keçməyinə şərait yaradılsın.

İqtidar müxalifətlə də bütün körpüləri yandırıb. Bir sözlə, belə şəraitdə islahatlar həyata keçirtmək olduqca çətindir.

Onları tərk-silah etməyin yeganə yolu, müxalifətlə, vətəndaş cəmiyyəti ilə münasibətləri normal məcraya yönəltməkdən keçir.

Əks təqdirdə, ölkə siyasi kataklizmlərə sürüklənə və tamamilə zəifləyə bilər.

Hakimiyyət ideoloqları belə hesab edir ki, xalqın etirazları nəticəsində hansısa məmur istefaya göndərilərsə, bu, pis ənənə yarada bilər, nəticədə xalqın harınlayan məmurlara qarşı aksiyalar keçirtməsi tendensiyasına səbəb ola bilər. Lakin elə bir vəziyyət yaranıb ki, təcili kadr dəyişiklikləri-nə gedilməsə, hazırkı məmurlar ordusu inqilabın ilhamvericiləri olacaq.

C. Kerri üçün 50 dollar elə də böyük məbləğ deyil. Dövlət katibi bu pulu asanlıqla ödəyə biləcək. Bununla o, qanunlara baş əydiyini də göstərmiş olacaq. Birləşmiş Ştatları cəlbedici edən də elə budur...



# Seçki ilinin ikinci ayı başladı: müxalifət nə düşünür?

## **Mustafa Hacıbəyli:** "Vaxtı bloklaşma müzakirəsinə sərf etmək əvəzinə..."

**Seçki ilinin ilk ayı arxada qaldı. İlin birinci ayını müxalif düşərgə daha çox hansı şəkildə blok yaradılması istiqamətində nəticəsiz müzakirələrə sərf etdi. Düşərgənin aparıcı partiyası olan Müsavatın bir sıra Məclis üzvləri isə vaxtı bloklaşma müzakirələrinə sərf etməyin əleyhinə çıxış etməkdədirlər.**

Məsələn, Məclis üzvü Mustafa Hacıbəyli düşünür ki, ilin ilk ayının daha çox bloklaşma müzakirələrinə sərf edilməsi səmərəsiz olsa da, bunu böyük itki saymır. Yəqin ki, partiyalar daxildə də seçkiyə hazırlıq işlərini görürlər: "Müsavat Partiyası arxada qalan bir ay ərzində seçkilərə hazırlıq istiqamətində addımlar atıb. Artıq ayrı-ayrı dairələr üzrə deputatlığa namizədlərin müəyyənləşməsi prosesinə başlanıb. Çox güman ki, bu proses davam edəcək. Artıq Müsavatın deputatlığa namizədlərinin bəzilərinin kimliyi dəqiqləşib. Məsələn, Cahangir Əmirxanlının, İltizam Əkbərlinin namizədliyinin irəli sürüləcəyi barədə təklif var. Bakının özündə müəyyən adamlar hansı dairədən namizədliklərini verməyə hazır olduqları barədə partiya rəhbərliyinə fikirlərini bildiriblər. Müsavatın hələ ötən Məclisində parlament seçkilərinə dair bir sıra fikirlər irəli sürülmüşdü. Çıxış edən Məclis üzvlərinin bir çoxu partiyanın seçkilərdə siyahısı ilə çıxış eləməsinin tərəfdarı kimi çıxış etmişdilər".

M.Hacıbəyli hesab edir ki, əslində tək Müsavatın maraqları baxımından deyil, ümumiyyətlə demokratik düşərgənin maraqları baxımından bütün siyasi partiyalar seçkilərə öz siyahısı ilə getməlidirlər: "Bizim ölkəmizdə seçkilərin demokratik keçməsi üçün şərait yoxdur, seçki komissiyaları hakimiyyətin tam nəzarətindədir, seçkilərin saxtalaşdırılması mühiti qalmaqdadır. Belə bir vəziyyətdə demokratik düşərgənin əsas vəzifəsi ciddi bir prosesin başladılmasıdır. Ciddi bir prosesin, mübarizənin başladılması üçün mümkün qədər çox insanın seçki prosesinə qoşulması lazımdır. Mən hesab edirəm ki, müxalifət çox sayda namizəd irəli sürməlidir. Hər namizəd öz seçki qərargahını, müşahidəçilərinin, öz nümayəndələrinin siyahılarını formalaşdırmalıdır. Seçki prosesinə səfərbər olunan namizədlərin və onların seçki qərargahlarının birgə fəaliyyət göstərməsinin təmin olunması üçün işlər görülməlidir. Söhbət ondan gedir ki, demokratik seçki keçirilərkən kimin çox səs yığması böyük önəm daşıyır. Amma bir halda ki, seçkilər saxtalaşdırılır, bu halda kimin çox səs yığması yox, nə qədər insanın bu seçki prosesinə və seçki saxtakarlığına qarşı mübarizəyə səfərbər olunması mühüm rol oynaya bilər. Mən hesab edirəm ki, bu istiqamətdə Müsavat Partiyası düzgün mövqe tutacaq. İlin başlanğıcından artıq müəyyən məsləhətləşmələrə start verilib. Həm Müsavatın daxilində bu müzakirələr gedir, həm də Müsavatın digər partiyalarla bu istiqamətdə məsləhətləşmələri davam edir. Yəqin ki, yaxın bir-iki ay ərzində bu məsələlərdə də hər kəsin mövqeləri aydınlaşacaq. Bu gün üçün görünən odur ki, elə Milli Şura da öz siyahısı ilə seçkidə iştirak eləmək tərəfdarıdır. Başqa təşkilatlar bu və ya digər formada əməkdaşlığı mümkün sayırlar. Hər bir partiya öz siyahısı ilə çıxış etsə də, seçki saxtakarlığına qarşı mübarizədə hamının birgə olması zəruridir. Mən hesab edirəm ki, partiyalar bu zərurəti qəbul edəcəklər".



M.Hacıbəyli ayrı-ayrı siyahılarla seçkidə iştirak edən partiyaların prosesin gedişində əməkdaşlığının necə qurulmasının düsturunu belə gördüyünü dedi: "Tutaq ki, müxalifət düşərgəsindən 500 nəfər namizəd irəli sürülür və bu 500 namizədin hərəsi öz seçki qərargahında təxminən 100 nəfər fəal toplayır və eyni gündə bu namizədlərin, siyahılar irəli sürən partiyaların hər birisi Azərbaycanda seçki qanunvericiliyinin dəyişdirilməsi, seçkilərin demokratik keçirilməsi uğrunda mitinq keçirirlər. İkincisi, hakimiyyət həm namizədlərin qeydiyyatı mərhələsində əngəllər yaradır, həm də az sayda namizədlər olduğu şəraitdə hakimiyyətə seçkini saxtalaşdırmaq daha asan olur. Partiyalar seçkilərə öz namizədlər siyahısı ilə gedəndə namizədlərin sayı çox olacaq, hər məntəqədə hər bir namizədin müşahidəçisi olacaq, hər məntəqədə hər namizədin məşvərətçi səs hüquqlu komissiya üzvü olacaq. Onların birgə fəaliyyəti seçki məntəqəsində seçki saxtakarlığının qarşısının alınması üçün şərait yarada bilər. Nə qədər ki, Azərbaycanda tam demokratik seçki yoxdur, nə qədər ki, ölkədə kimin deputat seçilməsini səslərin sayı həll eləmir, nə qədər ki, yalnız kütləvi mübarizə ilə nəyəsə nail olmaq mümkündür müxalifət mümkün qədər çox adamı seçkilərdə mübarizəyə səfərbər etməklə nəticə əldə etmək yolunu seçməlidir".

Müxalifət düşərgəsindən namizədlərin çoxluğunun müxalifətə verilən səslərin parçalanmasına səbəb olması ehtimalına gəlincə, M.Hacıbəyli vurğuladı ki, Azərbaycan reallığında səslər sayılmır. Ona görə də səslərin parçalanıb-parçalanmamasının ciddi əhəmiyyəti qalmır: "Müxalifətin hər dairədə vahid namizədi olanda da həmin namizədin topladığı səsləri saymırlar və bununla məsələ bitir. Bir namizədlə bu şəkildə mübarizə aparmaq hakimiyyət üçün asan olur. Ancaq hər dairədə çoxlu sayda namizəd olanda hakimiyyət üçün bir qədər çətin situasiya ortaya çıxır. Blok məsələsi o vaxt əhəmiyyət kəsb edər ki, seçkidə kimin daha çox səs yığması mühüm rol oynasın. Hazırda isə vəziyyət elədir ki, kimin nə qədər səs yığmasından asılı olmayaraq seçkilər saxtalaşdırılır. Ona görə də seçkilərə, bu prosesə mümkün qədər çox adam cəlb olunmalıdır ki, mübarizədə kütləvilik təmin olunsun".

❑ Etibar SEYİDAĞA

YENİ MÜSAVAT
N 23 (6051) 2 fevral 2015

# "İki sual qarşısında qalmışıq..."

## Fazil Mustafa: "Azərbaycan iqtidarı haqlı və ya haqsız şəkildə adları vicdan və ya siyasi məhbus kateqoriyasına salınmış şəxslərin azadlığa buraxılması məsələsinə baxmalıdır..."

**"Baxış bucağı"**

**AŞPA-nın qış sessiyasında Azərbaycan nümayəndə heyətinin Rusiya ilə bağlı qətnamənin əleyhinə səs verməsi ötən həftənin əsas müzakirə mövzularından oldu. Bu qərarın Rusiya təcavüzünə məruz qalan Ukrayna əleyhinə yönəldiyini deyənlər də oldu, Azərbaycanın real situasiyanı nəzərə alıb məcburi gediş etdiyini vurğulayıb bunu təqdir edənlər də. Mövzu ilə bağlı AŞPA-dakı nümayəndə heyətimizin üzvü, deputat Fazil Mustafa ilə danışdıq.**

***- Fazil bəy, səhv etmirəmsə, siz əvəzedici heyətdə olduğunuzdan səsverməyə qatılmayıbsınız. Necə bilirsiniz, həmkarlarınızın seçimi doğru idimi?***

- Mən səsvermədə iştirak etsəydim, heç tərəddüdsüz Rusiya ilə bağlı qətnamənin lehinə səs verərdim. Bu, bir ölkənin suverenliyini dəstəkləmək, Rusiyanın işğalçı siyasətinə qarşı mövqe ortaya qoymaq üçün vicdanımı rahatladacaq addım olardı. Ancaq siyasi baxımdan atdığım addımın çox yanlış olduğunu öz-özümə etiraf edərdim. İki sual qarşısında qalmışıq: vicdan rahatlığı və Azərbaycanın rahatlığı. Bütün hallarda indiki tarixi şəraitdə Azərbaycan nümayəndə heyətinin Azərbaycanın rahatlığı üçün seçim etməsini doğru hesab edirəm. Çünki sanksiyaların girdabında boğulan Rusiyanın bu gün pəncələri uzaqlara gedib çatmasa da, yaxınları parçalayacaq gücdədir. Mahiyyətcə bu, Avropa ilə Rusiya arasında bir savaş deyil, ABŞ-la Rusiyanın Avropa qurumları müstəvisində toqquşmasıdır. Biz indi kimin üçün fədakarlıq etməliyik: ABŞ, Rusiya, yoxsa Avropa üçün? Əlbəttə, Azərbaycan üçün. Ona görə də bu məsələdə demokratiya duyğusallığı göstərmək Azərbaycanın taleyini elə bir təhlükəyə soxar ki, bunun düzəldilməsi üçün bəlkə də başqa bir tarixi şans əldə edə bilmərik. Əslində həm Avropa üçün, həm də Rusiya üçün formal xarakter daşıyan bir səsvermədə öz dövlət maraqlarımızdan fərqli davranış göstərmək məcburiyyətində deyilik ki?

***- Bakı bununla Rusiyanın yanında yer aldığını nümayiş etdirdi, yoxsa taktiki gediş edib şimal təhlükəsini neytrallaşdırmaq istədi?***

- Rusiyanın yanında yer yoxdur, rus məntiqi hər şeyi ya içində, ya da qarşısında görür. Ona görə də biz öz yerimizdə qaldıq və niyə yerimizdə qaldığımızı sorğulaması üçün Rusiyaya bəhanə vermədik. Bundan sonra bizim strateji addımlarımızı kimsə gözləməməlidir, hamısı kiçik, taktiki addımlar olacaq. Çünki kiçik addımlarda yıxılmaq, səhv etmək riskimiz daha azdır. Azərbaycan Ukraynanın bizə qarşı etdiyi fədakarlığın daha artığını BMT-də mövqe ortaya qoyaraq göstərdi. Bundan sonrakı addımlarımız Ukrayna üçün də, Rusiya üçün də kifayət qədər anlaşılandır.

***- Bununla Azərbaycan Ukraynanı itirə bilərmi? Bəzi erməni deputatların belə bitərəf qaldığı sənədin əleyhinə çıxış etmək Azərbaycanın köklü maraqlarına zərər vurmurmu?***

- Bu gün bizi daha çox nə narahat etməlidir: Ukraynanı, yoxsa Azərbaycanı itirmək? Ukrayna beynəlxalq platformada Azərbaycanın Qarabağ məsələsinə arzuladığımız həssaslığı göstərməyib. Bununla belə, biz Ukrayna ilə dostluq kursumuzu bu gün də davam etdiririk. Ukraynanın bizim 5-6 səsimizə ehtiyacı yoxdur. ABŞ-ın, Avropanın Rusiyaya yönəlik sanksiyalarına, silahına, puluna ehtiyacı var. Bir də ki, biz axı Ukraynanın əleyhinə səs verməmişik, Rusiyanın lehinə səs vermişik. Buyurub Ukrayna bizi utandırmaq üçün məsələ qaldırsın ki, gəlin Ermənistanı da Avropa Şurasından işğalçı dövlət kimi qovaq. Qaldıracaqmı? İndiyədək bunun şahidi olmadıq, bundan sonra da heç olmayacağıq. O zaman Azərbaycan başqa necə davranmalıdır?

***- Bizə çatan xəbərlərə görə, AŞPA müzakirələri Azərbaycan üçün də çətin keçib. Xüsusilə də yekun sənədə Xədicə İsmayılla bağlı əlavənin edilməsi və s. nəzərdə tuturam. Siz durumun dəyişməsi, Bakının təhdidlərdən xilası üçün nə təklif edirsiniz?***

- Bu təzyiqlər gözlənilən idi, ancaq etiraf edək ki, artıq Rusiya qarşısında aciz duruma düşəndən sonra Avropa Şurasının başqa dövlətlərlə münasibətində də bir gözükölgəlilik yaranıb. Yəni gücləndən tələb edə bilmədiyini zəifdən tələb etməyə başlayanda, zəiflər də hər çağırışa cavab vermir. Ona görə də bu müzakirələr və alınan qərarların təsir gücü ildən-ilə aşağı düşməyə başlayır. Xüsusilə də prinsiplərin deyil, konkret şəxslərin israrla dəstəklənməsi bir qərəzlilik fonu yaradır. Məncə, AŞPA-da bu cür müzakirələrin keçirilməsinə rəvac verməmək üçün Azərbaycan iqtidarı haqlı və ya haqsız şəkildə adları vicdan və ya siyasi məhbus kateqoriyasına salınmış şəxslərin azadlığa buraxılması məsələsinə baxmalıdır. Mən İlqar Məmmədovun, Tofiq Yaqublunun, həbsdə qalan NİDA-çıların azad olunmasının, İntiqam Əliyevin, elə Xədicə İsmayılovanın barəsində çıxarılan həbs-qəti imkan tədbirinin dəyişdirilməsinin tərəfdarıyam. Xüsusilə Qarabağ qazisi olan Tofiq Yaqubluya qarşı bu qədər sərt davranışın davam etməsini anlamaqda çətinlik çəkirəm. Ölkənin mənafeyini düşünürüksə, indiki geosiyasi xaos vəziyyətində Azərbaycana qarşı müzakirələrin açılması heç bir halda faydamıza deyil.

***- Rusiyaya qarşı sanksiyaların zamanının uzadılması ölkədaxili problemlərinə görə vaxtaşırı xəbərdarlıqlar alan Azərbaycan üçün də təhlükəli perspektiv vad etmir ki?***

- Rusiya ilə bağlı məsələni Azərbaycanla müqayisə etmək ədalətsizlik olardı. Bu gün Avropa razıdır ki, Rusiya öz içində, hüdudlarında istənilən şıltaqlıqları etsin, başqa dövlətlərə problem yaratmasın. Rusiya artıq problem yaratmır, birbaşa müharibə aparır, birbaşa ərazi işğal edir. Ona görə də bu xəbərdarlıqlar hansısa sanksiyanın işarəsi kimi anlaşılmamalıdır. Sadəcə, Azərbaycan da Avropa İnsan Hüquqları məhkəməsinin qərarları ilə bağlı məsələlərdə adekvat addımlar atmalıdır ki, bəhanə edib hər dəfə bizi gündəmə gətirməsinlər.

***- Hesab etmək olarmı ki, işğalçı Rusiyanın cəzalandırılmasının məntiqi davamı olaraq Ermənistana qarşı da sərt qərarlar qəbul oluna bilər? Yoxsa Azərbaycan heyətinin son mövqeyi, Rusiyanın yanında yer alması bunu istisna edir?***

- Məhz bunu hesab etmək olmaz! Əslində Azərbaycanın AŞPA, Avropa Birliyi qarşısında qaldırdığı məsələnin arqumenti, Rusiyanın lehinə qərar verməsinin səbəbi sayıla bilər. Qısa və sadə: "Rusiyadan öncə işğalçılıq siyasətini Ermənistan başlayıb, ona hansısa sanksiyanı son 23 ildə tətbiq etmisinizmi? Ermənistan Rusiyadan çox-çox kiçikdir, kiçik dövlətə sanksiya tətbiq edə bilmirsiniz, o zaman biz niyə sizin böyük dövlətlə davanıza tərəf olaraq qoşulmalıyıq? Buyurub birinci Ermənistandan başlayın, ardınca biz də prinsip olaraq Rusiyaya qarşı hər bir addımınızı dəstəkləyək". Bunlar beynəlxalq hüququn standartlarını itirdiklərinə görə Rusiyanın davranışları qarşısında əziyyət çəkirlər. Bir ölkə üçün işğalçıya dəstək verəcəksən, digər ölkə üçün işğalçılıq pisdir deyəcəksən, bunun adı nə plov olacaq, nə də dolma. "Dolmaplov" adlanan hansısa bir yemək növü də mətbəx ensiklopediyasında rast gəlinmir.

***- Fazil bəy, son vaxtlar sizin bir çox fikirləriniz, o cümlədən Babək, Azərbaycan dövləti və sairlə bağlı dedikləriniz çoxluq tərəfindən sərt reaksiyalara səbəb olur. Hər halda kənardan belə görünür. Bunun fərqindəsinizmi?***

- Əvvəla, bu mövzuda səsləndirdiyim bütün fikirlərin doğruluğuna əminəm, bu fikirlər Azərbaycan dövlətinin və xalqının faydasınadır, bundan sonra da bu doğruları səsləndirməyə, yazmağa davam edəcəyəm. İkincisi, Azərbaycanda sağlam düşüncə sahibi olan kimsə tərəfindən bu fikirlərin yanlışlığı ilə bağlı hansısa irad dilə gətirilmədi. Məlum teledebatda da bu fikirləri təkzib edəcək mövqe ortaya qoyulmadı. Üçüncüsü isə, sizin çoxluq ifadənizi ziddiyyətli də olsa qəbul edərsək belə, indi həmin çoxluq Üzeyirin də ara mahnılarını çox sevir, nə edək, zövqümüzü o çoxluğa görəmi formalaşdıraq? Bu məsələlərə qaragürühçu düşüncə ilə yanaşmaq olmaz. Siyasətçinin də, ziyalının da borcu xalqın necə qiymətləndirməsindən asılı olmayaq, Vətəninin, millətinin faydası üçün çalışmaqdır. Ancaq siyasətçi və ziyalı xalqın düşündüyü kimi düşünməyə, istədiyi kimi davranmağa başlayanda, o zaman həmin xalqın faciəsi üzə çıxır. Bizim fikirlərimizə reaksiyalar əslində cəmiyyətin bir testidir. Siyasətçisi də, alimi də, ziyalısı da xalqın düşündüyünü, istədiyini təkrarlamaqla məşğul olarlarsa, o zaman cəmiyyətdə hansı yenilikdən, doğru mühakimədən söhbət gedə bilər? Doğruluğuna qəti əmin olduğum bu



**"Ukraynada qalxan tüstü Avropadan Azərbaycanı aydın görməyə imkan vermir"**

fikirləri 20 ilə yaxındır ki, kitablarımda, məqalələrimdə yazıram, televiziyadan səsləndirirəm. Bu fikirlərin əleyhinə hələ də bir tutarlı arqument oxumadım, eşitmədim. Əks mövqedə əsasən vətənşivənlikdən başqa bir şey müşahidə etmədim. Mənim istinad nöqtəm böyük öndər Məmmədəmin Rəsulzadədir, onun tarixə baxışını təqdim edirəm, buyurun, təkzib edin. Mənim istinad nöqtəm Azərbaycan bayrağında əks olunan mənəvi dəyərlərimizdir. Xürrəmilik hər üç dəyərimizlə tərs mütənasibdir. Türklüyümüzə ziddir, buyurun bir qisim saxtakar türkçü, heç olmazsa, Əbülfəz Elçibəyin "Tolunoğulları dövləti" əsərini oxuyun. Məhz bu hərəkatı türk hərbçilər məğlub etdilər, məğlub olduqdan sonra xilafət ordusundakı türk sərkərdə və əsgərlər Azərbaycan coğrafiyasında tədricən söz sahibi olmağa başladılar, ardınca Sacilər dövləti yarandı, iki əsr sonra da səlcuqluların gəlişi ilə dominant çoxluğa çevrildilər. Buyurun, bir qisim saxtakar islamçı, öz peyğəmbəri, öz dini uğrunda vuruşan, Allahın insan obrazında təcəssümündən, ruhun bir bədəndən başqasına keçməsindən danışan fərqli bir din liderini özünüzə qəhrəman olaraq tanıyın. Buyurun cahil demokratlar, Sovet sistemi kimi xüsusi mülkiyyətin toxunulmazlığını ortadan qaldıran, hər şeyi ümumiləşdirən bir zehniyyətin müdafiəçisi kimi çıxış edin. Rəsulzadəni, bayrağın mənasını anlamayanlar üzərimizə hücum çəkəndə, doğru mövqeyimizdən geri çəkilməyimizimi gözləyirdilər? Azərbaycanda tarix və din şüuru kökündən yanlış olduğuna görə biz bu problemə xüsusi diqqət ayırırıq. "Türk kimliyi və saxta tarix problemi" adlanan son kitabım da bu problemə həsr olunub. Biz tarixdən qondarma qəhrəmanlar deyil, bu günümüz üçün faydalı olacaq dəyərlər axtarmalıyıq. Yoxsa kiminsə beş baş artıq kəsməsini, beş kilometr torpaq artıq tutmasının günümüz üçün heç bir mənası yoxdur. Qarabağı nə Babəkin, nə Şah İsmayılın, nə də Koroğlunun qılıncı ilə qaytarmayacağıq. Qaytara bilsək, ancaq müasir insanımızın zəkası və iradəsi ilə qaytaracağıq. O zaman bu müasir insanı yalanlarla, pafosla, məcaraçılıqla niyə yükləməliyik? Onu real dünyanın şərtlərinə uyğun, dayanıqlı yetişdirmək üçün öz potensialını doğru tanıtdırmaq, göstərmək bizim mənəvi borcumuzdur. Bu fikirləri sağlam müzakirə etmək əvəzinə, qarşıma vücuda zəncirlə vurmanın fəlsəfəsini tərənnüm edənləri tarixçi adı ilə çıxarıb cəfəng görüşlərini təbliğ edirlər. Azərbaycanda sağlam düşüncəyə sahib tarixçi alimlərimiz var, ancaq bəzi bu sayaq tarixçiləri görsə Füzuli bəlkə də "aldanma ki, əlbəttə, şair sözü yalandır" əvəzinə "tarixçi sözü yalandır" ifadəsini işlədərdi.

***- Parlamentin yaz sessiyası başlayır. Siz sessiyada əsas hansı məsələlərin gündəmə gətirilməsini, ölkədə hansı addımların atılmasını gözləyir və istəyirsiniz?***

- Bu gün ölkədaxili məsələlərin böyük əksəriyyəti beynəlxalq arenada yaranmış qarışıqlığa indeksli olduğundan, düşüncələrimiz daha çox kənarda olub-bitənlərə yönəlib. İstər siyasi, istər sosial və iqtisadi xarakterli geriləmələrin əsas səbəbi tarixi faktorla bağlıdır. ABŞ-ın öz prinsiplərindən, dəyərlərindən uzaqlaşması bizdəki demokratiyanın vəziyyətinə əhəmiyyətli təsir göstərdi, Rusiyada avtoritarizmin və işğalçılıq ab-havasının yüksəlişi, postsovet ölkəsi kimi bizdə də idarəmənin hədsiz mərkəzləşməsi üçün zəmin hazırladı, erməni işğalına hələ də son qoyulmaması bizdə də hərbi xərclərin hər sahənin üzərinə çıxmasını məcburi hala çevirdi. Ona görə də daxildə arzu və tələb olaraq çox dar bir çərçivə qalmaqdadır. Bu çərçivə içində azad sahibkarlığın çöküşünə imkan verilməməsi, icbari tibbi sığortanın tətbiqi, inhisarçılığın azaldılması, əhalinin aztəminatlı hissəsinin böhran şəraitində sıxıntılarının azaldılmasına yönələn sosial siyasətin izlənməsi və başqa bu kimi məsələləri gündəmə gətirməyi düşünürəm.

***- Avropadan Azərbaycan problemlərini yaqin daha aydın görmək olur. Neca ki, siz Strasburqa yağan qarın sevinci ilə Bakıya yağan qarın aləmi arasında paralellik aparmışdınız. Başqa hansı müqayisələr var?***

- Hazırda Ukraynada qalxan tüstü Avropadan Azərbaycanı aydın görməyə imkan vermir. Azərbaycanı elə özümüzdən görünən kiçik nöqsanlardan təmizləyərək normal vəziyyətə gətirmək olar. Şüarlarımızı dəyişməkdən başlamalıyıq. Avropada "Hər şey insan üçündür!" şüarı bizdə hələ ki, "İnsan hər şey üçündür!" kimi anlaşılır və nəticədə insanın özünə dəyər vermə duyğusu zəifləyir. Bu anlayışı dəyişməyincə Avropa insanını kopyalasan belə, qısa müddətdə bizdən biri olaraq qalacaq.

P.S.Müsahibənin geniş variantını musavat.com-dan oxuya bilərsiniz.

❑ **Elşad PAŞASOY**

YENİ MÜSAVAT
N 23 (6051) 2 fevral 2015



# Savaşmaq və sevişmək arasında seçim

Zamin HACI
zaminhaci@gmail.com

## (Rasim Qaracanın "On bir gecə" kitabı haqda resenziya)

**"İnsanlarımız könülsüzləşiblər. Bunun təkcə bir səbəbi var; yaxın Qarabağ savaşında bütün könüllülər cəbhəyə yollanıb və çoxu da həlak olub. Yerdə biz könülsüzlər qalmışıq. Artıq biz nə dostluq etməyi, nə də sevməyi bacarırıq. Qəlb dünyamızda səbəbini fəhm edə bilmədiyimiz bir boşluq yaranıb. Düşünə bilirsizmi, vətən borcu deyərək minlərlə insan özünü müharibə adlı ət maşınının içərisinə atır. Bu insanlar toplu şəkildə Bir Millətin Könlü idi deyə bilərik. Bəlkə də buna görə bütün milli hədəflərimizdə bu qədər könülsüzük. Bizi əzən sistemə qarşı heç bir dirəncimiz yoxdur".**

Bu uzun sitatı yazıçı Rasim Qaracanın "Könülsüzlər" essesindən götürmüşəm. Rasim bəy ədəbiyyatımızda yapon poeziyasının ruhunu, avanqard şeiri, sürrealizmi və sairəni layiqincə təmsil etmiş, bir çox yeniliklərə imza atmış insandır. Şəxsən mən onun 1989-cu ildə hansısa jurnalda çıxan "İstəməzdim dəniz otağıma gəlsin" misralı şeirinin havasını, təxminən elə o vaxtlar Azad Yaşar və adını unutduğum başqa şairlə yaratdığı "Baca" ədəbi qrupunun gurultulu manifestini unutmuram. Keçən il isə Rasim bəyin "On bir gecə" hekayələr kitabı çıxdı, sitat gətirdiyim esse də o hekayələr kitabının bir küncündə özünə yer tapıb.

Müəllif kitabı "Qarabağ Dekameron"u adlandırıb, burada 10 hekayə, 10 əsgərimizin dilindən verilir. Bunlar savaşda mühasirəyə düşüblər, son döyüş qabağı qərara gəlirlər ki, səhərəcən bir təhər vaxtı ötüşdürsünlər, hər kəs ilk sevgisi, ya da ilk sevişdiyi qadın haqda danışsın. Bokaççonun "Dekameron"u ilə müəllifin paralel qurması da burdan irəli gəlir, çünki orta əsrlər italyan ədəbiyyatının şedevrlərindən biri olan "Dekameron"da da 3 gənc və 7 qadın şəhərdəki (Florensiya) epidemiyadan qurtulmaq üçün şəhər kənarındakı villaya toplaşır, orda vaxtı öldürmək üçün cürbəcür maraqlı əhvalatlar danışırlar.

Ancaq mən Qaracanın hekayələrini oxuyanda daha çox "Min bir gecə" ərəb nağıllarının ruhunu gördüm. Hətta bəzi hekayələr elə Şirvanın yarımsəhra iqlimində yaranmış (Rasim Qaraca keçmiş Əli Bayramlı şəhərində doğulub, böyüyüb) nağıllara oxşayırdı. "On bir gecə"nin qəhrəmanları olan döyüşçülər öz sevgi əhvalatlarını danışdıqca, kitabı səhifələdikcə sən də bir oxucu olaraq özünü Şəhriyar şahın yerində hiss edirsən, istəmirsən bu nağıllar qurtarsın, çünki qurtaranda Şəhrizadın boynunu vuracaqlar - əsgərlər son döyüşə girib öləcəklər. Düzdür, nağılda Şəhrizad axırda da sağ qalırdı, ancaq bizim ümidsizlik girdabına düşən könüllülərimizin heç bir şansı yoxdur. Bu, hər səhifədən adama cümlə-cümlə anladılır. Çünki hekayələr sevgi haqda olsa da, burda əslində heç sevgi də yoxdur. Qəhrəmanların bir çoxu sevdiklərini hətta öpə də bilməyib savaşa gəliblər. Müharibə haqdadır, amma müharibə də yoxdur. Çünki əsl savaşın insanın daxilində getdiyini müəllif yaxşı bilir. Daxili savaşlarımızda axan qanlar, itkilər, yaralı və ölülər daha çox deyilmi?

Bu mənada, "On bir gecə" hekayələr kitabına atəşkəs dövrünün ədəbiyyatı da deyə bilərik. Burada hələ heç nə öz yerini tapmayıb. Döyüşçülər sevgi hekayələrini, yarımçıq qalmış dinc həyatlarını danışırlar, eyni zamanda, nifrət və savaş da burada yarımçıqdır. Bu hekayələrdə müsbət, mənfi qəhrəmanlar yoxdur. Sadəcə, 10 nəfərin adından danışılan böyük bir təəssüf var, keçmişin bir də qayıtmayacağına, nağıllarda deyilən kimi, "geriyə baxarkən bizim daş olacağımıza" aid xəbərdarlıq var. Bu hekayələrin kədəri öldürücü deyil, dirildicidir.

Ümid edirəm ki, Rasim Qaracanın hekayələrini oxuyan indiki və gələcək insanlar öz sevgilərini yarımçıq qoyub savaşa getməyəcəklər. 1960-cı illər hippi hərəkatının məşhur şüarında deyilən kimi: "Savaşmayın, sevişin". Bəzən bu, insanların öz ixtiyarında olmasa belə, yazıçı bizə bu ümidi verir.

## Bakı-Qərb münasibətlərində "daşları yığmaq" zamanı

# ABŞ-ın yeni səfiri barışla gəlir - şərh, təfərrüat

### Vaşinqtonla "soyuq savaş" dövrü bitir; Sekutanın gəlişi ərəfəsi hakimiyyətin Rusiyaya növbəti reveransı ilə yadda qalsa da, iqtidar Amerikanı da "unutmur"; Azərbaycanın Qərblə əlaqələrinin gələcəyi indi həm də Ukraynada həll olunur...

**ABŞ-ın yeni səfiri Robert Sekutanın Bakıya gələcəyi tarix dəqiqləşdi - 12 fevral. İndi bir çox təhlilçilər Azərbaycan hakimiyyəti ilə Qərbin favorit dövləti kimi ABŞ arasında münasibətlərə növbəti böyükelçinin öz missiyasına başlamasının hansı təsirləri göstərəcəyini təxmin etməyə çalışırlar. Əsas sual da budur ki, Sekuta öz sələfi Riçard Morninqstarın erkən gedişi ilə yaranmış siyasi boşluğu və aradakı (etiraf olunmayan) soyuqluğu qısa zamanda aradan götürə biləcəkmi?**

Qeyd edək ki, az öncə Azərbaycan prezidenti İlham Əliyev Almaniyaya uğurlu və məhsuldar sayıla biləcək səfər edib və bir sıra müşahidəçilər bunu Bakının Qərblə münasibətlərində, nəhayət, ılıqlaşma dövrünün başlanması kimi qiymətləndirib. Ardınca cənab Sekutanın ölkəmizə varid olacağı tarixin açıqlanması, diplomatın gəlişi ərəfəsində isə ABŞ-ın nüfuzlu mətbu orqanlarından olan "The Washington Times"da Azərbaycan haqda pozitiv yazının getməsi iddia eləməyə əsas verir ki, Amerika üçün "qırmızı xətt"i gözləmək hər halda, daha böyük önəm kəsb edir, nəinki Azərbaycan iqtidarından ötrü.



Rusiya rəsmilərinin özlərinin də yüksək dəyərləndirdiyi Bakının Moskvaya son reveransına (adekvat olaraq Qərbə anti-reveransına) da məhz bu məntiq çərçivəsində izah tapmaq mümkündür. Söhbət Avropa Şurası Parlament Assambleyasının təzəcə başa çatan qış sessiyasında Azərbaycan nümayəndə heyətinin tam Rusiyayönlü mövqe sərgiləməsi, Ukraynaya görə Kreml əleyhinə sanksiya sənədinin əleyhinə səs verməsindən gedir. Halbuki, hətta satellit Ermənistan da belə mövqe sərgiləməyib.

***

Şübhə yox ki, Bakının Kremlə son reveransı da, Vaşinqtonun Bakıya ünvanlı son pozitiv jestləri də Ukraynadakı böhranın dərinləşməsi ilə birbaşa bağlıdır. Məsələ ondadır ki, əgər Azərbaycan rəhbərliyi həmin böhran fonunda Kremlin qəzəbindən maksimum dərəcədə sığortalanmağa çalışırsa, Qərb, öncəliklə də ABŞ isə Bakıya qarşı ritorikanı yumşaltmaqla sonuncunun Rusiyanın ağuşuna geridönməz şəkildə yuvarlanmasını önləməyə səy edir.

Çünki Azərbaycan Qərb üçün hər şeydən öncə energetik və geosiyasi maraqlar baxımından mühüm tranzit ölkədir və onun bütünlüklə Rusiyanın təsir zonasına keçməsi Qərbin Güney Qafqazdakı dayaqlarına, köklü maraqlarına sarsıdıcı zərbə olar. Eyni zamanda qonşu Gürcüstanın təklənməsinə gətirər, habelə Ermənistanı Azərbaycan və Türkiyənin köməyi ilə Rusiyadan qoparmaq ümidlərini həmişəlik basdırar.

Şəksiz, Vaşinqtonda ciddiyə alırlar ki, Bakı Dağlıq Qarabağ məsələsində Kremldən möhkəm zəmanət almayınca onun yanında yer almaz. Bu-rası dəqiqdir. Moskvanı isə hələ ki, Qarabağ məsələsi bir elə maraqlandırmır. Tanınmış rusiyalı ekspert Sergey Markedonovun təbirincə desək, Qarabağ Kreml üçün hazırda ikinci plandadır.

Sitat: "Biz hələlik bilmirik ki, Ukrayna böhranı necə inkişaf edəcək. Kremldən ötrü Ukrayna indi ən əsas meydandır, Dağlıq Qarabağ isə ikinci dərəcəli önəm kəsb edir. Qarabağ haqda heç kim ciddi düşünmür. Əlbəttə ki, düşünürlər, amma ikinci planda. Rusiyanın bu məsələyə hərbi müdaxiləsi Ukrayna hadisələrinin inkişafından asılı olacaq".

***

Beləliklə, Ukraynada əslində nəinki Qarabağ probleminin, eləcə də Bakı-Qərb münasibətlərinin perspektivinin müəyyənləşməsi prosesi gedir yazsaq, yanılmarıq. Məhz bölgəmiz və ətrafındakı mürəkkəb geosiyasi proseslərin dərinləşdiyi dönəmdə amerikalı yeni səfir Azərbaycanda öz missiyasına başlamalıdır. Sual da elə yuxarıdakının davamıdır: səfir hansı mesajlarla gələcək və ilk açıqlamasında öz ölkəsi adına hansı prioritetləri önə çəkəcək?..

Bir şey aydındır ki, Qərb-Rusiya münasibətlərinin Ukraynaya görə gündən-günə kəskinləşdiyi dönəmdə diplomatın dilindən səslənəcək mesajlarda Azərbaycanın ABŞ üçün əhəmiyyətı qırmızı xətt kimi keçəcək. Nədən ki, Vaşinqtondan ötrü Azərbaycan obyektiv səbəblərdən hakimiyyətində kimin olmasından asılı olmayaraq xüsusi dəyər verilən, yaxın və orta perspektiv üçün vazkeçilməz strateji ölkədir.

Ukrayna böhranının dərinləşməsi fonunda Azərbaycanın ABŞ üçün önəmi daha da artıb. Bu, xüsusda cənab Sekutanın gəlişi Azərbaycan-ABŞ əlaqələrində yeni səhifə də ola bilər. Olacaqmı? İş ondadır ki, qarşılıqlı münasibətlər ikiistiqamətli anlayışdır. Yəni Vaşinqtonla yanaşı, rəsmi Bakının da iradəsi köhnə xoşagəlməz səhifəni qapatmaq üçün yetərli olacaqmı?

Azərbaycan iqtidarının beynəlxalq əlaqələr sahəsində iki təcrübəli "emissarının" (Səməd Seyidov və Asim Mollazadə) hazırda Vaşinqtonda olmasını, Azərbaycan lobbisinin barış yaratmaq yönündə hərəkətə keçməsini ciddiyə alsaq, ən azından bu, bir anons sayla bilər ki, insan haqları ilə bağlı aradakı ixtilaflara baxmayaraq hər halda, Bakı da ABŞ-la (Qərblə) körpüləri yandırmaq niyyətində görünmür.

Münasibətlərə əngəl olan "daşları" yığmaq zamanı yetişib.

❑ **Siyasət şöbəsi**

# Yaponiyanın baş naziri İŞİD-in edam etdiyi yaponlara görə ağladı

**Yaponiya baş naziri Sindzo Abe "İŞİD" terror qruplaşmasının girov götürdüyü ikinci Yaponiya vətəndaşı Kendzi Qotonu edam etməsi xəbərinə münasibət bildirərkən ağlayıb.**

APA-nın xarici KİV-ə istinadən verdiyi xəbərə görə, baş nazir bu terrora qarşı çox qəzəbli olduğunu qeyd edib: "Heç bir formada qəbul edilməsi mümkün olmayan bu hadisəni şiddətlə qınayıram. Biz terrorçuları əsla əfv etməyəcəyik. Beynəlxalq birliklə birgə İŞİD-dən bütün törətdiklərinin hesabını soruşmaq üçün çalışacağıq".



Qeyd edək ki, İŞİD 10 gün əvvəl yaydığı videoda girov götürdüyü iki Yaponiya vətəndaşının azadlığa buraxılması üçün 72 saat ərzində 200 mln. ABŞ dolları tələb edib. Buna səbəb isə hadisədən bir neçə gün əvvəl Yaponiyanın baş naziri Sindzo Abenin İŞİD-lə mübarizə aparan ölkələrə 200 milyon dollar ayrılacağı barədə qərar verməsi olub. Verilən müddət bitdikdən sonra isə girovların edam edilməsinin videoları yayılıb.

YENİ MÜSAVAT
N 23 (6051) 2 fevral 2015

# AŞPA sessiyasından çıxan ən mühüm nəticə

## "Azərbaycanın Rusiyanı dəstəkləməsi öz gələcəyini Moskvaya bağlamaq anlamına gəlmir..."

**Avropa Şurası Parlament Assambleyasının (AŞPA) qış sessiyası başa çatdı. Sessiya dünyanın diqqət mərkəzində olmaqla əvvəlkilərdən fərqlənirdi. Bu toplantı Rusiyanın AŞPA-da fəaliyyətinin dayandırılması məsələsinin müzakirəyə çıxarılması ilə bağlı idi.**




**"Azərbaycan nümayəndə heyəti, əsasən də heyətin rəhbəri Səməd Seyidov nümayiş etdirdiyi mövqe ilə Qərbdə ölkəmizlə bağlı pis təəssürat yaratmış olublar"**

Məsələ müzakirəyə və səsverməyə çıxarıldı. Səsvermədə AŞPA üzvü olan bir sıra ölkələrin nümayəndə heyətlərinin mövqeyi isə yeni müzakirələrə yol açdı. Belə ki, Azərbaycan nümayəndə heyətinin Rusiyaya qarşı qətnamənin əleyhinə səs verməsi, həmçinin Türkiyə nümayəndə heyətinin Rusiyanı müdafiə etməsi, Rusiyanın forpostu Ermənistanın nümayəndə heyətinin isə bitərəf qalması maraqlı mənzərə yaradıb.

Azərbaycan Milli Strateji Təhqiqatlar Mərkəzinin rəhbəri Natiq Miri hesab edir ki, AŞPA-da Rusiya ilə bağlı səsvermədə Ermənistanın Rusiyanı dəstəkləməyib bitərəf qalması işğalçı ölkənin təreddüd etməsi ilə bağlıdır: "Son zamanlar Azərbaycan-Türkiyə-Rusiya üçbucağında yaxınlaşma baş verir. Bu yaxınlaşmanın fonunda Ermənistan narahatlıq keçirir. Ermənistan Avrasiya İttifaqına girməklə iqtisadi qazanclar əldə etmək və təhlükəsizlik sistemini birmənalı qaranta bağlamaq istəyirdi. Ancaq bunların heç biri olmadı. Əksinə, Ermənistanın milli valyutası olan dram Rusiya rublu ilə paralel ölməkdədir, Rusiya Türkiyə və Azərbaycanla yaxınlaşır. Belə vəziyyətdə və üstəlik də Gümrüdə bir rus əsgərinin erməni ailəni məhv etməsi fonunda Ermənistan toplumunda anti-Rusiya ovqatı yaranıb. Cəmiyyət bir daha əmin oldu ki, Ermənistanın inkişaf perspektivi Rusiyaya bağlı deyil. Belə bir ovqat Ermənistan nümayəndə heyətinin AŞPA-da Rusiyanı dəstəkləməməsinə təsir edib. Onu da nəzərə almaq lazımdır ki, Ermənistan nümayəndə heyətinin tərkibində həqiqi mənada müxalif fikirli insanlar da var və onlar gələcəyi Rusiya ilə görmürlər. Ona görə AŞPA-da Rusiyanın əleyhinə çıxmasalar belə, bitərəf olmaqla mövqelərini nümayiş etdirmiş oldular".

Ekspertin sözlərinə görə, əslində Azərbaycan nümayəndə heyəti, əsasən də heyətin rəhbəri Səməd Seyidov nümayiş etdirdiyi mövqe ilə Qərbdə ölkəmizlə bağlı pis təəssürat yaratmış olublar: "Azərbaycan nümayəndə heyətinin içərisində bir nəfər də olsun müxalif mövqeli deputat yoxdur. Ona görə də tam tərkibdə hakimiyyətdən gələn göstəriş əsasında Rusiyanın xeyrinə səs verdilər. Nümayəndə heyətinin rəhbəri Səməd Seyidovun AŞPA-dakı çıxışı isə çox böyük təəssüf yaratdı. "Avropa Şurası Rusiyasız dağılar" kimi məsuliyyətsiz bir bəyanatın verilməsi az sonra Rusiyanın özünün atdığı addımla heçə endirildi - Rusiya nümayəndə heyəti sessiyanı tərk elədi və Avropa Şurasından çıxacaqlarını bəyan etdi. Bununla Səməd Seyidovu gülünc durumda qoymuş oldular. Bəlli oldu ki, Azərbaycan nümayəndə heyəti Bakıdan verilən göstəriş əsasında Roma papasından daha çox katolik olmaq istəyib. Bu mənzərə, açığı, çox acı təəssürat yaratdı.

Azərbaycan həmişə Ukraynanın ərazi bütövlüyünü müdafiə edən mövqe ortalığa qoyub. Ancaq bu dəfə Rusiyanı müdafiə etdi. Bakı bununla Rusiyadan nə qazanacaq? Bu qədər Rusiyaya yaxınlaşma müqabilində Dağlıq Qarabağ problemində hər hansı irəliləyiş, Azərbaycanın xeyrinə Moskvanın bir addımını görürsünüzmü? Ona görə də Azərbaycan AŞPA-da o cür mövqe sərgiləməklə dünya güclərində belə təəssürat yaratdı ki, birmənalı olaraq Rusiyanın orbitinə keçmək üzrədir. Dünya güclərində, xüsusilə də Qərbdə belə təəssüratın yaranması Azərbaycanın zərərinədir".

N.Miri bildirdi ki, Azərbaycan prezidentinin Avropa Birliyinin önəmli ölkəsi Almaniyaya səfərinin, Azərbaycanın Avrointeqrasiya xəttində olduğunun bəyan edilməsinin fonunda AŞPA-da nümayəndə heyətinin ortaya qoyduğu mövqe heç də anlaşılan olmadı: "Belə ehtimal etmək olar ki, yaranmış vəziyyətdə hakimiyyət Rusiyanın ölkəmizə mümkün təhlükəsinin qarşısını almaq üçün bu addımı atıb. Bu, əslində gələcəyi Rusiya ilə bağlamaq anlamı daşımır. Artıq Belarus və Ermənistan belə, Rusiyaya alternativ axtarışına başlayıb. Belə bir vəziyyətdə inandırıcı deyil ki, Azərbaycan dövləti özünü birmənalı şəkildə şimala tutub".

❑ **Etibar SEYİDAĞA**

# Bu gün Müsavatda iki narazı üzvə Divan qurulur

**Müsavat başqanlığına keçmiş namizəd, yeni yaradılmış ADR hərəkatının rəhbəri Qubad İbadoğlu və tərəfdarlarından biri, Müsavat Qadınlar Təşkilatının sədri Ellada Məmmədli partiyanın fevralın 2-də keçiriləcək Divanına dəvət olunublar.**

Qubad İbadoğlunun tərəfdarları hesab edirlər ki, başqanlığa keçmiş namizəd və E.Məmmədlinin Müsavatdan çıxarılmasına hazırlıq gedir. Hətta Divan iclasında onların partiyadan çıxarılacaqlarını iddia edənlər də az deyil.

Qubad İbadoğlu "Yeni Müsavat"a açıqlamasında yaratdıqları ADR hərəkatının işləri ilə əlaqədar Divana getməyəcəyini bildirdi: "Mən Divana gedib-getməyəcəyimlə bağlı açıqlama verməmişəm. Bir daha təkrar edirəm ki, dəvəti qəbul etmişəm. Əvvəlcədən bizim rayonlarda planlaşdırdığımız tədbirlər var idi. Bu gün də rayondayam. Sonrakı günlərdə də tədbirlər istiqamətində rayonlarda olacam. Bakıda olmadığıma görə Divanın iclasına qatıla bilmirəm. Nə zamansa buna imkan olsa, Divanın iclasına qatılıb, fikirlərimi çatdırmaq niyyətindəyəm".

Qubad İbadoğlu Müsavatdan çıxarılma ehtimallarından da danışdı: "Əgər nizamnamə çərçivəsində hərəkət ediləcəksə, düşünürəm ki, bizim indiyə qədər olan fəaliyyətimizə heç bir irad bildirilə bilməz. Hər zaman biz Müsavatın nizamnamə, proqram və ideoloji siyasi xəttini əsas götürüb, çıxışlar edirik. Bu istiqamətdə fəaliyyət göstəririk. Amma indi son dövrlərdə nizamnamə ilə bağlı məsələlər arxa plana keçib. Qərarlar nizamnamə maddələrinə əsaslanmır. Çıxarılanların, demək olar ki, əksəriyyəti tənqidi fikirlərinə görə partiyadan xaric olunublar. Müsavat nizamnaməsinin maddəsi ilə hər bir üzvün rəhbərliyi və partiyanın siyasi xəttini tənqid etmək hüququ var. Orada qeyd olunub ki, partiya üzvünə tənqidi fikirlərinə görə intizam tədbirləri görülə bilməz. Partiyadan çıxarılma olsa, o zaman atacağımız addımlar barədə danışmaq olar. Hər şey Divanın verəcəyi qərardan asılıdır. Gələcək planlarımızın böyük hissəsi də bu qərardan asılı ola bilər".

Divana çağırılan Ellada Məmmədli indiyə qədər nizamnamədən kənar heç bir addım atmadığını qeyd etdi: " Mən sıravi müsavatçı, eyni zamanda Qadınlar Birliyinin sədri kimi nizamnamə çərçivəsindən kənar heç nə etməmişəm. Bütün partiya tədbirlərində iştirak edirəm. Baxmayaraq ki, Vəfa Cümşüdlü bunu inkar edir. Əgər öncədən qərar veriblər ki, məni xaric etsinlər, deməli, çıxaracaqlar. Çünki sosial şəbəkələrdə partiya başqanının müşavirləri, müavinləri və bəzi Divan üzvləri buna zəmin hazırlayıblar. Hətta müşavir Vaqif Davud Qadınlar Birliyinin buraxılması haqqında qapalı qrupda status yazmışdı. Səxavət Soltanlı isə, buna müsbət reaksiya vermişdi.Partiyadan çıxarılma ehtimalı mümkündür. Qadınlar Birliyi olaraq hər ay şura iclasımız keçirilir, qadınların maariflənməsi istiqamətində seminarlar, dəyirmi masalar, treninqlər təşkil edirik. Nə Müsavatçılıq ideologiyasından, nə də partiya qərarlarından kənar heç bir işlə məşğul deyilik. Bizim Divana çağırılmağımız müstəqil fikirli, azad düşüncəli olmağımız və kimlərinsə qərəzi və kininin məhsuludur. Həm də mənim qurultay nümayəndəsi kimi Arif Hacılının başqan seçiminin əleyhinə səs verməyim buna səbəb olmuşdur".



**Qubad İbadoğlu:** "İclasa qatılmayacağam"



**Ellada Məmmədli:** "Partiyadan çıxarılma ehtimalı mümkündür"

Ellada Məmmədli yaratdıqları Müsavatçıların Hüquqlarını Müdafiə Komitəsindən də söz açdı: "Müdafiə komitəsi əsassız olaraq partiyadan çıxarılmış Ənvər Əhmədən başlayaraq, sonrakı çıxarılan müsavatçıları qorumaq üçün yaradılmışdır. Qurultaydan sonrakı 5 ay müddətində baş verən hadisələr onu sübut edir ki, nizamnaməyə əməl olunmadan, qərəzli şəkildə partiyadan xaric olunmalar vardır, yeni "Mənim səndən xoşum gəlmir" siyasəti idarəçilikdə özünəməxsus yer tutmuşdur. Onun üçün də bundan sonra baş verəcək qanunsuzluqların qarşısını almaq məqsədilə Müsavatçıların Hüquqlarını Müdafiə Komitəsi yaradılmışdır".

❑ **Cavanşir ABBASLI**

# Dərd ortağının tənha qoyulması



**Xalid KAZIMLI**

**Daha danılası, gizlədiləsi, diplomatik ifadələrlə pərdələnəsi bir şey yoxdur: biz dövlət olaraq Rusiyadan qorxuruq.**

Bunu Avropa Şurasının Parlament Assambleyasında Rusiyanın Ukraynaya hərbi təcavüzünə dair keçirilən səsvermə bariz şəkildə ortaya qoydu. Azərbaycanlı deputatlar Rusiyaya tərəf çıxdılar.

Əlbəttə, burda heç bir özfəaliyyətdən, şəxsi iradədən söhbət gedə bilməz. Bu, rəsmi Bakının, mövcud rejimin iradəsi idi.

Şəxsi iradəyə, normal düşüncəyə qalsa, yəqin ki, nümayəndə heyətinin tərkibində təcavüzə məruz qalan Ukraynaya qahmar çıxanlar tapılardı.

Biz əslində, xalq, millət, cəmiyyət olaraq Ukraynanın tərəfindəyik. Bu, istər-istəməz belədir. Çünki Ukrayna 1990-cı ildən bəri Azərbaycana həmişə siyasi, maddi dəstək verib. Ən ağır illərdə, çörək qıtlığı çəkdiyimiz zamanlarda Ukrayna ölkəmizə 50 min ton taxıl göndərib - həm də təmənnasız. Qarabağ məsələsində Ukrayna həmişə haqq işimizi müdafiə edib, Qarabağ separatçılarına qarşı həmişə birmənalı mövqe ortaya qoyub, heç vaxt ikili oynamayıb və sair və ilaxır.

Üstəlik, hazırda Ukrayna bizimlə eyni durumdadır. Bu ölkənin də artıq ərazisinin mühüm bir hissəsi işğal olunub, bir milyon qaçqını var, ölkəsində separatçılar müharibə aparır. Bu ölkə də Rusiyanın aqressiyası ilə üz-üzədir.

Azərbaycan və Ukrayna artıq neçə müddətdir ki, dərd ortağıdırlar.

Ancaq işə baxın ki, həlledici anda ölkəmizin rəhbərliyi bütün mahiyyətini, anatomiyasını beş barmağı kimi bildiyi halda Rusiyanın yanında yer alır, haqlı olan, təcavüzə məruz qalmış Ukraynanın tərəfində durmur.

Burada yalnız bir səbəb var: Rusiyadan qorxu. Hazırda özünü dünya birliyinə, Qərbə qarşı qoyaraq, heç vaxt olmadığı qədər aqressivləşən Rusiyanın qarşısında qorxan dövlətlər çoxdur. Regiondakı dövlətlərin, hətta rus ayısının caynaqlarının çata biləcəyi məsafədə olan bütün ölkələrin hökumətləri qorxur ki, Rusiya Ukraynanı buraxıb onlara cuma bilər.

Dünyanın ən ünlü politoloqlarından biri olan, ötən əsrin 80-ci illərində ABŞ prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri işləmiş Zbiqnev Bjezinski hətta Putinin Tallin və Riqanı bir günün içində tuta biləcəyini qeyd edib.

Hamı bilir ki, Rusiya belə bir niyyətə düşsə, bunu edə bilər. Görünür, Azərbaycan rəhbərliyi də elə düşünür.

Gerçəklik budur ki, hazırda postsovet ölkələrindən biri Rusiya militarizminə qarşı duracaq gücdə deyil.

Ən pisi odur ki, onlar nəhəng aqressora qarşı hamılıqla birləşmək cəsarətində də deyillər. Hər biri təklənməkdən qorxur.

Bütün region dövlətləri çəkinir ki, ABŞ, İngiltərə, Fransa, Almaniya birləşib onların köməyinə gələnə qədər rus tankları gəlib onların paytaxtındakı son barrikadanı dağıdar.

Hələ ikili standartlarla siyasət yeritməyə vərdişkar olan güclü dövlətlərin köməyə gəlib-gəlməyəcəklərini də bilmək olmaz.

Bu baxımdan hər kəs öz başının çarəsinə baxmağa çalışır - Qazaxıstan ehtiyatla, Özbəkistan ötkəmliklə, Türkmənistan sırf neytrallığı kimi, Qırğızıstan həlim-həlim, Tacikistan bütün hallarda "bə çeşm" reaksiyası ilə, Ermənistan yarışantaj-yarıyaltaqlıqla, Azərbaycan pişim-pişimlə, Gürcüstan 2008-ci ildən başlayan küsülülüyü qorumaqla, Belorus haçalı mövqeyilə, Moldova salam-səfa ilə.

Belə bir durumda hamının gözü tənha buraxılmış Ukraynadadır.

Putin bilir ki, Ukrayna ram edilməsə, Rusiya Federasiyasının subyekti olan Çeçenistanın gününə salınmasa, həyatının layihəsi - Avrasiya İttifaqı alınmayacaq. Ukraynanın müstəqil dövlətçiliyi məhv edilsə, ondan sonra gözləmə mövqeyində olan postsovet ölkələri bir patron sındırılmadan Moskva metropoliyasına tabe olacaqlar.

Ukraynada gedən dava Donbasın, Krımın qəsb olunması və ya azadlığı uğrunda gedən dava deyil, rus imperiyasının yeni adla bərpa edilməsi üçün aparılan müharibədir.

Bunu Qərb də bilir, Şərq də. Fəqət bu müharibənin ağırlığı yalnızca Ukrayna xalqının üstünə düşüb. Yerdə qalan qardaşlardan ona kömək yoxdur. Hər kəs oturub öz gözünün çıxarılacağı günü gözləyir.



# Paltar ipi qadağası

Elşad PAŞASOY
epashasoy@yahoo.com

**Ötən həftə baş verən həmin hadisə əslində heyrətamizdir, günümüzün reallıqlarını göstərir. Göyçay camaatının qışın oğlan vədəsində "Novruz tonqalları" qalayıb ətrafında yallı getməsini, atəşfəşanlıq eləyib gecə yarısına qədər şənlənməsini deyirəm. Deyəsən, bu, çoxluğa adi göründü. Ancaq yox. Bir icra başçısının prezident sərəncamı ilə görəvdən alınmasını xalq bu cür coşqu ilə qeyd edirsə, tonqallar çatırsa, deməli vəziyyət kifayət qədər təhlükəlidir, hər an nəsə ola bilər.**

Düzdür, indi nazir Ziya Məmmədovun qohumu Mansur Məmmədov qonşu Ucaq rayonuna təyinat alıb, bundan sonra ucarlıların halı necə olacaq, demək çətindir. Amma hər halda bu təyinat bəlkə də ona verilən sonuncu şansdır. Əhali ilə əmlakı kimi davranan icra başçıları iki il incə baş verən İsmayıllı hadisələrindən dərs götürsün gərək. Belə görünür ki, dövlət başçısı Göyçayla bağlı sərəncamını tam yerində verib, qərar bir neçə gün geciksəydi, bəlkə də tonqallar şənlik üçün qalanmazdı, yaxud elə adamların özündən tonqal çatılardı...

Ümumən dünyada vəziyyətin kifayət qədər təhlükəli olduğunu tez-tez eşidirik. Hətta prezident də 2015-ci ilin sınaq ili olduğunu dedi və məmurlara növbəti xəbərdarlığını etdi, onları xalqla bir yerdə olmağa, qayğıları ilə yaşamağa, kobudluğa, yekəxanalığa yol verməməyə çağırdı, "siyasi mədəniyyət olmalıdır və insanlara hörmətlə yanaşmaq lazımdır"-dedi.

Nəticəsi olacaqmı? Bəzi məmurlar yenə də xalqa münasibətdə uçurumu dərinləşdirən metodlarla davam edirlər. Məsələn, elə keçən həftə bir sürücü üstünə benzin tökdü, özünü yandırdı. 39 yaşlı taksi sürücüsü Arzuman Hümbətov "20 Yanvar" dairəsi yaxınlığında dayanıb müştəri gözləyirmiş. Nəqliyyat Nazirliyi müfəttişlərinin özbaşınalığına dözməyib özünə od vurmuşdu. Evinə bir tikə çörək aparmaq istəyən kişini o həddə çatdırırlar ki, ehtiyat saxladığı benzini çıxarıb üstünə tökür, kibrit çəkir. Bəs, buna görə kim cəzalandırıldı? Heç kim. Üstəlik, Nəqliyyat Nazirliyi az qala həmin sürücünü günahkar çıxartdı, Sumqayıta qanunsuz adam daşıdığına görə.

Sumqayıt demişkən, bundan sonra Sumqayıt şəhərinin sakinləri paltarını qurutmaq üçün istədiyi yerdən asa bilməyəcək. Əvvəllər eyvanın qarşısından ip çəkib (zivə) paltarlarını quruda bilirdilərsə, bundan sonra qadağandır. Hətta şəhər icra hakimiyyətində bununla bağlı tədbirlər planı hazırlanıb, şəhər sakinlərinə xəbərdarlıq edilib. Hesab olunur ki, qurutmaq üçün necə gəldi asılmış paltarlar şəhərin görünüşünə ziyan vurmaqla yanaşı, həm də narahatlıq doğurur. Belə ki, binaların qarşısındakı səkilərdə piyada gedərkən insanların başına su damcılayır. Adam bu barədə xəbərdarlığı oxuyanda bir anlıq lap kövrəlir ki, "diqqət və qayğı"nın miqdarına bax. Belə çıxır ki, icra başçısı sumqayıtlıların başına su damcısının belə düşməsini rəva bilmir. Ancaq sonra da xəyala dalırsan ki, bəs sakinlərin halına yanan şəhər rəhbərliyi niyə bu sənaye şəhərində ağac qətliamlarına, sakinlərin etirazına səbəb olan tikintilərə qarşı sərt tədbir görmür? Sumqayıt rəhbərliyi bununla yenilik etmək istəyibsə də, deyəsən, unudub ki, zivədən paltar asmaq qadağası hələ 2007-ci ildən Naxçıvanda tətbiq olunur. Ancaq nə olsun, Naxçıvanda evlər nə qədər gözəl görünsə də, küçələr nə qədər təmiz saxlansa da, yenə ölkəmizin bu bölgəsi xaricdə insan haqları məsələlərinə görə qara siyahılara salınır. Sumqayıtda da əsas problem zivə deyildi.

Yaxud nə olsun ki, Nəqliyyat Nazirliyi Bakıya yeni, iritutumlu avtobuslar gətirib, bu, yenə də yollardakı vəziyyəti dəyişməyəcək. Sükan arxasında çay içən, vahid geyim qaydasına əməl etməyən sürücülərin cəzalandırılması da əsas məsələ deyil. Bəs bilmirdiniz ki, bədbəxt sürücü 150-200 manat aylığa sutkada 16 saat işləyəndə sükan arxasında çay da içəcək, telefonla da danışacaq? Neçə illərdir sürücülərə aylıq normal maaş təyin olunacağından, vahid kart sisteminə keçiləcəyindən danışılır, aparatlar quraşdırılıb, hanı nəticəsi? İcra başçıları zivədən başlayan kimi, bunlar da çay içən sürücüdən başlayırlar. Nəticədə sürücü özünə od vurur. Prezident məmurlara xalqla bir yerdə olmağı tövsiyə edir, bunlar gedib... paltar ipinə qadağa qoyurlar. Olsun, əslində normal görünmür, bəlkə də ayıbdır. Amma əsas problemlər həllini tapandan sonra. Sumqayıtdakı zivə qadağasından sonra nələr olacağını təsəvvür edə bilmirəm. Yəqin "zivə məhbusları" haqda da eşidəcəyik. Allah eləsin yanılım, zivə məsələsi də Avropaya qədər gedib çıxsa...

# Kreml "AzerRos" davasında Abbas Abbasovun tərəfini tutdu

## Söyün Sadıqov rəsmi Moskvanın bu seçiminə etiraz olaraq Rusiya Millətlər Assambleyasından istefa verdi; sabiq vitse-premyerə ittiham: "Daxili İşlər Nazirliyi əməkdaşlarının göndərilməsi Abbas Abbasovun sifarişidir..."

**Azərbaycanın baş nazirinin sabiq birinci müavini Abbas Abbasovun Azərbaycanlıların Federal Milli-Mədəni Muxtariyyəti - "AzerRos"un Ağsaqqallar Şurasının sədrliyindən uzaqlaşdırılması ilə başlayan qalmaqal davam edir. Xatırladaq ki, yanvarın 17-də "AzerRos"un fəxri sədri Söyün Sadıqovun rəhbərliyi ilə keçirilən növbədənkənar qurultayda A.Abbasovun dəstəyi ilə sədr olmuş Asif Məhərrəmov rəhbərlikdən uzaqlaşdırılıb, Ağsaqqallar Şurası sədri postu isə ümumiyyətlə ləğv edilib.**





Hələ bir müddət əvvəl "Yeni Müsavat" öz mənbələrinə istinadən yazmışdı ki, "AzerRos"un əsas strukturları A.Abbasovu dəstəkləyir və qurumun ofisi də, rəsmi saytı da onun nəzarətindədir. Xəbərdə bildirilirdi ki, Kreml məhz Abbas Abbasovun rəhbərliyində olduğu qurumun legitimliyini tanıyacaq. Çünki Abbas Abbasovun Kreml administrasiyasında dayaqları kifayət qədər güclüdür.

Yanvarın 30-da Moskvada Rusiya Millətlər Assambleyasının iclasında Abbas Abbasovla çəkişən "AzərRos"un fəxri prezidenti, Rusiya Millətlər Assambleyasının məsləhətçisi S.Sadıqov Assambleyadan getmək istədiyini bildirib. Bunun səbəbini açıqlayan S. Sadıqov qeyd edib ki, 17 yanvar tarixində keçirilmiş qurultaya Rusiyanın Federal Təhlükəsizlik Xidməti və Daxili İşlər Nazirliyinin əməkdaşları kobud müdaxilə edib. S.Sadıqov bildirib ki, Rusiya tərəfi "AzərRos"da baş verənlərlə bağlı sərt mövqe bildirməli, Azərbaycan cəmiyyətini dəstəkləməli idi. S.Sadıqov açıq söyləməsə də, aydındır ki, o, Kremlin A.Abbasova "stavka" etməsindən narazı qaldığı üçün bu addımı atıb.

"Zənnimcə, Assambleyadan getməyim hamını Rusiya ictimai həyatında tutduğu yer və apardığı rol barədə düşünməyə məcbur edəcək", deyə S.Sadıqov bildirib. Həmçinin o qeyd edib ki, öz milləti-azərbaycanlıları və vətəni Rusiyanı sevir və heç kəsə imkan verməyəcək ki, onları ələ salsınlar.

İclasında çıxış edən Assambleyanın rəhbəri Svetlana Smirnova isə bildirib ki, S.Sadıqovun istefasını qəbul etmirlər və bütün iclas iştirakçıları bu fikirdədirlər.

Moderator. az saytının xəbərində deyilir ki, iclasda iştirak edən "AzərRos"un keçmiş prezidenti Asif Məhərrəmov S.Sadıqovun rəhbərliyi ilə keçirilmiş qurultayı qeyri-qanuni adlandırıb. Həmçinin o qeyd edib ki, "AzərRos"da baş verən parçalanma prosesinin arxasında S.Sadıqovun olduğu hamıya bəllidir. A.Məhərrəmovun çıxışı iclas iştirakçıları tərəfindən kəsilib və qeyd olunub ki, S. Sadıqovun olmadığı iclasda onu müzakirə etmək qeyri-etikdir.

Sayt "AzərRos"un fəal üzvləri ilə əlaqə saxlayaraq baş verənlərə münasibət bildirmələrini xahiş edib. Onlar deyiblər ki, S.Sadıqovun rəhbərliyi ilə keçirilən qurultayın iştirakçılarına qarşı Rusiya Federal Təhlükəsizlik Xidməti və Daxili İşlər Nazirliyi əməkdaşlarının göndərilməsi Abbas Abbasovun sifarişidir. "Abbas Abbasovun şəxsi maraqlarını milli maraqlardan üstün tutduğu artıq sirr deyil. Allah Rusiya azərbaycanlılarını onun əməllərindən qorusun. Qurultaydan sonra tədbir iştirakçılarına qarşı Rusiya hüquq-mühafizə orqanlarına şər, böhtan xarakterli məktublar göndərilir, bir çoxları quldurlar vasitəsilə hədələnir", deyə onlar bildiriblər.

Qeyd edək ki, "Yeni Müsavat" Abbas Abbasovla və "Milyarderlər ittifaqı" ilə bağlı yeni sensasion bilgilər əldə edib və onu sabahkı sayımızda oxuculara çatdıracaq.

❑ Xəbər xidməti

# Saakaşvili Putinin Azərbaycana müdaxilə planından danışdı

## Qabil Hüseynli: "Saakaşvilinin haqqında danışdığı yolun açılışı Rusiyanın hərbi-strateji niyyətlərinə xidmət edir..."

**Gürcüstanın eks-prezidenti, hazırda ölkəsi tərəfindən axtarılan Mixail Saakaşvili "New Eastern Europe" portalına müsahibəsində yenidən hakimiyyətə qayıtmaq planlarından və Rusiya prezidenti Vladimir Putinin Azərbaycana qoşun yeritmək üçün tələsik yol çəkdirməsindən danışıb.**


Mixail Saakaşvili

Saakaşvili müsahibəsində deyib ki, son həftələr ərzində qəbul etdiyi bəzi qərarlar olub. Ukrayna prezidenti Pyotr Poroşenkonun ona baş nazirin müavini postu təklifinə mənfi cavab verib: "Bu postu tutmaq təklifi mənə çox cəlbedici görünürdü. Ancaq mən xeyli fikirləşdim və imtina etməyi qərara aldım. Bir tərəfdən, mən həqiqətən Ukraynaya kömək etmək istəyirəm və bacardığım qədər bunu edirəm. Digər tərəfdən, mən Gürcüstan vətəndaşlığımdan imtina edə bilmərəm, çünki Gürcüstanın özünün də köməyə ehtiyacı var. Mən tez-tez Ukraynada oluram və öz təcrübəmi ukraynalı məmurlarla bölüşürəm. Ancaq Gürcüstan siyasətində də fəal iştirak edirəm. Mən ən yaxşı təşkil olunmuş müxalifət partiyasının lideriyəm və partiyamın növbəti seçkiləri udmaq şansı var. Barəmdə qaldırılan cinayət işinə görə Gürcüstana gedə bilməsəm də onlara kömək edirəm. Əminəm ki, hələ seçkilərdən əvvəl Gürcüstana qayıda bilərəm".

Saakaşvili sonra bildirib ki, Vladimir Putin yenə də bir sıra hərbi macəralara gedəcək: "O, indi Mariupola yeni hücum hazırlayır, çalışır ki, Melitopol vasitəsilə Krıma dəhliz açsın. O, həmçinin Donetsk və Luqansk vilayətlərinin qalan hissəsini tutmaq istəyir. Bundan əlavə, Putin hazırda Tiflisə yeni hücuma başlamaq üçün Dağıstandan hərbi təyinatlı yol çəkir və həmin hərbi yol ona qısa müddət ərzində Azərbaycana da hücum etmək imkanı verir. Bəzi əlavə hərbi təxribatlar da ola bilər, məsələn, Moldovada".


Qabil Hüseynli

"Siz deyirsiniz ki, Gürcüstana və Azərbaycana hücum mümkündür. Bu ssenari nə dərəcədə ağlabatandır?" sualına sabiq prezident belə cavab verib: "Təəssüf ki, tamamilə mümkündür. Çünki "Cənub axını" dayandırılanda Avropa elan etdi ki, Azərbaycan əsas alternativ enerji mənbəyidir. Putin də bu söhbətləri eşidir. Mən fikirləşmirəm ki, o, Azərbaycanı zəbt etsin, ancaq o, nəqliyyat, rabitə və boru kəmərləri infrastrukturunu kəsə bilər. Hazırda rusların Dağıstanda çəkdiyi hərbi təyinatlı yol Gürcüstana uzanır və bu da risk amillərindən biridir. Putin bu yolun tikintisinə 3 milyard dollar xərcləyir. Əgər onun Gürcüstan hökumətinin bu yolun davamının tikintisinə imkan verəcəyinə dair qarantiyası olmasaydı, 3 milyard dolları heç vaxt xərcləməzdi. Çünki layihəyə görə yolun 16 kilometr hissəsi Gürcüstan ərazisindən keçməlidir. İkincisi, onun bilavasitə hərbi müdaxilə planları olmasaydı, bu pulu xərcləməzdi".

Politoloq Qabil Hüseynli də bildirdi ki, Saakaşvilinin haqqında danışdığı yolun açılışı, şübhəsiz, Rusiyanın hərbi-strateji niyyətlərinə xidmət edir. Amma bu niyyətləri həyata keçirmək çox çətindir. Hətta mümkünsüzdür: "Çünki hazırda Rusiyanın başı üzərində buludlar sıxlaşmaqdadır və onun özü üçün ciddi problemlər yaranmaqdadır. Məsələn, onun Avropa Şurasında üzvlüyü aprelə qədər dayandırıldı. Avropa Birliyi isə Rusiyaya qarşı sanksiyaların yeni formasını müzakirəyə çıxarıb qəbul etdi. Rusiya iqtisadiyyatında çöküş prosesi gedir. İki gün öncə Ağ Evin sözçüsü bəyan etdi ki, Rusiya ilə müharibə başlaya bilər. İndi də xəbər yayılıb ki, Con Kerri təcili Moskvaya gəlir. Ukraynada isə müharibə şiddətlə davam etməkdədir. Rusiyaya dünyaya verdiyi vədlərə xilaf çıxaraq Ukraynaya qoşun yeridib və ciddi qırğınlar törədib. Belə bir şəraitdə Qərb ölkələri, birinci növbədə ABŞ Rusiyanı müəyyən həlqəyə salmaq üçün təcili tədbirlər görməyə başlayıb. Belə bir durumda Rusiyanın Gürcüstana və Azərbaycana müdaxilə etməsi inandırıcı görünmür. Rusiyanın Dağıstandan yol çəkməsi və həmin yoldan Gürcüstan və Azərbaycana müdaxilə planları da həyata keçməmiş olaraq qala bilər. Artıq dünya Rusiyanın nazı ilə oynamaq fikrində deyil və Rusiya üçün daha radikal addımlar atmaq qərarına gəlib. Zənnimcə, Kerrinin Moskva səfərindən sonra dünyada formalaşacaq geosiyasi vəziyyət haqqında daha dəqiq fikir söyləmək olacaq".

❑ E.SEYİDAĞA

YENİ MÜSAVAT
N 23 (6051) 2 fevral 2015

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az
Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



# Müdafiə Nazirliyindən Ermənistana qəti xəbərdarlıq

**Gözlənildiyi kimi, Ermənistanın yalan dolu təbliğat maşınının Azərbaycanı günahlandıran silsilə materiallarından sonra ölkəmizə qarşı növbəti təcavüzkar cəhdləri həyata keçirildi. Ötən həftənin son günlərində Azərbaycan Ordusu düşmənin diversiya təxribat hücumunun qarşısını almaqla Ermənistana növbəti layiqli cavab verdi. Ancaq təəssüf ki, eyni gündə biz də şəhid verdik.**

**"Yeni Müsavat" olaraq Müdafiə Nazirliyindən öyrəndik ki, ötən günlərlə müqayisədə son sutka nisbətən sakit keçib. Erməni silahlı bölmələri cəbhənin müxtəlif istiqamətlərində minaatan və iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini ümumilikdə 64 dəfə pozub.**

Düşmən Ermənistanın İcevan və Berd rayonlarından, həmçinin işğal olunmuş ərazilərimizdən mövqelərimizi atəşə tutub. İtki yoxdur. Düşmənin son günlər xüsusilə aqressivləşməsinin səbəbinə gəldikdə, ümumi rəy bundan ibarətdir ki, düşmən ölkənin rəhbərliyi adətən bu kimi yollarla ictimaiyyətin diqqətini daxildən yayındırmaq üçün təxribatları çoxaldır.

Nazirliyin mətbuat xidmətinin rəhbəri Vaqif Dərgahlı bizə bildirdi ki, düşmənin iddiaları tam yersizdir: "Ermənistan əgər pilotsuz təyyarənin ona məxsus olduğunu boynuna almaq istəmirsə, almasın, bu, bizim problemimiz deyil. Biz ermənilərdən fərqli olaraq itkilərimizi gizləmirik. Onlar son günlərdə 20-dən artıq itki verib. Hələlik Qazax cəbhəsində verdikləri 6 itkinin açıqlanmasını gözləyirik".

V.Dərgahlı dedi ki, düşmən gərginliyi Azərbaycan-Ermənistan sərhədinə keçirmək istəyir və burada xüsusi məqsədin olduğu şübhəsizdir: "Ermənilərin itkilərinin çox olması faktdır, sadəcə, itkiləri tək-tək açıqlayırlar ki, ictimai etiraz doğurmasın. Düşmən o qədər azğınlaşıb ki, artıq açıq şəkildə əməliyyat keçirdiklərini, Azərbaycanın mövqelərini məhv etdiklərini bəyan edirlər. Hansı ki, belə bir şey yoxdur. İstənilən halda bu, açıq təcavüzdür. Ötən həftə artıq ikinci dəfədir monitorinqi pozmağa cəhd göstərdilər. Müdafiə Nazirliyi bir daha bəyan edir: düşmənin istənilən hərəkətinin qarşısı onu dərhal məhv etməklə alınacaq. Necə ki, Qazax zonasında da bu, baş verdi".

Yeri gəlmişkən, bir müddət öncə erməni jurnalist tam açıq şəkildə Ermənistan-Azərbaycan sərhədindəki gərginliklərə diqqət çəkib Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının (KTMT) baş katibi Nikolay Bordyujadan bu barədə soruşmuşdu. Ermənistan jurnalistinin bu ilin yanvar ayında Azərbaycan-Ermənistan qoşunlarının təmas xəttində baş verən gərginliklərə KTMT-nin niyə reaksiya verməməsi ilə bağlı sualını cavablandıran baş katib bildirib ki, həm 2014-cü ildə, həm də ondan əvvəlki illərdə münaqişə zonasında baş verən gərginliklərlə əlaqədar KTMT, o cümlədən Rusiya XİN tərəfindən bəyanatlar verilib: "Bu bəyanatlarda biz KTMT olaraq öz mövqeyimizi açıq bildirmişik. Siz istəyirsiniz ki, biz hərbi yolla reaksiya verək? Xeyr, bu, mümkün deyil və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının Nizamnaməsinə zidddir. Dağlıq Qarabağ münaqişəsinin həlli ilə ATƏT-in Minsk Qrupu məşğul olur. Həmsədr ölkələr münaqişənin sülh yolu ilə həll olunmasına səy göstərirlər".



**Vaqif Dərgahlı: "Düşmənin istənilən hərəkətinin qarşısı onu dərhal məhv etməklə alınacaq"**



**Elxan Mehdiyev: "Bu, artıq yarı müharibə deməkdir və müharibəyə keçiddir"**

Bu fakt onu göstərir ki, Ermənistan prosesə Rusiyanın, həmçinin, KTMT-nin birbaşa müdaxiləsinin həsrətindədir və son təxribatlarla da buna zəmin hazırlamaq istəyir. Ancaq son günlər Ermənistana qarşı aqressiv mövqedə olan Moskvanın buna gedəcəyi o qədər də real görünmür. Xüsusilə də AŞPA-da Rusiya əleyhinə qəbul olunan qətnaməyə Ermənistan nümayəndə heyətinin bir qrup üzvünün bitərəf qalması şəraitində şimal qonşumuz İrəvanın ikili oyun oynamasından məmnun deyil. Dövlət Dumasının spikeri Sergey Narışkinin Azərbaycan haqqında yüksək fikirlər səsləndirməsi də erməniləri pis vəziyyətdə qoyub.

*****

Siyasi təhlilçi Elxan Mehdiyev hesab edir ki, cəbhədəki gərginliyin səbəblərinə kompleks yanaşmaq lazımdır: "Ermənilər işğal etdikləri torpaqlardan dinc yolla çıxmaq fikrində deyillər. Bunu danışıqları bilavasitə aparan İlham Əliyev cənabları artıq dəfələrlə deyib. Bu işi həll etməyi boynuna götürən ATƏT həmsədrləri isə ermənilərə heç bir təsir və təzyiq etmir, əksinə, son zamanlar onların tərəfini tutur. Hansı ki, ortada BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsi var".

E.Mehdiyevin qənaətincə, erməni tərəfi çalışır ki, atəşkəs daimi qalsın və Azərbaycan tədricən bu torpaqları unutsun: "Azərbaycan isə düşmənə rahatlıq verməmək haqqında düşünür. Digər tərəfdən, erməni tərəfi ön cərgədə əsgərlərinin sayının az olmasına görə hər zaman bizim səngərlərə qarşı atəş açır. Bununla öz gücünü göstərmək istəyir və Azərbaycan əsgərləri də cavab atəşi açır və beləliklə, atəşkəs rejimi pozulur. Hər zaman yox, amma çox zaman belə olur. Ölüm olduğu zaman isə tərəflər əvəz çıxmağa çalışırlar və kim daha ayıq olursa, o da az itki verir. Son zamanlar bizim əsgərlər daha sərrast və bacarıqlı olduğundan düşmən ağır itkilər verir. Bundan qəzəblənən Sərkisyan artıq Azərbaycan postlarını və yaxınlıqdakı hərbi obyektlərini dağıtmaq əmri verib. Bu, artıq yarı müharibə deməkdir və müharibəyə keçiddir. Ona görə də Azərbaycan hərbi komandanlığı indi başqa planlar qurmalıdır".

2014-cü ildə Ermənistandan qayıtmamaq şərtilə 47 min adam baş götürüb gedib. Ermənistan KİV-nin məlumatına görə, bu haqda Milli Statristika Xidməti (MSX) məlumat yayıb. Bu göstərici 2013-cü illə müqayisədə 5 min, yaxud demək olar, 12 faiz çoxdur. Beləliklə, Serj Sərkisyanın 7 illik idarəçilik müddətində, rəsmi məlumatlara görə, Ermənistandan 330 min adam mühacirət edib. Qeyri-rəsmi məlumata görə, bu göstərici 380 minə çatır. Bütün bunlar Sərkisyan rejiminə qarşı nifrəti çoxaldır. Rejim isə çıxış yolunu lokal müharibələrdə görür. Nəinki Sərkisyan əleyhinə, hətta qondarma rejimin hökmranlığına qarşı da etirazlar çoxalır. "Rejimsiz 100 il" hərəkatı 31 yanvarda yürüş keçirməyə qərar verib. Lakin separatçı rejimin nümayəndələri 43 avtomobildən ibarət maşın karvanının işğalda saxladıqları Azərbaycan şəhəri Şuşaya girişinin qarşısını alıb. Məlumata görə, maşın karvanı ərazidəki yüksəkliyə yaxınlaşdıqda mülki geyimli, üzü maskalı silahlı şəxslər və yüzlərlə polis onlara hücum edib. "Jirayr Sefilyan və digərləri maşınlardan düşərək silahlı şəxslərlə danışmağa cəhd edib, lakin bu an əraziyə gələn yüzlərlə polis və hərbçi maşınlarda olan qadın və uşaqları döyməyə və daşqalaq etməyə başladı. Onlar bizi təhqir edərək, maşından çıxarmağa çalışırdılar. Maşınlarda olanların telefonlarını, sürücülərdən avtomobillərin açarlarını götürdülər. Belə bir şey heç martın 1-də də olmamışdı, bu 1 mart hadisələrinin daha kobud təkrarı idi. Jurnalist Anuşav Şahnazaryan hazırda xəstəxanaya aparılır. O, baş nahiyəsindən xəsarətlər alıb, başdan-ayağa qan içindədir", deyə hərəkat üzvü Süzan Simonyan bildirib.

# Rəsmi Bakı girovlarla bağlı hərəkətə keçdi

## Kəlbəcərli girovların məsələsi BMT-də də qaldırıldı



**Azərbaycan Respublikasının BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyev yanvarın 30-da BMT Təhlükəsizlik Şurasının silahlı münaqişələrdə dinc vətəndaşların müdafiəsi məsələsinin müzakirəsinə həsr edilmiş 7374-cü iclasında çıxış edib (AzərTAc).**

Y.Əliyev Ermənistanın Azərbaycana qarşı təcavüzü və Azərbaycan ərazilərinin erməni silahlı qüvvələri tərəfindən hərbi işğalının davam etməsi faktını vurğulayaraq bildirib ki, Azərbaycanın üç vətəndaşı - Həsən Həsənov, Şahbaz Quliyev və Dilqəm Əsgərovla bu hüququn normalarına uyğun olmayan rəftar beynəlxalq humanitar hüququn pozulmasına aid ən son nümunədir. O, iclas iştirakçılarına azərbaycanlı girovların işi və onların hüquqlarının erməni işğalçı qüvvələri tərəfindən pozulması ilə bağlı faktlar təqdim edib. vurğulayıb ki, Həsən Həsənov erməni hərbi qulluqçuları tərəfindən 2014-cü il iyulun 11-də öldürülüb, lakin onun cəsədi Azərbaycan tərəfinə yalnız 2014-cü il oktyabrın 2-də Beynəlxalq Qırmızı Xalq Komitəsinin köməyi ilə təhvil verilib. Digər iki girov - Şahbaz Quliyev və Dilqəm Əsgərov uydurma təxribatlarda ittiham edilərək Azərbaycanın işğal olunmuş ərazilərindəki həbsxanaya salınıb. Y.Əliyev iclas iştirakçılarına müraciətlə qeyd edib ki, bu mülki şəxslər öz ərazisində və Azərbaycan Respublikasının beynəlxalq aləmdə tanınmış sərhədləri daxilində girov götürülüb və Azərbaycan Respublikasının qanunlarından başqa heç kəs və heç nə Azərbaycan vətəndaşlarının öz ərazisində sərbəst yerdəyişməsini məhdudlaşdıra və ya qadağan edə bilməz. O vurğulayıb ki, Ş.Quliyev və D.Əsgərovun üzərində qondarma məhkəmə prosesi və çıxarılan hökm qanunsuzdur.

Sonda Y.Əliyev insan hüquqlarının müdafiəsi üzrə bütün müvafiq beynəlxalq təşkilatları bu məsələyə müdaxilə etməyə, nə qədər ki, gec deyil, nə qədər ki, bu dinc vətəndaşlar sağdır, onların həbsdən azad olunmasına kömək etməyə çağırıb.

Qeyd edək ki, erməni girovluğunda olan şəxslərlə bağlı cinayət işinin istintaqını Azərbaycanın Baş prokuroru xüsusi nəzarətə götürüb. "Güman edirəm ki, beynəlxalq qurumlar qaldırılan cinayət işi ilə əlaqədar ədalətli qərar qəbul edə biləcəklər". "Trend"in məlumatına görə, bu barədə Baş nazirinin müavini Əli Əhmədov ermənilərin Kəlbəcərdə girov götürdükləri azərbaycanlılar və qətlə yetirilmiş Həsən Həsənovla bağlı Avropa Məhkəməsinə edilən müraciətə və H.Həsənovun qətlə yetirilməsi ilə bağlı Kəlbəcər rayon prokurorluğunun qaldırdığı cinayət işinə münasibət bildirərkən deyib.

YENİ MÜSAVAT
N 23 (6051) 2 fevral 2015



# `Nüşabə Ələsgərli fahişəliyə görə tutulan prodüserin müdafiəsinə qalxdı

## "Vəfanı ləkələməyin, o, namuslu xanımdı"

**Prodüser Vəfa Vaqifqızının həbsi qalmaqala səbəb olub. Onunla birgə işləyən müğənnilərin əksəriyyəti prodüser barəsində danışmaqdan çəkiniblər. Bir müddət onunla birgə çalışan, Türkiyəyə alver məqsədilə birlikdə səfərlər edildiyi deyilən müğənni Kərim Abbasov da danışmaqdan imtina edib. Bu barədə onun köməkçisi Məmməd (özünü belə təqdim etdi) "Yeni Müsavat"ın əməkdaşına bunları söyləyib: "Birlikdə Türkiyəyə alverə getməkləri doğrudur, lakin bu, keçmişdə olub. Sonralar Kərim Abbasovla Vəfa Vaqifqızı arasında münasibət "salam-sağ ol"dan o yana keçməyib. Bu səbəbdən müğənni onun barəsində heç nə danışmaq istəmir".**

Müğənni Nazənin prodüser haqqında eşitdiklərinə inanmadığını deyib: "Onun belə bir hərəkət edəcəyini ağlıma belə gətirməmişəm. Ümumiyyətlə isə onunla az müddətdə, yəni iki ay birlikdə işləmişik. Buna görə onun xarakteri barəsində heç nə deyə bilmərəm. Vəfa xanımla daha çox Nüşabə Ələsgərli işləyib".

Əməkdar artist Nüşabə Ələsgərli isə jurnalistləri Vəfa Vaqifqızını "ləkələmək"də günahlandırıb: "Jurnalistlərə səslənib deyirəm ki, bu haqda yazmasınlar. İstintaq gedən bir məsələni yazmaq olmaz, gözləyin haqqında olan ittiham dəqiqləşsin, sonra yazarsınız. Bu cür yazmaq insanı ləkələmək deməkdir".

Əməkdar artist iki il birgə işlədiyi prodüserin tərəfini saxlayıb. Onun xarakteri haqqında danışarkən "Vəfa namuslu, qeyrətli, ağıllı-kamallı xanımdır" söyləyib: "Vaxtilə Space telekanalında yayımlanan bir verilişdə mənim prodüserim olub. Biz uzun müddət bir yerdə işləmişik. Çox da yaxşı xanımdır, ondan belə şeylər gözləmirəm". Daha sonra müğənni dediklərinin əksinə olan fikir səsləndirib: "Onunla 10 il bundan əvvəl işləmişik. İndi nə bilim nə işlə məşğuldur?!"

Xatırladaq ki, prodüser Vəfa Vaqifqızı qadınları fahişəliyə cəlb etməkdə şübhəli bilinərək həbs edilib. Nərimanov Rayon Məhkəməsinin qərarına əsasən, prodüser xanım barəsində iki aylıq həbs qətimkan tədbiri seçilib. O, Bakı İstintaq Təcridxanasına göndərilib.

Qeyd edək ki, Vəfa Vaqifqızı bir neçə məşhur müğənninin, həmçinin Lider, Space telekanallarında yayımlanan ma-



qazin verilişlərinin prodüseri olub.

❑ **Xalidə GƏRAY**

# Bakıda satıcı qızlar mağaza sahibini döydülər

**Bakıda mağaza sahibi satıcılarından polisə şikayət edib. Lent.az-ın verdiyi məlumata görə, ərizə ilə 9-cu Polis Bölməsinə müraciət edən Türkiyə Respublikasının vətəndaşı, 1983-cü il təvəllüdlü Göküş Neslihan Yaşar qızı bildirib ki, sahibi olduğu mağazanın satıcıları ona qarşı xuliqanlıq edib.**

Şikayətçi qeyd edib ki, Rəsulzadə küçəsi 5 ünvanında yerləşən "Bambi" ayaqqabı mağazasının müdiridir. Bir neçə gün əvvəl mağazada onunla satıcıları - 1992-ci il təvəllüdlü Teymurova Mətanət Ədalət qızı və 1991-ci il təvəllüdlü Əhmədova Nigar Vidadi qızı arasında narazılıq yaranıb. Bu zaman hər iki satıcı mağaza müdirini döyüblər. Şikayətçinin sözlərinə görə, satıcılar piştaxtaları sındıraraq ayaqqabıları yerə dağıdıblar.

# Azərbaycanın kredit reytinqi təhlükədə

## Ekspertlər bunun baş verməməsi üçün hökumətin zəruri addımlar atmalı olduğunu deyir, təkliflər də var...

**Azərbaycanın kredit reytinqi ilə bağlı problem proqnozlaşdırılır. Belə ki, reytinq agentliklərindən biri olan "Standard and Purz" (Standard and Poor's) Azərbaycanın beynəlxalq kredit reytinqini investisiya səviyyəsində ("BBB-") saxladığını təsdiq edib. Aparıcı üç beynəlxalq kredit reytinq agentliyindən biri olan "Standard and Purz"un yayımladığı hesabatda reytinqin təsdiq edilməsi Azərbaycanın çox möhkəm fiskal və xarici mövqeyə (aktivlərə) sahib ölkə kimi xarici borc səviyyəsinin xeyli aşağı olması ilə əsaslandırılır.**

Agentliyin press-relizində qeyd olunur ki, dünya bazarlarında neft qiymətinin kəskin aşağı enməsinə baxmayaraq, Azərbaycan növbəti illər ərzində də möhkəm xarici mövqeyini qoruyacaq. Karbohidrogen ehtiyatları satışının böyük payı olduğu cari əməliyyatlar (current account) hesabında azalma etimalı olsa da, o, nəticə etibarilə müsbət səviyyədə qalacaq. Orta müddətdə neft hasilatının sabitləşməsi ərəfəsində, Cənub Qaz Dəhlizi boru kəmərinin və Şahdəniz II qaz yatağının işə salınması iqtisadi inkişafı və xarici valyuta gəlirlərinin artımını təmin edəcək.

Ancaq reytinq üzrə proqnoz sabit səviyyədən mənfiyə endirilib. Reytinq agentliyi bunu dünyada neft qiymətlərinin kəskin enməsinin Azərbaycanın mövcud fiskal və xarici mövqeyinin, qabaqlayıcı tədbirlər atılmayacağı təqdirdə, mümkün zəifləməsinə gətirib çıxara biləcəyi ilə izah edir.

Bəzi ekspertlərsə bildirirlər ki, bu gün Avropa və bir sıra digər ölkələrdə davam edən maliyyə və iqtisadi tənəzzül, habelə neftin qiymətinin kəskin şəkildə aşağı düşməsinə baxmayaraq, "Standard and Purz" tərəfindən Azərbaycana əvvəllər daha münbit iqtisadi şəraitdə verilmiş investisiya səviyyəli "BBB-"da saxlaması ölkə iqtisadiyyatının dayanıqlıq potensialını nümayiş etdirir. Eyni zamanda, Azərbaycan MDB məkanında "Standard and Purz"un investisiya kredit reytinqini qorumuş iki ölkədən biri olaraq qalır. Bundan başqa ölkəmiz "Mudız" (Moody's) və "Fic Reytingz" (Fitch Ratings) beynəlxalq kredit reytinq agentliklərindən investisiya səviyyəli kredit reytinqlərinə malikdir.

Yerli ekspertlər bildirirlər ki, Azərbaycanın kredit reytinqinin aşağı salınması ehtimalı böyükdür. İqtisadçı Samir Əliyevin sözlərinə görə, bunun baş verməməsi üçün hökumət zəruri addımlar atmalıdır: "Məsələ ondan ibarətdir ki, Azərbaycanın reytinqi "Standard and Purz" tərəfindən sabit saxlanılsa da,



problem də qeyd edilir. Qeyd edilir ki, proqnoz olaraq bu səviyyə aşağı, neqativə salına bilər. Söhbət qeyri-investisiyadan gedir. Azərbaycanın proqnoz göstəriciləri "BBB-" qiymətləndirilir. Bu, o deməkdir ki, hökumət bir sıra addımlar atmalıdır. Əgər neft aşağı səviyyədə qalarsa, bu, problem yaradır və Azərbaycan bununla bağlı qabaqlayıcı addımlar atmalıdır. Azərbaycan hökuməti zəruri addımlar atmazsa, Rusiyada olduğu kimi, Azərbaycanın da reytinqi aşağı salına bilər. Söhbət ondan gedir ki, ölkənin reytinqinin aşağı salınması onun investisiya baxımından cəlbediciliyini aşağı salır. Bizdə investisiya əsasən dövlətindir, daxili investisiyadır. Yetmiş faizə yaxını daxili investisiyadır ölkədə, xarici investisiya azdır, 30 faizdir. Kredit reytinqinin aşağı salınması ölkəyə gələn investisiyaların da azalmasına səbəb ola bilər. İndi investisiyaya daha çox ehtiyacımız var. Xüsusən neft gəlirləri azaldığından, ölkənin kənar investisiya ehtiyacı daha da artır. Ona görə əgər gələcəkdə belə hal baş verərsə, bu, Azərbaycan iqtisadiyyatı üçün problemlər yarada bilər. Ona görə hökumət bu istiqamətdə düşünməlidir. Ölkə iqtisadiyyatının neft gəlirlərinin asılılığını azaltmalıdır. Bunun da yolu təbii ki, qeyri-neft sektorunun inkişafına nail olmaqdır".

Ekspert Natiq Cəfərli isə qeyd edir ki, sözügedən hesabatın Azərbaycanla bağlı bölümündə bir məsələ də var ki, reytinq səviyyəsi keçmiş səviyyədə saxlanılıb: "Yəni investisiya səviyyəsində saxlanılıb, amma görünüm neqativə çəkib, gözləntilər neqativə qədər endirilib. Bu da Azərbaycanda neft qiymətlərinin aşağı düşməsi ilə əlaqədar yaşana biləcək problemlərlə izah olunur. Yəni "Standard and Purz"un press-relizində bu barədə geniş yazılıb. İkinci məsələyə gəldikdə isə, təbii ki, Azərbaycanın borcu qonşu ölkələrə və Avropa ortalamalarına görə, görə çox aşağı səviyyədədir. Ümumdaxili məhsulun cəmi 7-8 faizi civarındadır. Bəzi ölkələrdə bu, həddindən artıq çoxdur. Ən çox problemli ölkələrdən olan Yunanıstanın ümumdaxili məhsulun az qala 70-80 faizi səviyyəsində borcu var. Yəni bu nisbətdə götürdükdə, təbii ki, Azərbaycanın xarici borcu digər ölkələrə nisbətən ümumdaxili məhsulun həcminə görə hesabladıqda aşağı səviyyələrdədir. Bu da ölkənin investisiya üçün cəlbedici olma ehtimalını yüksəldir".

Ancaq ekspert qeyd edir ki, sadəcə Azərbaycanda investisiyalar qoyularkən, bu tipli reytinq agentliklərinin hesabatından başqa digər hesabatlara da üstünlük verirlər: "Azərbaycan çalışmalıdır ki, investisiya üçün cazibəli ölkə olmaq üçün başqa hesabatlarda neqativ olan yerini düzəltsin. Söhbət korrupsiya ilə, inhisarçılıqla bağlı olan yerlərdə Azərbaycanın mövqeyindən gedir. Yəni bu tipli reytinqlərdə, hüquq məsələlərində mülkiyyətin toxunulmazlığı məsələsində Azərbaycanın beynəlxalq reytinqlərdə mövqeyi də vacibdir. Yatırımçı üçün əsas bu məsələlərdir. Hər hansı bir ölkəyə yatırım qoymazdan öncə bu tipli şirkətlərlə yanaşı, digər reytinqlər də öyrənilir. Bu məsələlərdə Azərbaycan daha ciddi islahatlar aparmalıdır ki, investisiya cəlbediciliyini artırsın. Məhz makroiqtisadi göstəricilərə görə reytinqi ölçürlər. Uzun illərdir ki, Azərbaycan investisiya qoyula biləcək ölkə idi, görüntü də pozitiv idi. Neft qiymətlərindən sonra reytinq qalsa da, görünüm neqativə doğru çəkilib. Bu, heç də yaxşı siqnal deyil. Gələcəkdə reytinqin dəyişə biləcəyi haqqında öncədən verilmiş bir xəbərdarlıqdır. Amma makroiqtisadi göstəricilərə gəldikdə, digər ölkələrə nisbətən Azərbaycanda vəziyyət yaxşıdır. Hələ ki, Azərbaycanda vəziyyət o qədər kritik həddə deyil, digər ölkələrə nisbətən daha yaxşı vəziyyətdədir. Amma artıq birinci rübün, ya yarımilliyin nəticələrinə görə, həmin reytinq agentliyi yenidən reytinqə baxa bilər. Neftin qiymətindən asılı olaraq Azərbaycanda ümumdaxili məhsulun artım tempini, borclanma səviyyəsini ölçəcəklər. Ola bilər ki, bu il ərzində Azərbaycanın reytinqində pis yöndə dəyişikliklər baş versin".

❑ **Röya RƏFİYEVA**

# SOS: Azərbaycana qonşu ölkədə Ebola!

Rusiyada ölümcül virus daşıyıcısı olan şəxs xəstəxanaya yerləşdirilib; **Adil Qeybulla:** "Müvafiq strukturlar bu məsələyə ciddi yanaşmalıdır..."

**Rusiyadan gələn Ebola xəbəri Azərbaycanda böyük narahatlıq yaradıb. Məlumata görə, qonşu dövlətdə bir nəfər ölümcül virusa yoluxmaq şübhəsi ilə xəstəxanaya yerləşdirilib. Həmin şəxs Beynəlxalq Qırmızı Xaç Yardım Cəmiyyətinin bir müddət Seneqal və Qvineyada işləmiş əməkdaşıdır.**



Azərbaycan ilə Rusiya arasında böyük ticarət, siyasi və digər sahələrdə geniş əlaqələrin olduğunu nəzərə alsaq, adı çəkilən virusun hər an ölkəmizə də gəlib çıxmasını təxmin eləmək olar. Bəs, Azərbaycan bu təhlükəyə qarşı nə dərəcədə hazırlıqlıdır?

Məsələ ilə əlaqədar qəzetimizə danışan tibb elmləri doktoru, professor Adil Qeybulla faktın Azərbaycana ciddi təhlükə olduğunu dedi. Onun sözlərinə görə, müvafiq strukturlar bu məsələyə ciddi yanaşmalıdır:

"Hesab etsək ki, Rusiya ilə olan sərhədlər, demək olar, şəffafdır, viza qadağası belə yoxdur, Azərbaycan üçün də böyük təhlükə var. Bir vaxtlar Rusiyada vərəmin tolerant, yəni ən ağır, sağalmayan forması ortaya çıxdı. Orda yaşayan azərbaycanlılarımızın vasitəsilə bu xəstəlik ölkəmizə də ayaq açdı. Hal-hazırda bu xəstəliyə tutulanların sayına görə Azərbaycan dünyada birinci yerdədir. Hətta azyaşlı uşaqlar belə bu xəstəlikdən əziyyət çəkir. Belə bir faktı nəzərə alaraq rəsmi strukturlar Ebola virusunun ölkəmizə gəlməsinin qarşısını almaq üçün təxirəsalınmaz işlər aparmalıdır".

Qeyd edək ki, bir ara ekspertlər bildirirdilər ki, Ebola virusuna yoluxma halı Azərbaycan üçün aktual və təhlükəli deyil. Buna səbəb kimi də adı çəkilən virusun daşıyıcısının və virusun yayılması üçün lazım olan



Adil Qeybulla

mühitin ölkədə olmamasını göstərirdilər. Lakin qonşu Rusiyada virusun aşkar edilməsi bu fikrin üzərindən xətt çəkmiş oldu.

Xatırladaq ki, ötən ilin avqust ayında Azərbaycanda Ebola virusu xəstəliyinin qarşısını almaq üçün tibb idarə və müəssisələrinin, gigiyena və epidemiologiya mərkəzlərinin rəhbərlərinə xüsusi tapşırıqlar verilib. Bu barədə ölkənin baş sanitar həkimi Abbas Vəlibəyov xüsusi əmr də imzalayıb. Əmrdə xəstəliyə şübhəli bilinən şəxslərin dərhal təcrid edilməsi üçün şəraitin yaradılması, əsas simptomatik müalicəvi preparatların, dezinfeksiyaedici maddələrin tükənməyən ehtiyatının yaradılması, tibb müəssisələrində əks-epidemik və dezinfeksiya tədbirləri üzərində nəzarətin gücləndirilməsi, dezinfeksiya rejiminə ciddi riayət edilməsi, Ebola virusuna yoluxmada şübhəli bilinən şəxsin dərhal hospitallaşdırılması üçün şəraitin yaradılması, sərhəd keçid məntəqələrində fəaliyyət göstərən gömrük orqanları ilə əlaqə yaradaraq Ebola virusu yayılmış ölkələrdən gələn vətəndaşlar üzərində tibbi müşahidənin təmin edilməsi üçün şəraitin yaradılması, əhali arasında maarifləndirmə işinin gücləndirilməsi və s. bu kimi xüsusi qabaqlayıcı tədbirlərin görülməsi əlaqədar əlaqədar qurum rəhbərlərinə tapşırıq verilib.

Ölkəmizdə bu virusdan şübhələnənlər üçün 30-32-13 nömrəli "qaynar xətt" də yaradılıb və 24 saat ərzində vətəndaşlara xidmət edir. Hərarəti yüksək olan, Ebola virusundan şübhələnən və bundan narahatlıq keçirənlər "qaynar xətt"ə müraciət edə bilərlər.

Statistik məlumata görə, indiyədək Ebola virusuna 22,1 min insan yoluxub. Onların 8,8 min nəfəri dünyasını dəyişib. İtkilərin sayına görə Liberiya öndədir - 3700 nəfər. Syerra-Leonedə 3200, Qvineyada isə 1900 insan adı çəkilən virusdan dünyasını dəyişib.

Öldürücü virus 2014-cü ilin fevral ayında Qərbi Afrika ölkələrində aşkarlanıb. Xəstəliyə yoluxanların demək olar ki, 90 faizi dünyasını dəyişib. Xəstəlik təkcə yoluxmuş heyvanlar vasitəsilə deyil, insandan insana da yoluxa bilir.

❑ Xalidə GƏRAY

# Baş prokurorun 1-ci müavini öldürülən məhkumun bacısını qəbul etdi

**Simuzər Babayeva:** "Qardaşımı öldürən şəxslərin ictimaiyyətin gözü qarşısında cəzalandırılmasına nail olacağam..."

**14 saylı cəzaçəkmə müəssisəsində dünyasını dəyişmiş məhkum Elşad Babayevin bacısı Simuzər Babayevanı baş prokurorun 1-ci müavini Rüstəm Usubov qəbul edib. S.Babayeva deyib ki, qəbulda Baş Prokurorluğun İstintaqa Nəzarət şöbəsinin rəisi Nazim Abbasov, Bakı Şəhər prokurorunun müavini Azər Əsgərov və Qaradağ Prokurorluğunun müstəntiqi Eyyub Bəşirov iştirak ediblər:**

"Mən Rüstəm Usubovu dinlədim. Dedi ki, yanvarın 10-da iş üzrə 309-cu (vəzifə səlahiyyətlərini aşma) maddəsi ilə cinayət işi başlayıblar. Gördükləri işlərdən danışdı. Dedim ki, o maddə ilə cinayət işinin araşdırılması ilə razı deyiləm. Qardaşım döyülərək öldürülüb və Cinayət Məcəlləsinin qəsdən adam öldürmə(120) maddəsi ilə cinayət işi başlayıb onu öldürənlər cəzaya çatdırılmalıdır. Mənim qardaşımı dekabrın 13-də vəhşicəsinə döyüblər. Dekabrın 22-nə qədər onu ac-susuz saxlayıblar, həkim çağırmayıblar. Qardaşım aldığı xəsarətlərdən ölüb. Əgər



Rüstəm Usubov



Elşad Babayev

bunu mən adi bir vətəndaş qavraya bilirəmsə, deməli sizlər də bunu yaxşı qavrayırsınız. Bu sizin ilk işiniz deyil ki, kənardan kiminsə fikrinə ehtiyacınız olsun".

S.Babayeva bildirdi ki, R.Usubov istintaqın gedişatı ilə bağlı ona məlumat veriləcəyini söyləyib: "Bu hadisədən sonra cəzaçəkmə müəssisəsindən azad olunan vəkil Qurban Məmmədovun niyə dindirilmədiyini soruşdum. Müstəntiqə tapşırıldı ki, çağırılıb ifadəsi alınsın. Rüstəm Usubov müvafiq göstərişlər verdi. Mən qardaşımı öldürən şəxslərin ictimaiyyətin gözü qarşısında cəzalandırılmasına nail olacağam. Mən geri çəkilən deyiləm".

Qeyd edək ki, dekabrın 30-da 14 saylı cəzaçəkmə müəssisəsindən əfv fərmanına əsasən azad olunan Q.Məmmədov E.Babayevin döyülərək öldürüldüyü haqda mətbuata açıqlama verib. Deyib ki, dekabrın 22-də səhər 9 radələrində cəzaçəkmə müəssisəsinə 1 dustağın döyülərək öldürülməsi haqda xəbər yayılıb. "Bu hadisəyə etiraz oldu. Təəssüf ki, məhkumlar etiraz hüquqlarından kənara çıxdılar. Növbətçi hissəyə hücum oldu, nəzarətçilər döyüldü. Eşitdiyim, bildiyim məlumatlar var. Bu cinayət ört-basdır edilə bilməz. Bəli, orada qanun pozulub. Lakin bu 1 məhbusun döyülərək, işgəncə verilərək öldürülməsinə görədir. Dövlət buna diqqət etməlidir. Yəni məhbuslar orada etiraz vəziyyəti yaratmaq istəyi ilə qalxmayıblar. Ona görə də etiraza qalxan məhbuslara münasibətdə dövlət humanist olmalıdır", - deyə Q.Məmmədov bildirib.

Q.Məmmədov qeyd edib ki, etirazdan sonra 11 dustaq Vərəmli Məhkumlar üçün Müalicə Müəssisəsinə köçürülüb. Qalanları isə 14 saylı cəzaçəkmə müəssisəsinin karsındadır: "Tubzon"dan qayıdanlar orada dəhşətli hadisələrin yaşandığını danışırlar. Bu məsələ ictimaiyyətin diqqətində olmalıdır. Ora ictimaiyyət nümayəndələrinin iştirakı ilə baxış keçirilməlidir. Məhkumlar Araz Quliyev, Miryusif Seyidovun ağır durumda olduğu bildirilir. Ora gedib araşdırma aparılmalıdır. Onlar ölüblər, yoxsa qalıblar, müəyyən olunmalıdır".

Əlavə edək ki, dekabrın 22-də 14 saylı cəzaçəkmə müəssisəsində məhkumlar qiyama qalxıb. Buna səbəb isə məhkum Elşad Babayevin karsda (cəza kamerası) işgəncə ilə öldürülməsi olub. Öldürülən məhkumun yaxınlarının təqdim etdikləri fotolarda E.Babayevin bədəni üzərində çoxsaylı xəsarətlərin olduğu aydın görünür.

❑ E.MƏMMƏDƏLİYEV

# "Axı ailəm dağılır..."



Sevinc TELMANQIZI
s.qurbanova@gmail.com

**Azərbaycan insanı ən çox standart anlayışından əziyyət çəkir. Nəyin normal, nəyin anormal olması barədə dəruni düşüncələrə qərq olanda hər zaman yolunu azır, büdrəyir, bir də görür ki, palçığın içindədir. Ötən həftə kriminal yazarımız Elşən Ədliyyə Nazirliyi Penitensiar xidmətin 4 saylı cəzaçəkmə müəssisəsinin sabiq rəisi Müzəffər Məmmədovdan müsahibə alanda dərk etdim bu həqiqəti. Adamın yaşı dirənib 65-ə, Lamiyə Quliyeva söhbətinə görə bütün Azərbaycan ondan danışır. Qanunsuzluq, rəzillik, insan günahının alınması... faktı xirtdəyə çıxıb. Amma onun səsində bir çarəsizlik var.. Başqa bir şeyin çarəsizliyi: "Ay oğul, mənim 65 yaşım var. Axı bu söz-söhbətə görə ailəm dağılırE" Tamam, ailə müqəddəsdir, toxunulmazdır, dönməzdir, əbədidir, amma... Bu boyda həngamədə insanı nigaran qoyan şey doğrudanmı həyat yoldaşının qısqanclığı, başında qoz sındırması ola bilər? Bir insan həyatı sönüb gözünün qabağında. Yaxşı, hesab etdik ki, bunun günahı yoxdur, bəs bu məsələdə doğrudanmı iştirakı, rolu, necə deyərlər, barmağı yoxdur? Quş uçmaz, karvan keçməz yerdə bir məhbus qadının başına olmazın hadisələrin gəlməsində, hamilə qalmasında türmə rəisi heçmi günahkar deyil? Siz nəyi qoyub, nəyi axtarırsız, sabiq rəis?**

Əslində Müzəffər Məmmədovun evində böyük qalmaqal qopmasına, bu yaşda ailəsinin dağılma həddinə çatmasına da inanıram. Çünki Azərbaycan qadınını tanıyıram. Bizim qadınlar ərinə hər şeyi bağışlayır: evə haram pullar gətirməsini də, o pula görə başqalarının qabağında əyilməsini, sınmasını da, məzlum insanların qanını içməsini də... Bircə "hin"ə yad toyuq girməsin, əsas məsələ budur. Sabiq rəisin xanımını tanımıram, amma əminəm ki, əri ona dəyəri neçə min dollar olan xəz dəri alanda heç "bax, boşanaram haa, bu maaşla bu nə şubadır mənə almısan" deməyib. Düşünməyib ki, bu, neçə-neçə məhbus ailəsinin göz yaşı, boğazından kəsib verdiklərinin hesabına alınıb. Xaricə kurortlara gedəndə, bahalı-bahalı maşınlarda gəzəndə ailəlikcə kimin vəbalını aldıqları barədə narahat olmayıb. Eləcə "al" deyib, "gətir" deyib, "başqalarından nə əskiyim var" deyə divan tutub evində. Bəlkə də konkret adını çəkdiyimiz şəxsin xanımı etməyib, amma əlinə beş qəpik pul düşən bütün kişilərin həyat yoldaşları bunu edir. Qızıl balıq tutan balıqçının qarısı kimi. Arzuları bitmir, istədikcə istəyir, balıq abrına qısıldıqca o, həyasızcasına tələb edir. Və hər zaman təkrarladığım o həqiqət: hər bir korrupsioner kişinin arxasında inanın ki, bir tamahkar qadın var. Qadın deyinməsi, şikayətlənməsi, insana qan uduracaq həddə tələbkarlığı... qarşısında isə hər kişi davam gətirə bilmir. Elə bilirsiz, "mən sabun bişirməyəcəm" deyən Cəbiş müəllimlər qalıb Azərbaycanda? Yox, yaxşı kişilər yaxşı atlara minib çoooxdan tərk ediblər bu diyarları...

Yaxşı insan demiş, o gün gənc karikaturaçı Gündüz Ağayevdən bir müsahibə götürdüm. Səhəri gün qocaman karikaturaçılardan biri zəng edib, "ayıb deyilmi, o, sənəti bilmir, kimdir ki, ondan müsahibə götürürsüz" tipli sitəm etdi. Bu sənəti mən bilirəm, ancaq mən danışa bilərəm, ölkədə siyasi karikaturaçılara hər hansı təzyiq yoxdur-filan... "Tamam" dedik, "haqlısız" söylədik. Danışmaq istəyirsizsə, sizinlə görüşək deyə görüş yeri və saatı təyin etdik. İki gün dalbadal... vədəmiz pozuldu, qarşı tərəf ucbatından. Bir dəfə iclası çıxdı, o biri gün təxirəsalınmaz işi.. Və müsahibə baş tutmadı. Təbii ki, bunun bəhanə olduğunu bilmək üçün "Yeni Müsavat"da 14 il işləmək kifayətdir. Biz nə aslan kimi kükrəyib, diktafon görəndə arxasına baxmadan qaçanlar gördük. Amma bu hekayə mənə yazının girişində dediyim o norma söhbətini xatırlatdı. Bəli, mənə görə Gündüz Ağayev müasir Azərbaycanda siyasi karikatura sahəsinin parlaq nümayəndələrindəndir. Son bir neçə ildə elə aktual hadisə olmayıb ki, bu adam onunla bağlı operativ şəkildə karikatura qoymasın ortaya. Benzin qiymətinin artımı, ayrı-ayrı iqtidar nümayəndələrinin sərsəmləmələri, mitinqlər... Gözümü yumuram, bütün mənzərələr yadıma düşür. Mən, sıravi oxucu, jurnalist bunları xatırlayıramsa, deməli ki, bu adamı müasir karikaturanın parlaq simalarından saymaq olar da. Əgər özünü qocaman karikaturaçı adlandıran şəxsin ölkənin bütünlüklə karikaturaya çevrildiyi bir ərəfədə çəkib ortaya qoyacağı bir nümunəsi yoxsa, nədən danışırsız? Burnunda 20 il öncənin qoxusu ilə "bizim vaxtımızda...." sayaq cümlələr qurmaq nəyi dəyişdirir? Dünən gördüyün işə görə sağ ol, bu günkünə görə cavab ver...

Kəsəsi, norma deyirəm, menzurka deyirəm, standart deyirəm... Lənət şeytana, azca da insafınız olsun deyirəm...

# Hövsan aksiyasında iştirak edən sakinlərə təzyiqlər başlayıb

**Qəsəbə sakini Azad Həsənov:** "Görünür, məktəb direktoru Qardaşxan Səlimovu qorumaq üçün diqqəti yayındırmağa çalışırlar"



**Yanvarın 28-də Hövsan qəsəbəsinin icra nümayəndəsi Ağasəlim Əliyevin şikayəti əsasında 118 saylı məktəbin direktoru Qardaşxan Səlimova qarşı keçirilən aksiyada fəal iştirak edən gənclər Suraxanı RPİ-nin 30-cu polis idarəsinə çağırılaraq ifadə veriblər. Ötən gün polis idarəsində ifadə verən Azad Həsənov "Yeni Müsavat"a bildirib ki, Ağasəlim Əliyevin şikayətinə əsasən guya aksiya zamanı qəsəbə gənclərindən bir neçəsi onun "Pejo" markalı avtomobilinə xəsarət yetirərək yararsız hala salıblar:**

"Ağasəlim Əliyev mənim, qardaşım Araz Həsənovun, Firdovsi Sadıqovun və Ziyad Məlikovun adımızı və telefon nömrələrimizi polisə verib. Onlar gedib ifadə veriblər. Mənə isə polisdən bildirdilər ki, artıq Ağasəlim Əliyevin şahidi də var. Bizi aksiya təşkil etməkdə və iğtişaş yaratmaqda günahlandırırlar".

Azad Həsənov araşdırmanın birtərəfli aparıldığından narazı olduğunu bildirib: "Biz şikayət etmişdik, heç kəs onu araşdırmadı. Ancaq indi Ağasəlim Əliyev şikayət edib, qəsəbənin gənclərini yığıblar polis idarəsinə. Mənə dedilər ki, sən aksiya zamanı çəkilən videoda gəncin ölümünə görə polisi günahlandırmısan. Ancaq mən belə bir ifadə işlətmədiyimi dedim".

Hövsan sakini bildirdi ki, bu dindirmələrin səbəbi icra orqanlarının Qardaşxan Səlimovu qorumaq istəyidir: "Araşdırmanın istiqamətini bu cür dəyişməklə diqqəti Qardaşxan Əliyevdən yayındırmaq və onun məktəbdən uzaqlaşmasını tələb edən sakinlərin müqavimətini qırmaq istəyirlər. Bir sözlə desək, bu, "qara məni basınca mən qaranı basım" siyasətidir. Dəmək olar ki, buna nail olublar. Mən özüm müxalifətçiyəm, belə hadisələrdən qorxmuram. Ancaq polisə çağırılan digər gənclər qorxurlar, onları ikinci dəfə çağırıb deyiblər ki, sizin əleyhinizə şahid var, gənclər bundan daha çox narahat olublar. Ancaq burada bizim qorxacağımız heç nə yoxdur. Aksiyada bir gənc dünyasını dəyişdi, Qardaşxana qarşı isə heç nə etməyiblər. Əslində, Ağasəlim Əliyev də heç vaxt qəsəbə sakinləri ilə üz-üzə gəlmək istəməzdi. Bu hadisə bitəndən sonra o, yeddi ailə ilə düşmən olacaq. Görünür onu da bu işə məcbur ediblər".

Azad Həsənov deyir ki, hiss olunur Qardaşxan Səlimovu qorumağa çalışırlar: "Çünki təhqir olunan şagirdlərin valideynləri gedib direktorun əleyhinə polisdə ifadə veriblər. Onlara da təzyiq ediblər ki, sizin də əksik işləriniz çoxdur. Uşaqlarınız icra nümayəndəsinin avtomobilini sındırıblar. Demək olar ki, bütün diqqəti Qardaşxan Səlimovun əməllərindən Ağasəlim Əliyevin şikayətinə yönəldiblər".

Azad Həsənov onu da qeyd edib ki, Hövsandakı aksiyalarda aktiv iştirak edənlərə işlərində də təzyiqlər başlayıb: "Mənim kiçik bir dükanım var, meyvə-tərəvəz alveri ilə məşğul oluram. Gecə saat 22:30-da dükanı bağladığım bir vaxtda polis gəldi və dedi ki, bizimlə bölməyə getməlisən, küçə ticarət ilə məşğul olursan. Halbuki dükanın önünə bir neçə yeşik qoymuşdum. Məni polis bölməsinə apardılar, bir saatdan çox vaxtımı aldılar, protokol yazdılar, 80 manat cərimə elədilər, sonra buraxdılar evə getdim. Səhəri gün isə zəng edib bizi aksiyaya görə polisə çağırdılar".

Qeyd edək ki, Hövsandakı 118 saylı məktəbdə təhsil alan şagirdlərin valideynləri yanvarın 19-da qəsəbədə etiraz aksiyası keçirərək məktəb direktorunun işdən çıxarılmasını və şagirdlərə göstərdiyi münasibətə görə cəzalandırılmasını tələb etmişdilər. Aksiya nəticəsində Hövsan sakini, 21 yaşlı Elmar Əliyev dünyasını dəyişmişdi.

❑ **Nərgiz LİFTİYEVA**


## Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə** və Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**



*Əyləncəli, sürətli, asan!*




*Klassik metodlardan fərqli olaraq,*
*Siz passiv deyil, aktiv dinləyicisiniz!*

*Kursumuzun sizə vəd etdiyi bacarıqlar:*
- İlk dərsdən son dərsə qədər ingiliscə danışmaq!
- Sözləri əzbərləməklə deyil onları istifadə edərək öyrənmək!
- Danışaraq sürətli qrammatika bilgisi əldə etmək!
- Əla tələffüz və güvənlə danışmaq
- Real ingiliscə söhbətlər

BONUS
english EXPLOSION
dərsləri kursumuz tərəfindən tələbələrimizə HƏDİYYƏ olunur!

*Bakı şəhəri, Bünyat Sərdarov küç 2, ev 2.*
*(012) 492 61 75; (051) 433 46 87; (070) 806 56 63*
*(İçəri Şəhər metrosu, İran səfirliyinin yanı)*



## Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gözləmədən - lateks həlqə qoyulması.*

SƏLİMOV FƏRMAN
Tel: (055) 776-70-34




# 10 saylı məktəbdə nə baş verir?

**Valideyn:** "Təlim-tərbiyə işini qura bilməyən bir direktora bu cəsarəti verən kimdir..."

**"Nizami rayonunda yerləşən 10 saylı məktəb vaxtilə Bakının tanınmış məktəblərindən biri idi. Şagird-müəllim münasibətləri, fəaliyyət üçün lazımi pedaqoji mühit, əməkdaşlıq, idarəçilərin təlim-tərbiyə işini müasir tələblər baxımından qurması, sözsüz ki, məktəbi nüfuzlu və güclü edən amillərdən idi". Bu sözlər adı çəkilən məktəbdə oxuyan şagirdlərdən birinin valideyni Hökümə İbrahimlinin qəzetimizə ünvanladığı məktubdandır.**

Valideyn yazır: "Amma son 5-6 (xüsusən də son 2) il ərzində illər boyu qazanılmış nüfuz və güc anormal idarəçilik nəticəsində, demək olar ki, itirilib. Məktəbin direktoru Leyla Məmmədovanın idarəçilikdə "öz prinsipləri" var: nə yuxarı təşkilatlardan gələn qərar, tövsiyə və sənəd, nə də insaf kateqoriyası burada işləmir. Məktəbdaxili idarəçilikdə istifadə etdiyi pedaqoji etikadan kənar üsullar yalnız onun şəxsi maraqları və nəfsinə xidmət edir. Baş verən haqsızlıq və qanunsuzluqlarla bağlı nazirliyə edilmiş müraciətlər, ərizələr araşdırılmaq üçün Bakı Şəhəri üzrə Təhsil İdarəsinə göndərilmişdi. Orada isə qaldırılmış məsələlər üzrərindən sükutla keçilmiş, faktlar guya öz təsdiqini tapmamış, problem kağız üzərində həll olunmuşdu. Direktorun özü demişkən, hər dəfə "işi yoluna qoya bilib". Məktəbdə yaranmış vəziyyət haqqında ərizə yazan, pedaqoji şurada çıxış edən müəllimlər, valideynlər isə müqəssir durumundadır".

Hazırda məktəbdə vəziyyətin daha ağır olduğunu qeyd edən şikayətçi yazır: "Son iki həftədə məktəbdə baş verənləri nəzərinizə çatdırmaq istərdim. Belə ki, yanvarın 5-də məktəbdə keçirilən Pedaqoji Şuranın iclasında bir neçə müəllim direktordan müəyyən məsələlərlə bağlı hesabat istədi. Vəziyyətdən xoşlanmayan direktor iclası pozmağa çalışaraq orada baş verənləri şou adlandırdı. Müəllimləri "çete" adlandıraraq "hara istəyirsiniz gedin, hara istəyirsiniz yazın, mənim hər yerdə adamlarım var, yazdıqlarınızı birinci olaraq mənə xəbər verirlər. Heç kimdən də qorxmuram" söylədi. Xarakter etibarilə qisasçı olan L.Məmmədova yaranmış vəziyyətdən hər dəfə heç bir nəticə çıxarmayıb. Əksinə, yeni enerji ilə hücuma keçib. Məsələn, şikayət edən müəllimlərdən biri sinifdə dərs dediyi zaman otağa gəlmiş, müəllimi şagirdlərin gözü qarşısında aşağılayaraq təhqir etmişdi. Elə həmin günlərdə məktəbin dəhlizində müəllimlərin ünvanına "vırodki" deyərək təhqiramiz sözlər söyləmişdi".

Məktub müəllifinə görə, öz şəxsi maraqlarını təmin etmək üçün hər vasitəyə əl atan direktorun söyüş, qarğış, təhqir, haqqı deyəni şərləmək, polislə qorxutmaq əsas idarəçilik üslubudur: "Bütün bunlar şagirdlərin, valideynlərin gözü qarşısında baş verir. Haqlı suallar meydana çıxır: məktəbdə təlim-tərbiyə işini qura bilməyən bir direktora bu cəsarəti verən kimdir? Nədən törətdiyi bütün mənəvi və hüquqi pozuntulara rəğmən, o, öz əməllərini hələ də davam etdirə bilir? Belə bir mühitdə müəllimlərdən təlim-tərbiyədə keyfiyyət gözləmək olarmı? Uğursuz, yerində olmayan bir məmurun - direktorun cəzasızlığı və özbaşınalığı isə əlaqədar orqanlara olan inamı sarsıdır, müəllimlər arasında ruh düşkünlüyü yaradır".

Şikayətçi daha sonra yazır: "Məktəbin ümumilikdə güclü müəllim kollektivi var. Onların arasında "Əməkdar müəllim", "İlin müəllimi", elmlər doktoru, medalla təltif olunmuşlar da var. Peşəkarlıq potensialı yüksək olan bu kollektivdə normal idarəçilik sayəsində böyük uğurlar qazanmaq olar. Təhsil verənin normal fəaliyyəti, öz funksiyasını vicdanla yerinə yetirməsi, təhsil alanların keyfiyyətli təhsil alması üçün normal pedaqoji mühit olmalıdır. İllərdir ki, 10 saylı məktəbdə bunun tam əksidir. Yaranmış vəziyyət nəticəsində yerləşdiyi ərazidə nüfuzdan düşmüş məktəbin şagirdlərinin sayı ilbəil azalır, keyfiyyət göstəriciləri aşağı düşür. Və bütün bunlar hər kəsin - əlaqədar təşkilatların, müəllimlərin, valideynlərin gözü qarşısında baş verir... Gəlin, bu günümüzü qoruyaq ki, gələcəyə ümidimiz olsun".

P.S. Qarşı tərəfin də mövqeyini işıqlandıra bilərik.

❑ **Hazırladı: NURLAN**

YENİ MÜSAVAT
N 23 (6051) 2 fevral 2015



# İlginc məhbus hekayələri...

## Biri türmədən qaçıb sonra geri qayıdır, o biri həbsdən çıxdığı gün evlənir

**Son bir ayda ölkə gündəmi məlum həbsxana hekayəsinə şahidlik edir: Söhbət türmədə ana olan Lamiyə Quliyeva ilə bağlı məsələdən gedir. Bilmirəm, başqa sözə ehtiyac qalırmı? İnsanlar əlləri üzündə quş keçməz, karvan keçməz məkanda subay bir məhbus qadının hamilə qalma ehtimalından danışır. Amma bu hadisə bizi dünyadakı ilginc türmə hekayələri ilə bağlı bir gəzişmə aparmağa vadar etdi.**

Bu günə qədər dünya türmələrində nələr olub, kimlərin başına nə kimi qəribə işlər gəlib? Bilinməyən həbsxana hekayələrində nələr yazılıb?

### Bu ölkədə məhbusun türmədən qaçmaq... hüququ var

Başlayaq Danimarkadan. Burada məhbusların həbsxanadan qaçmaq hüquqları var. Ələ keçdikdə isə onları heç bir cəza gözləmir. Məntiq də bundan ibarətdir ki, əgər kimsə həbsxanadan qaçırsa, deməli, fərasətli adamdır. Ona cəza tətbiq etmək ədalətsizlik olar.

Klivlenddə 57 yaşlı afro-amerikalı Riki Cekson adlı keçmiş məhbusun başına ilginc hadisə gəlib. 39 ilini türmədə keçirəndən sonra onun günahsız olduğu üzə çıxıb. Rikini adam öldürməkdə ittiham edirdilər. Lenta.ru saytının yazdığına görə bu, rekord göstərici sayılır.

Cekson daha iki nəfərlə birgə 1975-ci ildə Klivlenddə bir valyutadəyişmə məntəqəsi sahibi olan Harold Frenks adlı kişini vəhşicəsinə öldürmək iddiası ilə həbsə düşmüşdü. Yeganə sübut kimi isə 12 yaşlı yeniyetmə Eddi Vernonun guya Rikini hadisə yerində görməsi ilə bağlı ifadəsi yer almışdı. İşə yenidən baxılmasının səbəbi isə hazırda 53 yaşında olan Vernonun 37 il əvvəl verdiyi ifadədən imtina etməsi olub. Oqayo ştatında qüvvədə olan "Günahsızlıq" layihəsinə görə, Vernon bu etirafını həm də keşiş qarşısında edib. O, deyib ki, hadisə baş verən zaman o, məktəb avtobusunun içində olub. Ona görə də baş verənləri dəqiqliklə görə bilməyib. Bundan başqa, keçmiş məktəbli hökumətin işinə yaramaq üçün yalan danışdığını da boynuna alıb. Nəticədə R.Cekson azadlığa buraxılıb. Onunla birgə cinayəti həyata keçirdiyi iddia edilən digər 2 şəxsin də işi məhkəmədədir, onların da azadlığa buraxılacağı gözlənilir...

Amerikada isə dözülməz şaxta qəribə bir halın yaşanmasına səbəb olub. Kentucky əyalətində Lexington türməsindən qaçan cinayətkar Robert Vick, mənfi 20 dərəcə şaxtaya dözə bilməyib həbsə geri qayıtmaq istəyib. 11 il həbsə məhkum olan 42 yaşındakı Vick türmədən qaçdıqdan sadəcə bir gün sonra polisə zəng edərək, həbsxanaya geri qaytarılmasını xahiş edib.

### Türmədə 40 qadın sevdi, birini aldı

1996-cı ilin 3 oktyabr günü ABŞ tarixində qəribə bir hadisə baş verdi. Belə ki, ölüm hökmünə məhkum olunmuş silsilə qatilin toy mərasimi təntənəli surətdə qeyd edildi. Sen Kventin həbsxanasına gəlmiş keşiş Dorin Lioy adlı xanımla Rikardo Ramires adlı cani arasında nikah bağladı. Onu da qeyd edim ki, Dorin Lioy filologiya üzrə bakalavr elmi dərəcəsinə malikdir. Onun qatı cinayətkara qarşı sevgisi hələ 1985-ci ilə təsadüf edir. O vaxtlar törətdiyi çoxsaylı qətl hadisələrinə görə ölüm hökmünə məhkum olunmuş Rikardo Ramires çoxları kimi Dorin Lioyun da qəlbini fəth edə bilmişdi. Təkcə o faktı qeyd etmək kifayətdir ki, Rikardo Ramiresi indiki həyat yoldaşından əlavə 40 qadın da sevirdi. Lakin tale təkcə Dorin Lioyun üzünə güldü və onun gözlədiyi an, nəhayət ki, yetişdi. Xoşbəxt cütlük nikah mərasimindən sonra qol-qola girib, həbsxananın qapılarından eşiyə çıxdı. Onları burada çoxsaylı jurnalist ordusu gözləyirdi. Sevinci yerə-göyə sığmayan gəlin fikirlərini belə səsləndirdi: "Mən tamamilə xoşbəxtəm, çünki həyatımdakı ən böyük arzum yerinə yetdi." Müxbirlərdən birinin verdiyi, "xanım, siz nə üçün özünüzə qızıl, bəyə isə platin üzük almışsınız" sualı gözlənilməz şəkildə cavablandırıldı: "Ona görə ki, şeytanlar qızıl taxmırlar!"

### Həbsxanada ruhlar da var, məhbuslar da...

Keçək əcaib türmələrə. Alkatras ABŞ-ın yalnız ən köhnə türməsi deyil, həm də ruhların sıx məskən saldığı ən sirli məkanıdır. Kaliforniya ştatına aid olan bu adadakı qədim həbsxana, hazırda isə muzey olan ərazi başqa bir ölçülü enerji mənbəyidir ki, buraya gələn adam buranı gəldiyi kimi tərk etmir.

Hələ yerli amerikalılar belə hesab edirdilər ki, adada şər ruhlar məskən salıblar. Belə ki, onlar sərt cəza qismində adaya özlərinin həmtayfalarını göndəriblər. Hal-hazırda isə bu ruhlar çoxsaylı cinayətkarın dumanlı adada daimi "məskunlaşmış", həbsxananın qaranlıq dəhlizlərində yaşayan narahat ruhları ilə "birləşiblər". Onların səslərini eşitmək də, onları hiss etmək də olur. Buraya gələnlər çox vaxt kişi səsləri, qışqırıqlar, fit səsləri, metal qapıların cingiltisini eşidir... Həbsxana keşikçilərinin çoxu bildirirdilər ki, burada hətta hönkürtü və iniltilər eşidirlər. Dəfələrlə isə adada "alışıb yanan gözləri olan məxluqları" gördüklərini bildiriblər. Üstəlik, məhbusların ruhları yalnız həbsxana işçilərinin deyil, onların adada yaşayan ailə üzvlərinin də gözlərinə görünürdülər.

### Bu türmədə məhbuslar niyə siçan dərmanı içmək istəyir?

Dünyanın ən acınacaqlı cəzaçəkmə müəssisələri siyahısında birinci yeri Braziliyanın San-Paulu şəhərindən bir neçə kilometr aralıda yerləşən Carandiru həbsxanası tutur. Buradakı hər 5 məhkumdan biri QİÇS xəstəliyinin daşıyıcısıdır. Məhkumlar cərrahiyyə əməliyyatı olunan zamanı "narkoz"dan istifadə edilmir, istifadədə rədd cavabı verilir. 7500 məhkuma dörd növbədə çalışan cəmi 1000 türmə əməkdaşı düşür.

Siyahıda ikinci yeri Kolorado (ABŞ) ştatında yerləşən ADX Florense federal həbsxanası tutur. Ciddi rejimli bu müəssisənin məhkumları kameradan kənarda həftədə cəmi 9 saat keçirirlər. Onlar öz kameralarında yeməyə, yatmağa və tualetə getməyə məcburdurlar. Məhkumlar sutka ərzində 22 saatdan artıq Günəş işığından məhrumdurlar.

Siyahıda üçüncü yer Paris yaxınlığındakı La Sante həbsxanasına verilib. Hətta onu Avropanın mərkəzindəki qara nöqtə adlandıranlar da var. Bu müəssisədəki məhkumlar elə bir zülm altında saxlanılırlar ki, canlarını qurtarmaq üçün sutkalarla başlarını divara vurmağa, siçan zəhəri və çəngəl udmağa hazırdırlar. Təkcə 1999-cu il ərzində bu həbsxanada 124 məhkum müxtəlif səbəblərdən həyatını itirib. Ağzına kimi dolu kameralar, duş qəbul etmək imkanının olmaması, keyfiyyətsiz ərzaqlardan istifadə - bütün bunlar məhbuslar arasında dəri xəstəliklərinə gətirib çıxarır. Müəssisədə o qədər siçovul var ki, məhkumlar öz əşyalarını tavandan asmağa məcburdurlar. La Sante əvvəllər olduğu kimi indi də zorakılıq, əxlaqsızlıq və vəhşilik məkanı kimi tanınmaqdadır. Burada daha zəif məhkumlar qula çevrilirlər.

Suriyadakı Tadmor hərbi həbsxanası dördüncü yerdədir. Tadmordakı adi saxlanma rejimində belə dustaqlara baltalardan, iplərdən və taxtalardan istifadə olunan orta əsrə xas işgəncələrdən istifadə olunur. Mühafizəçilər kef məclislərindən sonra işgəncə obyektini sırf təsadüf nəticəsində seçirlər. Bu cür işgəncə tamaşalarına hətta dustaqları baxmağa da məcbur edirlər. Bu türmə ölüm hallarına görə siyahıdakı ən üst yerlərdən birini tutur. Üstəlik, Tadmorda sıradan məhkumlarla siyasi məhbuslar bir arada saxlanır ki, bu da ölkədəki gərgin situasiyanı daha da gərginləşdirir.

### Bura türmə deməyə min şahid lazımdır...

İsveç türmələrinə ekskursiya zamanı isə adama elə gəlir ki, otellər arasında gəzintiyə çıxırsınız. Stokholm şəhərindəki Kronoberqsxeket adlanan türməyə uzaqdan baxanlar onu üçulduzlu otelə oxşadırlar. Orda məhkumlar da xoşbəxtdir, işçilər də. Türmənin düz 300 işçisi var ki, onların 16-sı hər gecə növbətçilik edir. Məhkumların qulluğunda həkimlər, psixoloqlar, saç ustaları ilə yanaşı, Qırmızı Xaş Komitəsinin könüllü işçiləri də dayanır. Onları keşişlər və mollalar da tez-tez ziyarət edir.

Türmənin hər mərtəbəsində məhkumlar üçün avtomat telefonlar da quraşdırılıb.Telefon kartının köməyi ilə məhkum istədiyi yerlə əlaqə saxlayıb, istədiyi qədər danışa bilir. Məsələn, məhkumun öz vəkilinə telefon açması pulsuzdur, onu hökumət ödəyir. Amma məhkumlara göndərilən sovqat məsələsində bir qədər məhdudiyyət var. Türməyə araq, şərab, siqaret, dibçəkdə çiçək (içində narkotik maddə ola bilər) keçirmək olmaz. Məhkum siqaret, meyvə-tərəvəz, habelə bəzi əşyaları türmənin öz mağazasından ala bilər. Qəzetləri isə almağa ehtiyac yoxdur. Orda onları sərbəst şəkildə oxumaq olur. Çünki türmə gündəlik nəşrlərə abunədir. Televizora isə gün ərzində məhdudiyyətsiz baxmağa icazə var. Hər kamerada kiçik televizor və elektrik əşyaları var. "Otboy"dan əvvəl onların heç birini söndürmürlər. Bu türmədə məhkumların mütaliə hüquqları da tamamən qorunub. Belə ki, türmə kitabxanasında dünyanın 30 dilində 50 min kitab ehtiyatı var. Həbsxana işçiləri diyircəkli arabalarla həmin kitabları məhkumların kamerasına qədər gətirir. Əgər onların arasında məhkumun sifariş etdiyi kitab yoxdursa, kitabxana rəhbərliyi onu nəyin bahasına olursa- olsun tapır.

Türmədəki xəstələrə isə xüsusi qulluq edilir. Onlar tibbin ən yüksək standartları ilə müalicə edilir. Özü də xəstələri məhkumlar üçün yox, adi xəstələr üçün nəzərdə tutulmuş hospitallarda müalicə edirlər. Lazım gələndə isə onlara əlavə mühafizəçi də ayrılır ki, qaçmasınlar. Məhkumların idmanla məşğul olmasına da maksimum şərait yaradılıb. Onlar türmənin idman zalında və həyətində voleybol, tennis oynaya, trenajor zallarında istədikləri qədər məşğul ola bilərlər.

❑ Sevinc TELMANQIZI

YENİ MÜSAVAT

Son səhifə

N 23 (6051) 2 fevral 2015



## Dünya Anjelina Coliyə heyrandır

İngiltərənin "YouGov" araşdırma şirkəti maraqlı sorğu keçirib. Sorğuların nəticələrinə görə, Anjelina Coli dünyada ən çox heyran olunan qadındır. 25 min insan arasında keçirilən sorğuda hər 10 nəfərdən biri Ancelina Coliyə hörmət bəslənilməsinin gərəkliyini düşünür. Anketdə ən çox səs toplayan ikinci qadın Malala Yusufzai adlı Nobel mükafatçısı - pakistanlı insan haqları müdafiəçisidir. ABŞ xarici işlər naziri Hillari Klinton dünyanın ən çox heyran olduğu üçüncü qadındır.

# Bütün sərvətini itinə bağışlayacaq...



ABŞ-ın Nyu-York şəhərində yaşayan 60 yaşlı qadın 1,5 milyon dollarlıq sərvətini uşaqlarına deyil, itinə verəcək. "Daily Mirror" qəzetinə müsahibə verən Rose An Bolsany öldüyü zaman bütün pulunu, zinət əşyalarını, evlərini 3 yaşlı teriyer cinsli itinə bağışlayacağını deyib. O, Bella Mia adlı itini çox sevdiyini və hər zaman varlıq içində yaşamasını istədiyini deyib. Bellanın hər axşam ət yediyini və it paltarları ilə dolu xüsusi bir otağının olduğunu deyən qadın bu qərarı uzun müddət düşündükdən sonra verib. Bolsayın iki oğlu olsa da, onlara mirasından pay verməyəcək. Övladları da onun bu fikri ilə razılaşırlar. Bolsany itinin sevgilisi olduğunu da deyib. Ötən il Mianın sevgilisinin sahibi ona 600 dollar qiyməti olan brilyant boyunbağı alıb.

# Bu şifrələri unutmayın

Təhlükəsizlik şirkəti olan "SplashData" artıq hər kəsin istifadə etdiyi ən pis şifrələrin siyahısını hazırlayıb. Siyahıda 2014-cü ildə 3,3 milyon dəfə sındırılmış şifrələr var. 2013-cü ilin ən pis şifrəsi seçilən "123456" bu il də internetdə ən çox qırılan şifrə olub. 123456-ın əzəli rəqibi isə "pasvord" kimi istifadə edilən şifrədir. Ən təhlükəli şifrələr sırasında "football, baseball, batman, superman" da var. Ötən il ən çox istifadə edilən şifrələr arasında "Iloveyou" da var. 2014-cü ilə hesablarının şifrəsi romantik olanlar bu il daha diqqətli davranıblar. Mütəxəssislər tezliklə dəyişdirilməli olan şifrələrin bunlar olduğunu deyirlər:



1. 123456
2. password
3. 12345
4. 12345678
5. qwerty
6. 1234567890
7. 1234
8. baseball
9. dragon
10. football
11. 1234567
12. monkey
13. letmein
14. abc123



## Dünyanın ilk sualtı şəhəri

Yaponiyanın bir memarlıq firması tərəfindən inşa edilən, 2035-ci ildə bitməsi gözlənilən projenin dünyanın ilk sualtı şəhəri olacağı gözlənilir. "Mavi bağça" adı verilən proyekt 500 metrlik bir sahəni əhatə edir. Kürə formasındakı şəhər 4 futbol meydançasından daha böyükdür. Üstəlik su və elektrik qaynağı dənizin 3,2 kilometr dərinliyinə qədər gedə bilir. Bu şəhərdə hər şey üçün yer olacaq. Otellər, şirkətlər və evlər olan şəhərcikdə 5 min nəfərin yaşaya biləcəyi deyilir. Şəhərin içərisindəki balkon bütün şəhər sakinləri tərəfindən istifadə ediləbiləcək. Sualtı şəhəri dünyaya tanıdan "Shimizu" şirkəti projenin məqsədinin dənizin altındakı boş sahələrdən istifadə etmək olduğunu deyib. Çünki hər gün dəniz suyunun səviyyəsi artır və bir müddət sonra bəzi ölkələr su altında qala bilər. Sualtı şəhərdə yaşayanlar isə heç vaxt bu təhlükəni yaşamayacaqlar.

# "Tanrının əli" göründü



Avropanın Güney Nəzarət Evindəki böyük teleskop formasına görə "Tanrının əli" və "Canavar ağzı" olaraq adlandırılan nebulanın bu günə qədər ən aydın şəklini çəkib. Nebula kosmosa yayılmış qaz və toz buludlarıdır. "Tanrının əli" çevrəsindəki ulduzların təsiri ilə diqqət cəlb edən bir görüntü yaradır. "Tanrının əli" astronomların tapa biləcəyindən daha böyükdür. Uzunluğu 20 trilyon kilometr olan nebulanın böyük bir ulduzun partlamasından sonra yarandığı güman edilir.




**QOÇ** - Bu gündən fevral ayının uğurlu zaman kəsiyinə daxil olacaqsınız. Odur ki, donub qalan bütün planlarınızı hərəkətə gətirməlisiniz. Tək əldən səsin çıxmadığını da nəzərə alın.

**BUĞA** - Hər bir qərarda imanlı olmağa çalışın. Kimisə acılamaq, zəif tərəfindən vurmaq, passivlikdə günahlandırmaq olmaz. Ümumiyyətlə, ünsiyyətdə ədalət prinsiplərindən qidalanın.

**ƏKİZLƏR** - Gələcək üçün nəzərdə tutduğunuz planları indidən götür-qoy etməlisiniz. Bu istiqamətdə müəyyən məsləhətləşmələr aparmaq da olar. İşdən sonra sevgi görüşləri səmərəlidir.

**XƏRÇƏNG** - Ətrafınızda baş verən hadisələrin məcrasından çıxması ovqatınızı aşağı salmamalıdır. Axı həyatın enişi də, yoxuşu da labüddür. Əsas planları günün ikinci yarısına saxlayın.

**ŞİR** - Fəaliyyət istiqamətində tənbəlliyi bir kənara atıb aktivliyinizi artırın. Ətrafınızda olanları başa düşməyə çalışın. Ola bilsin ki, gün ərzində müəyyən gəlir də əldə edəsiniz.

**QIZ** - Hansısa yeni işlərə başlamaq, uzaq yola çıxmaq, riskli pul sövdələşmələri aparmaq yolverilməzdir. Çünki bu gün daxili enerjiniz yalnız gündəlik qayğılarla məşğul olmağa yetəcək.

**TƏRƏZİ** - Heç nədən çəkinməyin. Əmin olun ki, qarşınızda duran bütün maneələri dəf etməyə gücünüz yetəcək. Bir şərtlə ki, günaha batmayasınız. Saat 16-dan sonra yeniliklər gözlənilir.

**ƏQRƏB** - Günün ümumi mənzərəsi düşərli görünür. Bu isə hər bir məsələdə şansların olacağını bildirir. Odur ki, aktivliyinizi artırmalısınız. Saat 17-dən sonra bütün dəvətləri təxirə salın.

**OXATAN** - İş rejimi imkan versə, fəaliyyətə ara verib müqəddəs ziyarətgahlarımıza, dünyadan getmişlərinizin qəbirlərinə baş çəkin. Axşama yaxın bir neçə yeniliyin şahidi olacaqsınız. Əşyalarınızı qoruyun.

**OĞLAQ** - Hər bir hərəkətinizi tənzimləməyə çalışın. Xüsusən də həmkarlarınızla münasibətdə mülayim olun. Əks təqdirdə saat 12-16 aralığında qalmaqalla üzləşməli olacaqsınız. Savab işlərinizi artırın.

**SUTÖKƏN** - Əgər daxili orqanlarınız qaydasındadırsa, qripdən uzaqsınızsa, gün ərzində hansısa problemlə üzləşməyəcəksiniz. Risk tələb edən məsələlərdə etibarlı dostlarınıza arxayın ola bilərsiniz.

**BALIQLAR** - Nahara qədər ətrafınızda baş verənlər ovqatınıza müsbət təsir göstərməyəcək. Buna baxmayaraq, təmkinli olsanız, xəta sovuşacaq. Saat 15-dən sonra maraqlı təkliflər gözlənilir.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

# İlan əti yedi, 9 il həbs aldı



Zimbabvedə yaşayan kişi 9 il müddətinə azadlıqdan məhrum edilib. Uzun müddətdir ki, Zimbabvedə ilanlar qorunur və onları yeyənlərə ağır cəzalar verilir. Arçel Mramba adlı kişi isə boynunda ağrılar olduğu üçün qadağalara məhəl qoymayıb. O, ağrılardan xilas olmaq üçün piton ilan tutub və yeməyə başlayıb. Polisə xəbər verildikdən sonra yaşlı kişinin evində araşdırma aparılıb. A.Mrambanın evindən çoxlu ilan dərisi və əti tapılıb. O, müalicə məqsədi ilə ilan əti yediyini desə də, hakim ona ağır cəza verib. 58 yaşlı kişi 9 il həbs cəzası alıb.

Səhifəni hazırladı: ŞAHNAZ

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "E-Q" mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Zahid SƏFƏROĞLU

Lisenziya N: B 114
SAYI: 5.300